RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 205 (10225) 6 noyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Vətən müharibəsi - Azərbaycanın qüdrət, birlik və Zəfər salnaməsi



Təxminən 30 il ərzində Azərbaycan torpaqlarının bir hissəsinin işğal altında qalması ölkəmizin qarşılaşdığı ən ağır problemlərdən biri idi. Bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün doğma yurdundan ayrı düşmüş, şəhər və kəndlərimiz böyük dağıntılara məruz qalmışdı. Münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında həlli istiqamətində uzun illər aparılan danışıqlar isə gözlənilən nəticəni verməmişdi. Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz çıxması barədə BMT-nin qəbul etdiyi 4 qətnaməyə də məhəl qoyan yox idi.

Uzun illər sülh prinsiplərinə sadiq qalan, münaqişənin heç bir tərəfdən itkilərə, yeni insan faciələrinə yol vermədən həllini tapması üçün danışıqları illər ərzində səbirlə davam etdirən, amma eyni zamanda ordu quruculuğunu, hərbi hazırlığı da qətiyyətlə davam etdirən Azərbaycan dövləti sülh danışıqlarının heç bir nəticə verməyəcəyinə tam əmin olandan sonra işğalçı ilə anladığı dildə danışmağa qərar verdi və təmas xəttində Ermənistanın törətdiyi növbəti təxribata cavab olaraq "dəmir yumruq" işə düşdü.

2020-ci il sentyabrın 27-də başlayan intensiv hərbi əməliyyatlar illərlə davam edən vəziyyəti kökündən dəyişdi. Azərbaycan Ordusu 44 gün ərzində ancaq irəli gedərək, ardıcıl zəfərlərlə Qarabağın, Şərqi Zəngəzurun şəhər və kəndlərini işğaldan azad etdi. Noyabrın 8-də Şuşanın azad olunması müharibənin taleyində həlledici rol oynadı. Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada üçrəngli bayrağımızın yenidən dalğalanması noyabrın 8-ni Zəfər günümüzə çevirdi.


Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılması razılaşdırıldı. Beləliklə, 44 günlük müharibənin nəticələri ölkəmizin ərazi bütövlüyünün bərpası yolunda həlledici mərhələ oldu.

Azərbaycanın Zəfəri yalnız ölkəmizin deyil, bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyi baxımından yeni reallıqlar yaratdı. Müharibənin nəticələri regionda uzun illər mövcud olmuş siyasi və hərbi vəziyyəti dəyişdirdi, nəqliyyat və kommunikasiya xətlərinin açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və dayanıqlı sülhün qurulması üçün yeni perspektivlər açdı. Azərbaycan üçün yeni dövrün əsas hədəfi hərbi sahədə əldə edilmiş nəticələrin siyasi, iqtisadi və sosial inkişafla möhkəmləndirilməsi, regionda sabitliyin və təhlükəsizliyin təmin olunması oldu.

9

Azərbaycan-Gürcüstan: yeni imkanlar, ortaq hədəflər

Prezident İlham ƏLİYEV: "Biz bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birimizi dəstəkləyirik"



Prezident İlham Əliyevin 2026-cı il aprelin 6-da Gürcüstana dövlət səfəri iki ölkə arasında münasibətlərin inkişafında diqqətəlayiq hadisələrdən biri kimi yadda qalıb. Səfər çərçivəsində Gürcüstan Prezidenti Mixeil Kavelaşvili və Baş nazir İrakli Kobaxidze ilə keçirilən görüşlərdə iqtisadiyyat, enerji, nəqliyyat, logistika və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib. Dövlət başçılarının mətbuata birgə bəyanatında İlham Əliyev deyib: "Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik. Əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək".

İki ölkə arasında aparılan danışıqların və əldə olunan razılaşmaların real nəticələri konkret iqtisadi layihələrdə də öz əksini tapır. Bunun son nümunəsi oktyabrın 30-da Gürcüstanın Siqnaxi şəhərində keçirilən Azərbaycan və Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasıdır. İclas çərçivəsində iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-logistika imkanlarının artırılması və birgə layihələrin həyata keçirilməsi istiqamətində yeni razılaşmalar əldə edilib. İclas çərçivəsində imzalanan sənədlərdən biri sərhəd-keçid infrastrukturunun inkişafına və yükdaşımaların asanlaşdırılmasına yönəlib. "İpək yolu - Abreşumis Qza" birgə beynəlxalq avtomobil buraxılış məntəqəsinin fəaliyyətinin praktiki mərhələyə keçməsini nəzərdə tutan protokolun imzalanması sözügedən sahədə atılan addımlardan biri kimi qiymətləndirilir. Sənəd Ağstafa-Qardabani istiqamətində birgə sərhəd-keçid məntəqəsinin fəaliyyətinin təşkili və tətbiqi ilə bağlıdır.

8

Güclü lider, qalib dövlət və məğrur xalq

Şuşa Zəfərinin qazanılmasından sonra Azərbaycan dövlətinin qarşısında duran ali və dəyişməz məqsəd ölkənin bütün suveren hüquqlarının bərpası, ərazimizin hər bir qarışında konstitusiya quruluşunun təmin edilməsi idi.

Tarixi ədalətin tam bərqərar olması istiqamətində növbəti həlledici addım 2023-cü ilin sentyabrında atıldı. Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri cəmi 23 saat ərzində Qarabağda kök salmış separatizmin məhv edilməsi ilə nəticələndi. Ölkəmizin qüdrətini və hərbi-taktiki üstünlüyünü bir daha sübut edən bu uğurlu əməliyyat sayəsində Azərbaycanın suverenliyi tam təmin olundu.

Bu əməliyyat Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası istiqamətində uzun illər ərzində həyata keçirilən ardıcıl siyasətin məntiqi nəticəsi idi. Azərbaycan dövləti öz ərazisində qanunun aliliyini və konstitusiya quruluşunu təmin etmək hüququndan istifadə edərək separatizmə son qoydu. Bununla da ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərində dövlət hakimiyyətinin tam bərqərar olunması üçün tarixi şərait yarandı. 2020-ci ildə qazanılmış hərbi Qələbə 2023-cü ildə suverenliyin tam bərpası ilə tamamlandı.

7

Konqresdəki dəyişikliklər ABŞ-nin Cənubi Qafqaz siyasətinə necə təsir edəcək?

Vaşinqton üçün Cənubi Qafqaz mühüm əhəmiyyət kəsb edən regiondur. Çindən Avropaya doğru uzanan, Rusiyadan yan keçən Trans-Xəzər logistika dəhlizinin, Bakı-Tbilisi-Ceyhan və "Cənub qaz dəhlizi", Trans-Anadolu Qaz Boru Kəməri, Trans-Adriatik Qaz Boru Kəməri kimi enerji xətlərinin təhlükəsizliyinin və dayanıqlılığının təmin olunması ABŞ-nin qlobal iqtisadi strategiyasının tərkib hissəsidir. Eyni zamanda Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması vasitəsilə regionda uzunmüddətli sabitliyin bərqərar edilməsi Vaşinqtonun dəyişməz strateji hədəfidir. Məhz bu fundamental maraqlar fonunda Amerikanın Cənubi Qafqazda kəskin və tam bir "U-dönüşü" etməsi, yəni regiondan birdəfəlik geri çəkilməsi və ya geosiyasi mövqeyini 180 dərəcə dəyişməsi praktiki olaraq imkansızdır. Məlumdur ki, beynəlxalq münasibətlərdə geosiyasi vakuum qanunu işləyir, yəni indiki halda ABŞ-nin regionu tərk etməsi yaranacaq strateji boşluğun dərhal Rusiya, İran və ya Çin tərəfindən doldurulması ilə nəticələnər ki, bu da Vaşinqtonun qlobal çəkindirmə doktrinasına ziddir. Üstəlik, okeanın o tayında bütün siyasi qüvvələrə bəllidir ki, Azərbaycan suveren xarici siyasət xətti, güclü iqtisadi-hərbi potensialı və regionda formalaşdırdığı yeni geostrateji reallıqlar sayəsində istənilən beynəlxalq subyektlə münasibətlərini diktə altında deyil, bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında qurmaq gücündə olduğunu artıq sübut edib. Yəni rəsmi Bakı heç bir xarici gücdən birtərəfli asılılıq yaratmadan, öz milli maraqlarını mərkəzdə saxlayaraq çoxvektorlu və balanslaşdırılmış diplomatiya yürütmək imkanına malikdir.



8

11 min günün həsrətinə son qoyan 44 gün

44 deyəndə göz önündə sadəcə iki rəqəmdən ibarət bir ədəd canlanmır. Bu rəqəm bir xalqın taleyinə çevrilmiş 44 günlük mübarizəni, milyonlarla insanın eyni anda yaşadığı həyəcanı, intizarı, qorxunu, ümidi, kədəri və sevinci xatırladır. Onun arxasında Vətən sevgisi, ana duası, eləcə də yarımçıq qalmış arzular, göz yaşları və nəhayət, böyük Zəfərin sevinci dayanır.

2020-ci ilin payızında Azərbaycan üçün zaman başqa cür axırdı. Səhərlər xoş xəbərin intizarı ilə açılır, axşamlar dualarla başa çatırdı. Müharibə cəbhədə gedirdi, amma onun nəfəsi hər evdə, hər ailədə duyulur, ağırlığı hər qəlbi sıxırdı. Kiminin oğlu, kiminin qardaşı, kiminin atası, kiminin də həyat yoldaşı Vətənin müdafiəsində idi. Hər kəsin gözü ekranlarda, qulağı səsdə, düşüncəsi isə cəbhədə idi.



O günlərin özünəməxsus bir səssizliyi vardı. Həyat zahirən öz axarı ilə davam etsə də, hər kəsin daxilində başqa bir dünya yaşanırdı. Bir ana telefon zəngində oğlunun səsini eşitmək ümidi ilə yaşayır, bir ata nigaranlığını gizlətməyə çalışır, bir uşaq isə atasının nə vaxt qayıdacağını soruşurdu. "Necəsən?" kəlməsi belə həmin günlərdə tam başqa anlamla yüklənmişdi. Bu üç hecalı müraciətin arxasında nigarançılıq, həsrət, ümidlə yanaşı, "sağsanmı, salamatsanmı?" deyə çırpınan ürəklər gizlənirdi.

Bütün bu ağrıların içində xalqın ruhunda sınmaq deyil, birləşmək hissi güclənirdi. Tanımadığımız insanların dərdini öz dərdimiz, sevincini sevincimiz kimi qəbul edirdik. Ölkə 44 gün xalqın ortaq taleyində yaşadı. Bəlkə də Azərbaycan xalqının həmin günlərdə yaşadığı duyğuların ən qeyri-adiliyi elə bunda idi: müharibə başlayanda insanlar qorxu ilə yanaşı, "nəhayət!" deyə bir sevinc də yaşadılar.

7



“Qismən yenilənmiş Radiorabitə Reqlamenti və onun əlavələri”nin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Beynəlxalq Telekommunikasiya İttifaqının 2023-cü il 20 noyabr – 15 dekabr tarixlərində baş tutmuş Ümumdünya Radiorabitə Konfransının Yekun Aktları ilə qəbul olunmuş “Qismən yenilənmiş Radiorabitə Reqlamenti və onun əlavələri” Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 oktyabr 2026-cı il

Media nümayəndələrinin təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan radiosunun 100 illik yubileyi və Azərbaycan televiziya və radio işçilərinin peşə bayramı münasibətilə **qərara alıram:**

1. Azərbaycanda medianın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

“Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə

Ağayev Qənbər Müseyib oğlu
Əliyarzadə Rahib Kamal oğlu
Əliyeva Nigar Əli qızı
Hüseynov Murad Məhəmməd oğlu
Hüseynova Çimnaz Həbib qızı
Quliyeva Nigar Sabir qızı

2-ci dərəcəli “Əmək” ordeni ilə

Əliyev Aydın Hüseyn oğlu
Müzəffərli Azad Müzəffər oğlu
Zöhrəbova Məryəm Abbas Qulu qızı

3-cü dərəcəli “Əmək” ordeni ilə

Abdullayev Azər Sədulla oğlu
Eminbəyli Şakir Vəfa oğlu
Eyvazova Aida Məmmədşah qızı
Xəlilova Sevinc İbrahim qızı
İslam-zadə Nailə Hünbət qızı
Qədirzadə Leyla Salam qızı
Quliyeva Arzu Telman qızı
Novruzov Faiq Səttar oğlu
Ramazanov Mübariz Fazil oğlu
Sadıqov Orxan Fikrət oğlu

“Tərəqqi” medalı ilə

Abdullayev Həsən Nəcəfqulu oğlu
Abuşev Hüseyn Rauf oğlu
Ağamirov Vasif Alp oğlu
Allahverdiyeva Lalə Abbas qızı
Allahyarov Ziya Qələməli oğlu
Aslanova Billurə Aslan qızı
Babayev Zamiq Esmiran oğlu
Babayev Zaur Eyvaz oğlu
Babayeva Təhminə Adil qızı
Bağırov Kazım Rasim oğlu
Cabarov Fuad Şamil oğlu
Cavadov Rövşən Novruz oğlu
Dadaşov Tural Sİyavuş oğlu
Dementyeva Viktoriya Serqeyevna
Eynullayeva Sudabə Cahangir qızı
Əbilova Xəyalə Əliağa qızı
Ədilova Jalə Elsevər qızı
Əfəndiyeva Afaq Vasif qızı
Əlibəyli Elçin Vidadi oğlu
Əliverdiyeva Mətanət Məcnun qızı
Əliyev Cavid Qabil oğlu
Əliyev Elman Yusubəli oğlu
Əliyev Elşad Xalid oğlu
Əliyev Elşən Həsən oğlu
Əliyev Səyavuş Ağamehdi oğlu
Əliyev Teymur Hafiz oğlu
Əliyev Tural Əmir oğlu
Hacıyev Əli Əflan oğlu
Həsənli Ceyhun Eyvaz oğlu
Həsənov İsmayıl Firudin oğlu
Hüseynov Emin Tofiq oğlu
Hüseynov Əliheydər Şahbaz oğlu
Xəlilov Fəxri Vaqif oğlu
İsgəndərova Vəfa Zahid qızı
İsmayılov Şahin Bayraməli oğlu
İsmayılova Marina Yusif qızı
İsmayılova Pərvin Süleyman qızı
Qafarov Fərrux Əlihüseyn oğlu
Qarayev Azər Əyyub oğlu
Qasımova Pərvanə Nadir qızı
Qənbərov İlham Bərxudar oğlu
Quliyeva Jalə Sabir qızı
Qurbanov İbrahim Vilayət oğlu
Mehdiyeva Məhəbbət Rəhman qızı
Məmmədova Arzu Möhübbət qızı
Məmmədova Bənövşə Xudaverdi qızı
Məmmədova Xəyalə Gülalı qızı
Mirzəyeva Dilşad Tahir qızı
Muradova Gülnar Hacı qızı
Nadirov Ağəli Ramiz oğlu
Nəsibova Almaz Mahmud qızı
Nəsirov Emil Nəsir oğlu
Piriyeva Aytən Sədaqət qızı
Rəsulova İlhamə Loğman qızı
Seyidova Səbinə İslam qızı
Sultan Ruslan Sultan oğlu
Şirinova Gülyaz Musa qızı
Tağıyev Yaşar Tahir oğlu
Tanrıverdi Hüseyn İsmayıl oğlu
Zeynalov İlham Adil oğlu.

2. Azərbaycanda medianın inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Hadıyev Fazil Rauf oğlu
Məmmədov Əhməd Qədir oğlu.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2026-cı il

“BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı” beynəlxalq tədbirinin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi “BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı” mövzusunda beynəlxalq tədbirdə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Dövlət xidmətlərinin əlçatanlığı, şəffaflıq və rəqəmsallaşma dayanıqlı inkişafın mühüm şərtlərindəndir. Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatların nəticəsi olaraq 2012-ci ildə dövlət xidmətlərinin keyfiyyətli, innovativ və inteqrasiya olunmuş qaydada göstərilməsini təmin edən “ASAN xidmət” yaradılmışdır.

Dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidinə zəmin yaradan “ASAN xidmət” bu gün yalnız qabaqcıl milli idarəçilik təcrübəsi deyil, həm də beynəlxalq maraq doğuran unikal Azərbaycan brendidir. Bu təcrübəmizin 50-dən çox ölkə ilə paylaşılması və artıq müxtəlif ölkələrdə uğurlu tətbiqi “ASAN xidmət”in dövlət xidmətlərinin təşkilində səmərəli institusional model olduğunu sübut edir.

Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşan “ASAN xidmət”in fəaliyyəti BMT tərəfindən də yüksək qiymətləndirilir. “ASAN xidmət”in 2015-ci ildə BMT-nin “Dövlət Xidmətləri Mükafatı”na, 2019-cu ildə isə “Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində Xüsusi Mükafat”a layiq görülməsi nailiyyətlərimizin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir.

BMT ilə əməkdaşlıq bu təcrübəmizin daha geniş coğrafiyada təşviqi üçün yeni imkanlar yaradır. 2024-cü ildə Azərbaycan ilə BMT arasında imzalanmış Töhfə Sazişi “ASAN xidmət” nümunəsinin dörd qitədə təbliğini ehtiva edir.

Azərbaycan bundan sonra da dayanıqlı inkişaf məqsədlərinin təşviqini dəstəkləyəcək, keyfiyyətli dövlət xidmətlərinin göstərilməsi istiqamətində beynəlxalq fəaliyyətə töhfə verəcəkdir.

Əminəm ki, bugünkü tədbir mütərəqqi ideya və yeni yanaşmaların təşviqinə, habelə konkret təşəbbüslərin irəli sürülməsinə xidmət edəcəkdir.

Sammitin işinə uğurlar, bütün iştirakçılara səmərəli müzakirələr arzulayıram.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2026-cı il

Braziliya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Luiz İnasio Lula da Silvaya

Hörmətli cənab Prezident!

Braziliya Federativ Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Braziliya ilə dostluq əlaqələrinin inkişafına böyük əhəmiyyət verir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Braziliya xalqının firavanlığı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2026-cı il

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Dəyərli qardaşım!

Ölkənizin şanlı bayramı - Zəfər Günü münasibətilə Sizi - əziz qardaşımı və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizin müdrik və ardıcıl siyasətiniz, yüksək rəhbərlik məharətiniz və Vətənin taleyi naminə göstərdiyiniz əsl fədakarlıq sayəsində Azərbaycan xalqının çoxəsrlik arzu və istəkləri altı il bundan əvvəl tam gerçəkləşərək tarixi ədalətin bərpası və dövlətin ərazi bütövlüyünün təmin edilməsi kimi möhtəşəm nəticələr əldə olundu.

Ölkənin siyasi, diplomatik və hərbi potensialının vahid məqsəd naminə səfərbər edilməsi istiqamətində göstərdiyiniz böyük səylər, həmçinin Azərbaycan xalqının nümayiş etdirdiyi misilsiz qəhrəmanlıq və mətanət bu tarixi Qələbənin mühüm amilləri oldu.

Şübhəsiz ki, bu möhtəşəm bayram ölkənizin sülh və əmin-amanlıq, sabitlik və ardıcıl tərəqqi yolunda irəliləməsinə, gələcək nəsillərin vətənpərvərlik və milli dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına xidmət edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu il Bakı, Daşkənd və Buxara şəhərlərində Sizinlə keçirdiyimiz bir sıra önəmli görüşlər, səmərəli danışıqlar və əldə olunmuş mühüm razılaşmalar çoxşaxəli münasibətlərimizin tarixində yeni səhifə açmışdır.

Xüsusilə Əbədi Dostluq haqqında Müqavilənin imzalanması ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi istiqamətində mühüm praktiki addım olmuşdur.

Əminəm ki, birgə səylərimiz nəticəsində qarşılıqlı faydalı və uzunmüddətli münasibətlərimiz gələcəkdə də tarixən yaxın və qardaş xalqlarımızın ümumi rifahı naminə, mövcud böyük potensialımıza uyğun olaraq ardıcıl şəkildə dərinləşməkdə davam edəcəkdir.

Fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı, ailə səadəti və ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və davamlı tərəqqi arzulayıram.

Səmimi hörmətlə,

Şavkat MİRZİYOYEV,
Özbəkistan Respublikasının Prezidenti

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

8 Noyabr - Zəfər Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycanın Hökumətinə və xalqına Allah-taaladan daha çox tərəqqi və rifah diləyirik.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti xalqlarımız arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səy göstərir.

Qoy doğma Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Cənab Prezident, ən səmimi arzularımızı qəbul etməyinizi xahiş edirik.

Dərin hörmətlə,

Misir-Azərbaycan Dostluq Cəmiyyəti
İdarə Heyətinin üzvləri:
Şeyx Əli CÜMƏ,
Əl-Əzhər Əl-Şərifin, Böyük Alimlər Heyətinin üzvü, professor,
Usamə əl-ƏBD,
Misir Parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin sabiq müavini, professor,
Əl-Seyyid Mahmud əl-ŞƏRİF,
Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir Parlamenti Sədrinin sabiq birinci müavini,
Yusif əl-ŞƏRQAVİ,
Misirin Azərbaycandakı sabiq səfiri,
Adil DƏRVİŞ,
Misirin Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycandakı keçmiş direktoru,
Bağdadi İMAM,
Misir Ali Təhsil Nazirliyinin sabiq baş direktoru,
Tövhid MƏHƏMMƏD,
müşavir, vəkil, Misirin Əl-Xeyir Fondunun hüquqi işlər üzrə direktoru,
Midhət CAMAL,
general, Misirin Əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin sabiq rəhbəri,
Sabir HƏSƏN,
Ali Mədəniyyət Şurasının üzvü,
Mona ZİDAN,
Helvan Universitetinin professoru,
Əhməd Əbdu TARABEK,
Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist,
Mustafa HİCAZİ,
"Orange" şirkətinin baş direktoru,
Seymur NƏSİROV,
Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri, Misirdə Azərbaycan diasporunun rəhbəri, Dünya Azərbaycanlı Alimlər Birliyinin həmsədri.

Zəngilan Aqroparkının yaradılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialından səmərəli istifadə olunması, həmin ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı, müasir texnologiyaların tətbiqi əsasında rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı infrastrukturunun yaradılması, aqrar-sənaye sahəsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli istehsalın və məşğulluğun artırılmasıməqsədilə **qərara alıram:**

1. Zəngilan və Qubadlı rayonlarının ərazilərində Zəngilan Aqroparkı yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Zəngilan Aqroparkı müasir texnologiya və üsulların tətbiqi yolu ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması və xidmətlərin göstərilməsi, o cümlədən məhsulların saxlanılması, çeşidlənməsi və satışı üçün istifadə olunan, bu sahədə sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

2.2. Zəngilan Aqroparkının fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlərin hazırlanması və icrası, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərində iştirakın təmin edilməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) tərəfindən həyata keçirilir.

3. Zəngilan Aqroparkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturunun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, yol-nəqliyyat, yanğından mühafizə, istehsal və emal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin aparılması məqsədilə Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Fhtiyat Fondundan Agentliyə ilkin olaraq 500,0 (beş yüz) min manat vəsait ayrılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Zəngilan şəhərinin yaxınlığında 1424,55 (min dörd yüz iyirmi dörd tam yüzdə əlli beş) hektar və Qubadlı rayonunun Tatar kəndi yaxınlığında 164,15 (yüz altmış dörd tam yüzdə on beş) hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təklifləri nəzərə alınmaqla, Zəngilan Aqroparkında istehsal və emal olunan aqrar-sənaye məhsulları üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi ilə birlikdə Zəngilan Aqroparkının xarici və daxili infrastrukturunun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, yol-nəqliyyat, yanğından mühafizə, istehsal və emal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və orada sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə zəruri kömək göstərsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

7. "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 822 (Cild I);2024, № 6 (I kitab), maddə 661; 2025, № 4 (I kitab), maddə 330, № 11, maddə 1018) 2.1-1-ci bəndində "və sənaye məhəllələrinə" sözləri ", sənaye məhəllələrinə və Zəngilan Aqroparkına" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771, № 11, maddələr 1018, 1025, № 12 (I kitab), maddə 1152; 2026, № 8, maddələr 804, 807, 815) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1.4-cü hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci bəndinin üçüncü abzasına"məhəlləsinin" sözündən sonra ", Zəngilan Aqroparkının" sözləri əlavə edilsin;

8.2. 9-cu hissənin "Göstərdiyi xidmətlər" sütununun 4-cü bəndinə "Azərbaycan" sözündən əvvəl "Zəngilan Aqroparkı və" sözləri əlavə edilsin.

9. "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli 1257 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 27 (Cild I); 2025, № 4 (I kitab), maddə 330, № 6, maddə 541; 2026, № 5 (I kitab), maddə 421) 2.1-ci bəndinə birinci halda "və" sözündən əvvəl", Zəngilan Aqroparkının" sözləri əlavə edilsin.

10. "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1370 (Cild I); 2025, № 2, maddə 109, № 4 (I kitab), maddə 330; 2026, № 8, maddə 804)2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.1-ci bəndə birinci halda "dedikdə" sözündən sonra ", Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri, ikinci halda "Azərbaycan" sözündən əvvəl isə "Zəngilan Aqroparkı və" sözləri əlavə edilsin;

10.2. 2.2-ci bəndə "hüquqlarını" sözündən sonra "Zəngilan Aqroparkına və" sözləri əlavə edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İqtisadi Zonaların İnkişafı Agentliyinin Nizamnaməsi"ndə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1371 (Cild I); 2024, № 6 (I kitab), maddə 665; 2025, № 4 (I kitab), maddə 330, № 6, maddə 541; 2026,№ 5 (I kitab), maddə 421) aşağıdakı dəyişikliklər edilsin:

11.1.1.1-ci bəndə birinci halda "və" sözündən əvvəl", Zəngilan Aqroparkının" sözləri əlavə edilsin;

11.2. 3-cü hissə üzrə:

11.2.1.3.1.7-ci yarımbəndə "parklarının" sözündən sonra ", Zəngilan Aqroparkının" sözləri əlavə edilsin;

11.2.2.3.2.6-cı yarımbəndə birinci halda "parklarında" sözündən sonra ", Zəngilan Aqroparkında" sözləri, "qeyri-rezidentlərinə," sözündən sonra "Zəngilan Aqroparkının və" sözləri əlavə edilsin;

11.2.3. 3.2.8-ci və 3.2.14-cü yarımbəndlərə "Azərbaycan" sözündən əvvəl "Zəngilan Aqroparkında və" sözləri əlavə edilsin;

11.2.4. 3.2.15-ci yarımbəndə "Azərbaycan" sözündən əvvəl "Zəngilan Aqroparkına və" sözləri əlavə edilsin.

12. "Aqroparkların fəaliyyətinin təşkili, idarə olunması və inkişafı sahəsində əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 363 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 330) 1-ci hissəsinə "səlahiyyəti" sözündən sonra ", Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2026-cı il

Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 13-cü, 20-ci, 23-cü və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744, № 11, maddə 1004; 2026, № 1, maddə 2, № 3, maddə 208, № 6, maddə 488, № 7, maddələr 619, 620, № 8, maddə 779; Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 460-VIIQD və 461-VIIQD nömrəli qanunları) 136.3-cü və 206.3-cü maddələrindən "xüsusi" sözü çıxarılsın.

Maddə 2. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747; 2025, № 6, maddə 524, № 7, maddə 627; 2026, № 3, maddələr 202, 210, № 8, maddələr 768, 772) 82.5-ci maddəsinin birinci cümləsindən, 215.3-cü (hər iki halda), 301.2-ci və 304.4-cü maddələrindən "xüsusi" sözü çıxarılsın.

Maddə 3. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 137 (Cild I); 2024, № 5 (I kitab), maddə 488; 2025, № 2, maddə 100, № 3, maddə 221) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü maddənin II hissəsinin 1-ci və 12-ci bəndlərindən "xüsusi" sözü çıxarılsın;

3.2. 8-ci maddə üzrə:

3.2.1. I hissənin birinci, ikinci və dördüncü cümlələrindən və III hissədən "xüsusi" sözü çıxarılsın;

3.2.2. I hissənin üçüncü cümləsində "Xüsusi icazədə" sözləri "İcazədə" sözü ilə əvəz edilsin və həmin cümlədən "xüsusi" sözü çıxarılsın;

3.2.3. V hissənin ikinci cümləsində "Xüsusi icazənin" sözləri "İcazənin" sözü ilə əvəz edilsin;

3.3. 9-cu maddənin III hissəsindən, VI hissəsinin birinci cümləsindən, VIII (hər iki halda) və IX (hər iki halda) hissələrindən, XI hissəsinin birinci və ikinci cümlələrindən, XII hissəsinin birinci cümləsindən, 10-cu maddənin I hissəsindən, 12-ci maddənin II hissəsinin birinci cümləsindən, 13-cü maddənin I, II hissələrindən, III hissəsinin birinci və ikinci cümlələrindən, 14-cü maddənin I hissəsindən, II hissəsinin birinci (hər iki halda) və ikinci (hər iki halda) cümlələrindən, 15-ci maddənin IV hissəsindən "xüsusi" sözü çıxarılsın;

3.4. 18-ci maddə üzrə:

3.4.1. I hissənin 1-ci bəndindən və II hissənin birinci cümləsindən (hər üç halda) "xüsusi" sözü çıxarılsın;

3.4.2. V hissədə "Xüsusi icazədən" sözləri "İcazədən" sözü ilə əvəz edilsin;

3.5. 19-cu maddənin I hissəsinin 1-ci və 3-cü bəndlərindən, 21-ci maddənin II hissəsindən və III hissəsinin 4-cü bəndindən, 23-cü maddənin I hissəsinin 5-ci (hər iki halda), 6-cı bəndlərindən və II hissəsindən "xüsusi" sözü çıxarılsın.

Maddə 4. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 8, maddələr 735, 743; 2026, № 3, maddə 210, № 4, maddə 295) 18-ci maddəsinin birinci hissəsinin 11-ci bəndindən "xüsusi" sözü çıxarılsın.

Maddə 5. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612 (Cild I); 2024, № 2, maddə 138) 10-cu maddəsinin IX hissəsinin birinci və ikinci cümlələrindən "xüsusi" sözü çıxarılsın.

Maddə 6. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 56 (Cild I); 2024, № 8, maddə 933; 2025, № 6, maddə 524; 2026, № 8, maddə 770) adından və ikinci abzasından "xüsusi" sözü çıxarılsın.

Maddə 7. "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 316 (Cild I); 2024, № 11, maddə 1181) 15.3-cü maddəsinin birinci və ikinci cümlələrindən "xüsusi" sözü çıxarılsın.

Maddə 8. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 975 (Cild I); 2025, № 2, maddə 101) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 7.2.4-cü və 7.2.6-cı maddələrdən "xüsusi" sözü çıxarılsın;

8.2. 9-cu maddə üzrə:

8.2.1. adından "xüsusi" sözü çıxarılsın;

8.2.2. 9.1-ci maddə üzrə:

8.2.2.1. birinci cümlədən "xüsusi" sözü çıxarılsın;

8.2.2.2. ikinci cümlədə "Xüsusi icazənin" sözləri "İcazənin" sözü ilə əvəz edilsin;

8.2.3. 9.2-ci maddədən "xüsusi" sözü çıxarılsın;

8.3. 10-cu maddənin adından və mətnindən "xüsusi" sözü çıxarılsın.

Maddə 9. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 685 (Cild I); 2025, № 4 (I kitab), maddə 318) 13.3-2-ci maddəsindən "xüsusi" sözü çıxarılsın.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 oktyabr 2026-cı il

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 oktyabr tarixli 488-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında","Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 oktyabr tarixli 488-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli 679 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 163 (Cild I); 2025, № 11, maddə 1018) 2-ci hissəsinin beşinci abzasından "xüsusi" sözü çıxarılsın.

2. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli, 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489 (Cild I); 2024, № 5 (I kitab), maddə 511; 2025, № 6, maddə 552, № 8, maddə 760; 2026, № 2, maddə 123) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi şəxslərinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahı əldə etməsi, saxlaması və təyinatı üzrə istifadə etməsi Qaydaları" üzrə:

2.1.1. 3-cü hissə üzrə:

2.1.1.1. birinci cümlədən "xüsusi" sözü çıxarılsın;

2.1.1.2. ikinci cümlədə "Xüsusi icazənin" sözləri "İcazənin" sözü ilə əvəz edilsin;

2.1.1.3. üçüncü cümlədə "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

2.1.2. 4-1-ci hissənin birinci və ikinci cümlələrindən, 6-cı hissədən, 7-ci və 9-cu hissələrin birinci cümlələrindən "xüsusi" sözü çıxarılsın;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Xidməti silahın saxlanılması, gəzdirilməsi və ondan təyinatı üzrə istifadə edilməsi qaydaları üzrə hazırlıq proqramı, odlu silahın istifadəçisinin həmin silahın tətbiqi şəraitində yararlılığı baxımından dövri olaraq yoxlamadan keçirilməsi qaydaları, habelə xidməti silahın əldə edilməsi və onun fiziki şəxslərə verilməsi Qaydası"nın 4-cü hissəsi üzrə:

2.2.1. 4.1-ci bənddən birinci halda "xüsusi" sözü çıxarılsın;

2.2.2. 4.2-ci bəndin birinci cümləsində "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

2.2.3. 4.3-cü (hər iki halda), 4.4-cü (hər iki halda) bəndlərdən, 4.5-ci və 4.13-cü bəndlərdən "xüsusi" sözü çıxarılsın;

2.3. həmin Fərmanla təsdiq edilmiş "Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları"nın 3-cü hissəsinin birinci-üçüncü cümlələrindən, 4-cü hissəsinin birinci və ikinci cümlələrindən, 5-ci hissəsinin birinci cümləsindən, 6-cı və 10-cu hissələrindən "xüsusi" sözü çıxarılsın;

2.4. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahın satış Qaydaları" üzrə:

2.4.1. 4-cü hissədən, 5-ci hissənin birinci cümləsindən və 8-ci (hər üç halda) hissədən "xüsusi" sözü çıxarılsın;

2.4.2. 9-cu hissə üzrə:

2.4.2.1. birinci cümlədə "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

2.4.2.2. ikinci cümlədə "Xüsusi icazənin" sözləri "İcazənin" sözü ilə əvəz edilsin;

2.4.3. 13-cü hissədən və 14.2-ci bənddən "xüsusi" sözü çıxarılsın;

2.5. həmin Fərmanla təsdiq edilmiş "Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları"nın 3.1.1-ci, 3.1.2-ci, 3.1.4-cü, 3.1.5-ci yarımbəndlərindən, 3.2-ci bəndinin ikinci cümləsindən, 3.4-cü bəndindən, 3.5-ci bəndinin üçüncü cümləsindən, 3.12-ci bəndindən, 4.1.2-ci və 4.1.3-cü yarımbəndlərindən, 5.1-ci bəndindən, 5.2-ci bəndinin birinci abzasının birinci cümləsindən və 5.3-cü (hər iki halda) bəndindən "xüsusi" sözü çıxarılsın;

2.6. həmin Fərmanla təsdiq edilmiş "Mülki silahın kolleksiya edilməsi və ya onun sərgisinin keçirilməsi Qaydaları"nın 2-ci hissəsi üzrə:

2.6.1. 2.1-ci, 2.2-ci (hər iki halda) bəndlərdən və 2.4-cü bəndin birinci cümləsindən "xüsusi" sözü çıxarılsın;

2.6.2. 2.5-ci bənd üzrə:

2.6.2.1. birinci abzasdan (hər iki halda) "xüsusi" sözü çıxarılsın;

2.6.2.2. ikinci abzasda "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

2.6.3. 2.9-cu bənddən "xüsusi" sözü çıxarılsın.

3. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 26 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 64 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adından "xüsusi" sözü çıxarılsın;

3.2. preambuladan və 2-ci hissədən "xüsusi" sözü çıxarılsın.

4. "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798 (Cild I); 2024, № 8, maddə 950; 2025, № 6, maddə 552; 2026, № 2, maddə 123, № 8, maddə 784) aşağıdakı dəyişikliklər edilsin:

4.1. preambuladan, 1-ci (hər iki halda) və 2-ci (hər iki halda) hissələrdən "xüsusi" sözü çıxarılsın;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verilməsi Qaydaları" üzrə:

4.2.1. adından(hər iki halda)"xüsusi" sözü çıxarılsın;

4.2.2. I hissə üzrə:

4.2.2.1. 1.1-ci (hər iki halda) və 1.2-ci bəndlərdən "xüsusi" sözü çıxarılsın;

4.2.2.2. 1.3-cü bənddə "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

4.2.2.3. 1.4-cü bəndin birinci və ikinci cümlələrindən, 1.5-ci bəndin birinci (hər iki halda) və ikinci (hər üç halda) cümlələrindən, 1.6-cı bənddən və 1.7-ci bəndin birinci cümləsindən "xüsusi" sözü çıxarılsın;

4.2.3. II hissə üzrə:

4.2.3.1. adından "XÜSUSİ" sözü çıxarılsın;

4.2.3.2. 2.1-ci bəndin (hər iki halda) və 2.1.1-ci yarımbəndin birinci abzaslarından, 2.1-1-ci bəndin birinci cümləsindən, 2.2-ci bənddən, 2.3-cü bəndin birinci (birinci və ikinci hallarda) və ikinci cümlələrindən, 2.4-cü bəndin birinci və ikinci cümlələrindən, 2.5-ci bənddən, 2.6-cı bəndin birinci və ikinci cümlələrindən, 2.7-ci, 2.8-ci (hər iki halda), 2.9-cu (hər iki halda), 2.10-cu (hər üç halda) bəndlərdən, 2.11-ci bəndin birinci abzasından, 2.11.1-ci yarımbənddən, 2.11.2-ci yarımbəndin birinci abzasından, 2.11.3-cü yarımbənddən, 2.12-ci (hər iki halda), 2.13-cü (birinci halda) bəndlərdən, 2.14-cü bəndin birinci cümləsindən və 2.15-ci bənddən (hər iki halda) "xüsusi" sözü çıxarılsın;

4.2.3.3. aşağıdakı məzmunda 2.16-cı və 2.17-ci bəndlər əlavə edilsin:

"2.16. Əşyaların dövriyyəsinə icazə verən müvafiq dövlət orqanı verdiyi, dayandırdığı, bərpa və ləğv etdiyi icazələrlə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsində göstərilən məlumatları Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində, bu mümkün olmadığı hallarda isə 3 iş günü müddətində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə göndərir.

2.17. Xarici ölkələrdə qeydiyyatda olan ticarət iştirakçıları Azərbaycan Respublikası ərazisindən tranzit keçməsinə müvafiq qanunvericiliklə icazə tələb olunan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların tranzit xüsusi gömrük proseduru altında yerləşdirilərək daşınmasını Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərən və həmin əşyaların dövriyyəsinə icazəsi olan dolayı gömrük təmsilçiləri vasitəsilə həyata keçirə bilərlər.";

4.2.4. III hissə üzrə:

4.2.4.1. 3.1-ci bənddə "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin və həmin bənddən "xüsusi" sözü çıxarılsın;

4.2.4.2. 3.2-ci bəndin birinci və ikinci cümlələrində "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

4.2.5. IV hissə üzrə:

4.2.5.1. adından "XÜSUSİ" sözü çıxarılsın;

4.2.5.2. 4.1-ci bəndin birinci abzasından (hər iki halda), 4.1.1-ci (hər iki halda) və 4.1.2-ci yarımbəndlərdən, 4.2-ci bənddən (hər dörd halda), 4.3-cü bəndin birinci (hər iki halda) və ikinci (hər üç halda) cümlələrindən, 4.4-cü bəndin birinci abzasından (hər iki halda), 4.4.1-ci (hər iki halda) və 4.4.2-ci yarımbəndlərdən "xüsusi" sözü çıxarılsın;

4.2.5.3. 4.5-ci bənd üzrə:

4.2.5.3.1. birinci cümlədən (hər dörd halda) "xüsusi" sözü çıxarılsın;

4.2.5.3.2. ikinci cümlədə "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin və həmin cümlədən "xüsusi" sözü çıxarılsın;

4.2.6. V hissə üzrə:

4.2.6.1. adından "XÜSUSİ" sözü çıxarılsın;

4.2.6.2. 5.1-ci, 5.2-ci (hər iki halda) və 5.3-cü bəndlərdən "xüsusi" sözü çıxarılsın;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı" üzrə:

4.3.1. adından (hər iki halda) "xüsusi" sözü çıxarılsın;

4.3.2. "Xüsusi icazə verən icra hakimiyyəti orqanı" sütununda "Xüsusi icazə" sözləri "İcazə" sözü ilə əvəz edilsin;

4.3.3. "Qeyd" hissəsinin 2-ci bəndindən "xüsusi" sözü çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 26, № 4 (I kitab), maddə 333, № 12 (I kitab), maddə 1136; 2026, № 8, maddələr 787, 805) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.5-ci bəndinin beşinci abzasından "xüsusi" sözü çıxarılsın.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 oktyabr tarixli 488-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 noyabr 2026-cı il

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi”nin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi”nin ”Bitkiçilik Elmləri İnstitutu”nun və “Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu”nun strukturu, işçilərin say həddi və əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 363 **Bakı şəhəri, 29 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin strukturu" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun strukturu" təsdiq edilsin *(əlavə olunur)*.

4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi" aparatının işçilərinin say həddi 120 ştat vahidi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun işçilərinin say həddi 670 ştat vahidi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun işçilərinin say həddi 221 ştat vahidi təsdiq edilsin.

5. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi" aparatının işçilərinin əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər)" təsdiq edilsin *(əlavə olunur)*.

6. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nun və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nun işçilərinin aylıq tarif (vəzifə) maaşlarının məbləği büdcədən maliyyələşdirilən sahələr üçün təsdiq edilmiş müvafiq Vahid Tarif Cədvəli əsasında Vahid Tarif-İxtisas Sorğu Kitabçalarına uyğun olaraq müəyyən edilsin.

7. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi sistemində fəaliyyət göstərən elmi tədqiqat müəssisələrində çalışan işçilərin əməyinin stimullaşdırılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 210 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 783 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nda və "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nda çalışan işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə maaşlarına bu Qərarın 2 nömrəli əlavəsinə uyğun əlavə təyin etsin.";

7.2. 1 nömrəli əlavə ləğv edilsin;

7.3. 2 nömrəli əlavənin adı aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi"nin "Bitkiçilik Elmləri İnstitutu"nda və "Heyvandarlıq, Balıqçılıq və Baytarlıq Elmləri İnstitutu"nda çalışan işçilərin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavə.".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 136 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 366 **Bakı şəhəri, 2 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 136 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 588 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 sentyabr tarixli 274 nömrəli Qərarı) 2 nömrəli əlavə - "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin balansında olan abidələrin, qeyri-yaşayış binalarının, tikililərin və binaların qeyri-yaşayış sahələrinin Siyahısı"nın 67-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

“Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 367 **Bakı şəhəri, 3 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili Qaydaları"nın və "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 570 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1146 (Cild I); 2025, № 3, maddə 269, № 10, maddə 964) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə ləğv edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları"nın 10.1.2-ci yarımbəndində "Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı ilə yaradılmış Komissiya" sözləri "Respublikasının Maliyyə Nazirliyi" sözləri ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi əsasında hüquqi şəxslərin idarəetmə orqanlarının üzvlərinə bonus ödənişinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.4-cü yarımbənddən "və hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi qaydalarına" sözləri çıxarılsın;

3.2. 4-cü hissə üzrə:

3.2.1. 4.1-ci bəndin birinci cümləsindən "hüquqi şəxslərin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinə əsasən" sözləri çıxarılsın;

3.2.2. 4.4-cü bənddən "hüquqi şəxsin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi nəticələrinə və" sözləri çıxarılsın;

3.3. 5.7-ci bənd ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 368 **Bakı şəhəri, 3 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikasının Daimi Nümayəndəliyi haqqında Əsasnamə"nin, "Azərbaycan Respublikasının Konsulluğu haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının fəxri konsulu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 aprel tarixli 638 nömrəli Fərmanının 10-cu hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111 (Cild I); 2025, № 4 (II kitab), maddə 415, № 9, maddə 855, № 12 (II kitab), maddə 1255) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə"nin 1.3-cü bəndinin birinci cümləsində "qanunvericiliyinə" sözü "və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına" sözləri ilə əvəz olunsun və ikinci cümləsinə "gerbinin" sözündən sonra "qabarıq" sözü əlavə edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

“Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nın, “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı”nın və “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 369 **Bakı şəhəri, 3 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın, "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın və "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddələr 187, 201, № 12 (II kitab), maddələr 1206, 1218, 1247, 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 oktyabr tarixli 330 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı" üzrə:

1.1. 41-ci hissədən "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin köməkçiləri," sözləri çıxarılsın;

1.2. aşağıdakı məzmunda 41-1-ci hissə əlavə edilsin:

"41-1. daxili hava daşımaları üzrə: Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin rəisi, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin rəisi, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin rəisi, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin rəisi, Naxçıvan hərbi prokuroru, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin rəisi, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əlahiddə Ümumqoşun Ordu komandanı, Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının komandiri, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri, Naxçıvan Dövlət Universitetinin rektoru;".

2. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın 3.9-cu bəndində "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Aparatı rəhbərinin" sözləri "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavininin" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 370 **Bakı şəhəri, 3 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 may tarixli 404-VIIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 1 iyun tarixli 1053 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 757 (Cild I); 2024, № 7, maddə 910, № 12 (II kitab), maddə 1443) ilə təsdiq edilmiş "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin Siyahısı"nın 42.5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. "Alekseyevka" və "Vladimirovka" sözləri çıxarılsın.

2. "Yuxarı Digah" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Çinarlı
Elbir".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydalarının təsdiq edilməsi barədə” 2001-ci il 23 fevral tarixli 48 nömrəli və “Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 362 **Bakı şəhəri, 28 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122, № 5 (II kitab), maddə 583, № 9, maddə 1050) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nın 4.1-ci bəndinin birinci abzasından "Vergi Məcəlləsinin 191.5-ci maddəsinə əsasən hesablanmış aksiz vergisinin icbari tibbi sığorta fonduna ödənilən hissəsi istisna olmaqla" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 341 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1075 (Cild I); 2025, № 4 (I kitab), maddə 389, № 10, maddə 982) ilə təsdiq edilmiş "Sığorta vəsaitindən, o cümlədən sığorta ehtiyatından istifadə Qaydası"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.3-cü yarımbənddə "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin;

2.2. 3.3.2-ci yarımbənddə "bu Qaydanın 3.1.3-cü yarımbəndində nəzərdə tutulan" sözləri "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri



"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 151-ci kitabı çapdan çıxıb

"Amerika Birləşmiş Ştatlarının vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmək bizim üçün böyük şərəfdir. Biz indicə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, həmçinin regional inkişafı müzakirə etdik. İndi isə daha geniş kontekstdə dialoqumuzu davam etdirəcəyik. Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son 6 ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son 6 ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən, tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir. Bu gün tərəfdaşlığımız rəsmi şəkildə daha yüksək səviyyəyə qalxacaq. Fəaliyyətin həcmi və komandalarımız arasında qarşılıqlı əlaqələr həqiqətən, yüksəksəviyyəli tərəfdaşlıq ruhunu nümayiş etdirir".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 151-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı fevralın 10-da Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vens ilə geniş tərkibdə görüşündə çıxışı zamanı söyləyib.

Çoxcildliyin bu kitabında toplanmış materiallar 2026-cı ilin fevralından mart ayınadək olan dövrü əhatə edir.

Bu nəşrdə dövlət başçısının Almaniya Federativ Respublikası və Serbiya Respublikasına rəsmi, Amerika Birləşmiş Ştatlarına işgüzar səfərlərinə, Sülh Şurasının ilk iclasında, Təhlükəsizlik Şurasının, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda iştirakına dair materiallar toplanıb.

Kitabda, həmçinin ABŞ-nin vitse-prezidentinin, Efiopiya Federativ Demokratik Respublikasının Baş nazirinin ölkəmizə səfərlərinə, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması mərasiminə, dövlətimizin başçısının Avropa İttifaqı Şurasının prezidenti ilə təkbətək görüşünə, Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışı mərasimində iştirakına aid materiallar, o cümlədən Azərbaycan telekanallarına, "France-24" telekanalına müsahibələri yer alıb.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Ələvsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

"Azərenerji" Zəfər Günü ilə bağlı ağacəkmə aksiyası keçirib



8 Noyabr - Zəfər Günü münasibətilə "Azərenerji" ASC tərəfindən ağacəkmə aksiyası keçirilib. Tikintisi yekunlaşan "Ağdaş" Batareya Enerji Saxlanc Mərkəzinin ərazisində təşkil olunan aksiyada yüzlərlə ağac və gül kolu əkilərək ərazinin yaşıllaşdırılmasına töhfə verilib.

Aksiyanın əsas məqsədi tarixi Zəfəri təbiətə qayğı və yaşıllıqların artırılması ilə qeyd etmək, ölkədə ekoloji tarazlığın qorunmasına və ətraf mühitin sağlamlaşdırılmasına dəstək olmaqdır. Eyni zamanda bu cür təşəbbüslər cəmiyyətdə ekoloji mədəniyyətin formalaşdırılması, təbiətə sevgi və qayğı hissinin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

Böyük Zəfərin yaratdığı qürur və birlik ruhu bu dəfə yaşıllıqlara, yeni əkilən ağaclara həyat verərək təbiətdə öz əksini tapıb.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Respublikasına işgüzar səfərə gedib





Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 5-də Qazaxıstan Respublikasına işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Astana şəhərinin Nursultan Beynəlxalq Aeroportunda Milli Məclisin Sədrini Qazaxıstan Qurultayının Sədr müavini Dinara Zakiyeva, xarici işlər nazirinin müavini Arman İsaqaliyev, Azərbaycanın Qazaxıstandakı səfiri Əlimirzamin Əsgərov və digər rəsmi şəxslər qarşılayıblar.

"Azərbaycan"

YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 46-cı iclasında iştirak edib



Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Daimi Komitəsinin (DK) üzvü Tahir Budaqov noyabrın 4-də Koreya Respublikasının Seul şəhərində "Mincu" (Demokratik) Partiyası və Xalqın Gücü Partiyasının birgə evsahibliyi ilə keçirilən ICAPP-ın 13-cü Baş Assambleyası çərçivəsində ICAPP DK-nın 46-cı iclasında iştirak edib.

YAP-dan verilən məlumata görə, iclasda açılış nitqi ilə çıxış edən ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq gündəlikdə duran məsələlər barədə məlumat verib, ICAPP-ın cari fəaliyyətinə nəzər salıb, DK-nın yeni üzvlərini təqdim edib, təşkilatın gələcək iş planını diqqətə çatdırıb. O, həmçinin ICAPP-ın fəaliyyətinin daha da təkmilləşdirilməsinin, institusional imkanlarının gücləndirilməsinin və beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb, bu istiqamətdə siyasi partiyalar arasında qarşılıqlı təcrübə mübadiləsinin təşviqinin, dialoq və əməkdaşlıq platformalarının inkişaf etdirilməsinin, eləcə də qlobal çağırışların həllində birgə səylərin artırılmasının vacibliyini qeyd edib.

Daha sonra 36 ölkəni təmsil edən 83 siyasi partiyanın iştirakı ilə baş tutan ICAPP-ın 13-cü Baş Assambleyasına hazırlıq işləri barədə məlumat verilib, büro üzvlüyünə sədr müavini kimi YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da daxil olmaqla 5 ölkədən (Azərbaycan, Banqladeş, Çin, Malaziya, Vyetnam) namizəd irəli sürülüb.

DK iclasında Baş Assambleyanın bağlanış sessiyasında qəbul ediləcək Seul Bəyanatının layihəsi və ICAPP Nizamnaməsinə təklif olunan dəyişikliklər ətrafında da fikir mübadiləsi aparılıb. Həmçinin siyasi partiyalar arasında dialoqun inkişaf etdirilməsi, dayanıqlı sülh və sabitliyin təşviqi, demokratik idarəetmənin gücləndirilməsi, süni intellektin imkanlarından ümumi rifah naminə istifadə və iqlim dəyişikliyi ilə mübarizə kimi aktual məsələlər müzakirə olunub.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

2027-ci ilin büdcə zərfinə daxil olan sənədlər müzakirə olunub

Noyabrın 5-də Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında "Dövlət Sosial Müdafiə fondunun 2027-ci il büdcəsi haqqında", "İşsizlikdən Sığorta Fondunun 2027-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2027-ci il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2027-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri birinci oxunuşda müzakirə edilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihələrini müzakirəyə təqdim edib.

Vurğulanıb ki, Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayında əhalinin rifahının yüksəldilməsi istiqamətində tədbirlərin genişləndirilməsi ilə bağlı müəyyən etdiyi prioritetlər 2027-ci ilin büdcəsində də nəzərdə tutulub. Bu prioritetlər Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələrində də öz əksini taparaq şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alan vətəndaşların, həmçinin digər həssas qrupların sosial rifahının yaxşılaşdırılması, sosial müdafiə və sığorta təminatının dayanıqlılığının qorunması üçün etibarlı maliyyə əsasları yaradır.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2027-ci il üçün gəlirləri 9 milyard 221 milyon manat təşkil edəcək ki, bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 897 milyon 400 min manat və ya 10,8 faiz çoxdur. DSMF-nin 2027-ci il üçün nəzərdə tutulan xərcləri isə 9 milyard 273 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 790 milyon manat çoxdur.

Fondun daxilolmalarının 7 milyard 587 milyon manatının, yaxud 82,3 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur.

Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,5 faizini əhaliyə ödənişlər təşkil edəcək. Əmək pensiyalarının orta aylıq məbləğinin 2027-ci ildə 640 manat olacağı proqnozlaşdırılır.

2027-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma, uşağın anadan olmasına, 3 yaşına çatanadək uşaqlara qulluğa və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə görə 281 milyon manat vəsait nəzərdə tutulub.

Sonra komitə sədri "İşsizlikdən Sığorta Fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsi barədə məlumat verib. O bildirib ki, 2027-ci ildə İşsizlikdən Sığorta Fondunun (İSF) gəlirləri 269 milyon manat, fondun əvvəlki illərdə istifadə olunmamış vəsaitindən 2027-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi isə 50 milyon manat nəzərdə tutulub. Gələn ildə işsizlikdən sığorta haqları üzrə yığımların 267 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2026-cı ilin təsdiq edilmiş müvafiq göstəricisindən 31 milyon manat çoxdur.

2027-ci ildə İSF-nin xərcləri 319 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da keçən illə müqayisədə 53 milyon manat çoxdur. Gələn il fondun xərclərinin 36 milyon manatı işsizliyə görə sığorta ödənişləri üçün nəzərdə tutulub. Bu, cari ildəkindən 28,6 faiz çoxdur. İSF-nin xərclərinin 113 milyon manatı, yaxud 35 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcəkdir.

Komitə sədri İSF-nin 2027-ci il büdcəsində peşə hazırlığı, haqqı ödənilən ictimai işlərin və digər aktiv məşğulluq tədbirlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulan xərc istiqamətləri və ayrılacaq vəsaitlər barədə məlumat verib.

Gündəliyin üçüncü və dördüncü məsələləri barədə məlumat verərkən Musa Quliyev bildirib ki, "Azərbaycan Respublikasında 2027-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsinə əsasən, gələn il yaşayış minimumu ölkə üzrə 314 manat, əmək qabiliyyətli əhali üçün 334 manat, pensiyaçılar üçün 258 manat, uşaqlar üçün 274 manat məbləğində müəyyən edilməklə, illik artım tempi saxlanılmışdır.

"Azərbaycan Respublikasında 2027-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsində isə bu həddi 314 manat məbləğində müəyyən olunub.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, əhalinin sosial müdafiəsi və məşğulluğunun təmin edilməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər növbəti ildə də davam etdiriləcək.

Əməkhaqqı və sosial ödənişlərin artırılması məqsədilə növbəti - 6-cı sosial islahat paketi ilə bağlı 2027-ci ilin dövlət və icmal büdcəsində müvafiq maliyyə təminatı yaradılıb. Son 8 ildə 4 milyon vətəndaşı əhatə edən 5 böyük sosial islahat zərfi icra edilib və bu islahatların illik əlavə maliyyə tutumu 8 milyard manat təşkil edib.

Cari ildə görülmüş tədbirlər nəticəsində orta aylıq pensiyanın məbləği ötən ilin müvafiq dövrünə nisbətən 10,4 faiz artaraq 596 manata, yaşa görə pensiyanın orta məbləği isə 10 faiz artaraq 634 manata, orta aylıq əməkhaqqı 7,2 faiz artaraq 1173 manata çatmış, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımı üzrə ödənişlər isə 8,4 faiz artaraq 1,9 milyard manat olmuşdur.

2027-ci ildə də dövlət və icmal büdcələr sosialyönümlülüyünü saxlayacaqdır. Belə ki, növbəti ildə dövlət büdcəsində sosial xərclər 222,7 milyon manat və ya 1,7 faiz çox olmaqla 13 milyard manat, sosialyönümlü xərclər isə 1,6 milyard manat və ya 9,2 faiz çox olmaqla 18,7 milyard manat nəzərdə tutulur. Sosialyönümlü xərclərin növbəti ilin dövlət büdcəsindəki çəkisinin 44,2 faizə yüksələcəyi, ÜDM-də payının isə 13,3 faiz olması gözlənilir.

Anar Əliyev dövlət büdcəsindən növbəti il üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan vəsaitlərin həcmi və strukturu barədə də məlumat verib. Qeyd olunub ki, 2027-ci ilin dövlət büdcəsinin layihəsində ƏƏSMN-in fəaliyyət istiqamətləri üzrə əhaliyə ödənişlərin, həssas kateqoriyadan olan əhali üzrə tibbi sığorta xərclərinin, habelə haqqı ödənilən ictimai işlərin maliyyələşdirilməsi üçün 5 milyard 503 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il üçün gəlirlərinin 82,3 faizinin və ya 7 milyard 587 milyon manatının məcburi dövlət sosial sığorta daxilolmalarından formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 995,4 milyon manat və ya 15,1 faiz çoxdur. Büdcədən maliyyələşən təşkilatlar üzrə 2027-ci il üçün daxilolmalar 2,5 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 5,1 milyard manat proqnozlaşdırılır.

2027-ci ildə sığorta-pensiya sistemində dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1,6 milyard manat həcmində proqnozlaşdırılır ki, bu da 2026-cı il üzrə təsdiqlənmiş müvafiq göstəricidən 100 milyon manat azdır.

Fondun 2027-ci il üzrə ümumi xərclərinin 96,5 faizi və ya 8 milyard 950 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2026-cı illə müqayisədə 753,6 milyon manat çoxdur. Bu məbləğin 8 milyard 669 milyon manatı əmək pensiyalarının, 280,6 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərinin payına düşür. Qeyd olunub ki, mövcud proqnoza əsasən, 2027-ci ildə əmək pensiyalarının təqribən 7,5 faiz səviyyəsində indeksləşdirilməsi məqsədilə 575,5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

İşsizlikdən Sığorta Fondunun gəlirlərin 2026-cı ilin təsdiq edilmiş göstəricisinə nisbətdə 30,6 milyon manat və ya 12,9 faiz çox proqnozlaşdırılıb. Sığorta haqları üzrə yığımın 77,7 faizi qeyri-büdcə sektorunun payına düşür.

İSF-nin 2027-ci il üzrə xərcləri cari ilin təsdiqlənmiş göstəricisindən 52,8 milyon manat və ya 19,8 faiz çox proqnozlaşdırılır.

Gələn ildə İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına 444 min şəxsin aktiv məşğulluq tədbirlərinə cəlb olunması gözlənilir. Əlavə olaraq, il ərzində 15,6 min şəxsə işsizlikdən sığorta ödənişinin təyin edilməsi proqnozlaşdırılır. Həmçinin məşğulluq tədbirlərinin maliyyələşdirilməsinə İşsizlikdən Sığorta Fondunun xərclərinin 61 faizinin və ya 194,2 milyon manatının yönəldilməsi nəzərdə tutulur.

Bildirilib ki, növbəti ildə nazirlik tərəfindən imtiyazlı şəxslərə mənzillərin, avtomobillərin və reabilitasiya vasitələrinin verilməsi proqramları da davam etdiriləcək. Qeyd olunub ki, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə gələn il 600 mənzilin alınması üçün 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

İclasda parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıb. O, ölkəmizdə iqtisadi siyasətlə sosial siyasətin uzlaşdırılmasının, bir-biri ilə əlaqələndirilməsinin dövlət siyasətinin əsas prinsiplərindən olduğunu qeyd edib.

Azər Əmiraslanov ölkəmizdə işsizliyin səviyyəsinin aşağı salınması istiqamətində ciddi nəticələrin əldə edildiyini, yeni mərhələdə effektiv məşğulluğun təmin edilməsinin əsas hədəflərdən olduğunu, 2027-ci ildə də vətəndaşlarımızın rifahının yüksəlməsi üçün dövlət büdcəsində sosial paketin nəzərdə tutulduğunu diqqətə çatdırıb. O qeyd edib ki, stabil daxilolmaların təmin edilməsi, iqtisadi artım, iqtisadi fəallıq nəticəsində Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun dayanıqlılığı təmin edilə bilər. Bildirilib ki, 2027-ci ilin dövlət büdcəsinin icrası həm iqtisadi inkişafı təmin edəcək, həm də vətəndaşlarımızın rifahının daha da yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi üçün lazımi maliyyə əsasları yaradacaq.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun 2027-ci il üzrə büdcə layihələri barədə palatanın rəylərini təqdim edib. Palata sədri qeyd edib ki, DSMF-nin və İSF-nin büdcə layihələri müvafiq qanunvericiliyin tələblərinə uyğun hazırlanıb. O, fondların gəlir və xərc istiqamətləri, pensiya təminatı sisteminin dayanıqlığı ilə bağlı palatanın təhlillərini və qeydlərini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası maliyyə nazirinin müavini Himalay Məmişov dövlət büdcəsində neftdən asılılığın getdikcə azalması tendensiyasından və bu istiqamətdə qarşıya qoyulan hədəflərdən söz açıb.

Büdcə xərclərindən danışarkən nazir müavini xərclərin sosial iqtisadi ehtiyaclara uyğun tərtib olunduğunu deyib. O, büdcənin xərc istiqamətləri üzrə parametrlərini və göstəricilərini diqqətə çatdıraraq, gələn ilin dövlət büdcəsini regionda ən investisiyayönümlü büdcə kimi xarakterizə edib.

Sonra tədbirdə iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov çıxış edib. O, son illər ərzində Azərbaycan iqtisadiyyatında dinamik artımın müşahidə edildiyini, qarşıdakı dövr üçün də davamlı inkişafın proqnozlaşdırıldığını bildirib. Nazir müavini iqtisadi artımın və məşğulluğun genişləndirilməsində investisiya fəallığının mühüm rolunu vurğulayaraq, ölkədə investisiya mühitinin yaxşılaşdırılması və qeyri-neft-qaz sektoruna investisiya qoyuluşlarının artırılması istiqamətində müsbət meyillərin iqtisadiyyatın şaxələndirilməsinə, yeni istehsal və xidmət sahələrinin inkişafına, eləcə də regionlarda iqtisadi fəallığın yüksəlməsinə töhfə verdiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, qarşıdakı dövrdə əsas vəzifələr qəbul edilmiş dəstək mexanizmlərinin tam tətbiqi və onların iqtisadi təsirinin mütəmadi qiymətləndirilməsi, sənaye və istehsal layihələrinin uzunmüddətli maliyyələşdirilməsi, qeyri-neft-qaz ixracının həcminin və coğrafiyasının genişləndirilməsi, strateji investisiya layihələrinin sürətləndirilməsi, nəqliyyat dəhlizləri boyunca iqtisadi fəallığın təşviqi kimi prioritet istiqamətlərin icrasından ibarətdir.

İclasda Dövlət Statistika Komitəsi sədrinin birinci müavini Vahab Məmmədov bildirib ki, müzakirəyə təqdim olunan qanun layihələri rəsmi statistik məlumatlar əsasında aparılmış təhlillərə uyğun hazırlanıb. O qeyd edib ki, qanun layihələri hazırlanarkən demoqrafik yük, eləcə də əmək bazarında mövcud vəziyyət nəzərə alınıb və müvafiq qiymətləndirmələr aparılıb.

Məsələlərin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, deputatlar Tahir Mirkişili, Jalə Əliyeva, Göydəniz Qəhrəmanov, Vüqar Bayramov, Rövşən Muradov, Əlibala Məhərrəmzadə, Əli Məsimli, Soltan Məmmədov çıxış ediblər, rəy və təkliflərini bildiriblər, bəzi sualları səsləndiriblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasda gündəlikdəki qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

"Azərbaycan"

DİN-də xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 5-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 179 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

"Azərbaycan"

Baş prokuror Abşeronda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.



Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, noyabrın 5-də baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron və Xəzər rayonlarından olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 35 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

"Azərbaycan"

Vətən müharibəsinə həsr edilən ekspozisiya və Zəfər zalının təqdimatı olub

Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin birgə layihəsi olaraq Milli Azərbaycan Tarixi Muzeyində Vətən müharibəsinə həsr edilən ekspozisiyanın və yeni yaradılmış Zəfər zalının təqdimat mərasimi keçirilib.





Ölkənin tanınmış elm və mədəniyyət xadimləri, təhsil və ictimaiyyət nümayəndələri, şəhid ailələri və qazilərin iştirakı ilə keçirilən mərasimi Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı açaraq muzeydə yaradılan yeni ekspozisiya və Zəfər zalı barədə məlumat verib.

Tədbirdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, altı il əvvəl biz 44 gün həyəcan yaşadıq və nəticədə şanlı Qələbə qazanıldı. Xalqımız işğal olunan torpaqlarını geri qaytarmağa nail oldu. Şanlı Qələbəmizin təməlində Prezident İlham Əliyevin şəxsiyyət faktoru, onun dahi intellekti və siyasəti durur.

Mərasimdə mədəniyyət naziri Adil Kərimli çıxışında qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər xalqımızın iradəsinin, birliyinin və Vətən sevgisinin təntənəsidir. Bu gün şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir, qazilərimizə və bütün qəhrəmanlarımıza minnətdarlığımızı bildiririk.

Tədbirdə qeyd edilib ki, ekspozisiyada tarixi materiallarla yanaşı, müasir texnoloji və interaktiv həllər də təqdim olunub. Burada kiçikyaşlı ziyarətçilər üçün simulyasiya oyunu, müasir informasiya tabloları, həmçinin azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərini, Böyük qayıdış prosesini əks etdirən immersiv zal yaradılıb.

Ekspozisiyanın əsas məzmunu Azərbaycanın tarixi Zəfərinin, ərazi bütövlüyünün bərpasının və müharibədən sonrakı quruculuq prosesinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasi iradəsi, uzaqgörən rəhbərliyi və həyata keçirdiyi strategiya sayəsində reallaşdığını nümayiş etdirməkdir. Müasir texnologiyalar vasitəsilə bu tarixi proseslər ziyarətçilərə daha əyani və interaktiv şəkildə təqdim olunur.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə, şəhid anası Məleykə Məcidova və Vətən müharibəsi qazisi Famil Məlikov çıxışlarında müharibənin tarixi əhəmiyyətindən, xalqımızın birlik və həmrəyliyindən bəhs ediblər. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində torpaqlarımız işğaldan azad edilib. Hazırda həmin ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılır, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı sürətlə davam edir.

Tədbirin sonunda Bakı Şəhər İcra Hakimiyyəti və Tarix İnstitutunun birgə layihəsi olan, Vətən müharibəsindən sonrakı dövrdə baş verən mühüm tarixi hadisələrə həsr edilmiş "Vətən müharibəsi tarixi. Azərbaycanın ərazi bütövlüyünün bərpası - Şəxsiyyət faktoru" kitabının ingilis və rus dillərində nəşrləri iştirakçılara təqdim olunub.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Növbəti il üçün dövlət büdcəsinin prioritet istiqamətləri

2027-ci ilin dövlət büdcəsi ölkənin növbəti il üzrə sosial-iqtisadi inkişaf prioritetlərini, maliyyə siyasətini və strateji hədəflərini əks etdirən mühüm maliyyə sənədidir. Qanun layihəsi ölkədə makroiqtisadi sabitliyin qorunması, qeyri-neft sektorunun inkişafı, əhalinin sosial rifahının yüksəldilməsi, müdafiə və milli təhlükəsizliyin gücləndirilməsi, eləcə də işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin davam etdirilməsi məqsədlərinə əsaslanır. Belə ki, növbəti ilin dövlət büdcəsinin gəlirləri 39 milyard 254 milyon manat, xərcləri isə 42 milyard 400 milyon manat məbləğində proqnozlaşdırılıb.



Milli Məclisin deputatı Vüqar BAYRAMOV qəzetimizə açıqlamasında dedi ki, növbəti ilin dövlət büdcəsi də sosialyönümlü olacaq. Belə ki, 2027-ci il dövlət büdcəsindən sosial istiqamətə 18,7 milyard manat və ya büdcə xərclərinin 44 faizi həcmində vəsait yönəldiləcək. Bu, növbəti ildə yeni sosial paketin icra olunacağı anlamına gəlir. "Ölkə Prezidentinin tapşırığına uyğun olaraq reallaşacaq sosial paket həm daha çox vətəndaşımızı əhatə edəcək, həm də bu, nəticə etibarilə daha yüksək artım faizləri ilə ifadə olunacaq. Bu baxımdan gələn il sosial istiqamətə ayrılan vəsaitlərin həcminin artması birmənalı şəkildə dövlət büdcəsinin əsas istiqaməti olaraq müəyyənləşib. "Bu kontekstdə, sözsüz ki, növbəti il sosial istiqamətə ayrılan vəsaitlərin həcmində artımlar müşahidə olunacaq. Sosial istiqamətlə yanaşı, Azərbaycan üçün prioritet olan milli təhlükəsizliyiin, eləcə də müdafiə qabiliyyətinin daha da gücləndirilməsi istiqamətinə ayrılan vəsaitlər də büdcədə xüsusi paya malikdir", - deyə o əlavə etdi.

Deputat qeyd etdi ki, Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərinə 3,5 milyard manat yönəldiləcək. İşğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətinə ayrılacaq vəsaitin həcmi məhz bu istiqamətin də 2027-ci ildə prioritet olaraq qalacağından xəbər verir. Təbii ki, təhsil, elm, səhiyyə xərcləri də öz prioritetliyini qoruyub saxlayır. Bu sahələrə də ayrılan vəsaitin həcmində artımlar nəzərdə tutulub. Nəzərə alsaq ki, növbəti ilin dövlət büdcəsindən 42.4 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulur, bu da fiskal istiqamətə daha çox vəsaitin ayrılması anlamına gəlir.

V.Bayramov vurğuladı ki, 2027-ci ilin dövlət büdcəsi həm vətəndaşlarımızın sosial təminatının daha da yaxşılaşmasına, həm Qarabağ və Şərqi Zəngəzurda bərpa-yenidənqurma işlərinin sürətlənməsinə, həm də Azərbaycanın müdafiə qabiliyyətinin, eləcə də milli təhlükəsizliyinin daha da gücləndirilməsinə xidmət edəcək.

"Azərbaycan"

Ermənistanla iqtisadi münasibətlərin inkişafı hüquqi öhdəlikləri əvəz edə bilməz

"Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanla ikitərəfli ticarət əlaqələrinin inkişafına dair açıqlamasını müsbət tendensiya kimi qiymətləndirmək olar. Bu, ilk növbədə Azərbaycanın regionda formalaşdırdığı yeni geosiyasi reallıqların və irəli sürdüyü sülh gündəliyinin artıq konkret iqtisadi nəticələr verməyə başladığına dəlalət edir".



Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Fuad ABDULLAYEV qəzetimizə açıqlamasında dedi ki, Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən yüklərin ölkəmizin ərazisi ilə İrəvana daşınması və qarşılıqlı ticarət imkanlarının genişlənməsi sülhün hər iki ölkə üçün real iqtisadi faydalar yarada biləcəyini nümayiş etdirir: "Bu baxımdan iqtisadi əməkdaşlıq yalnız ticarət münasibətlərinin inkişafı deyil, həm də qarşılıqlı etimadın formalaşması və regionda uzunmüddətli sabitliyin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Lakin burada bir mühüm məqamı xüsusi vurğulamaq lazımdır. İqtisadi münasibətlərin inkişafı siyasi və hüquqi öhdəliklərin yerinə yetirilməsini əvəz edə bilməz. Bu prosesin davamlılığı üçün Ermənistan üzərinə götürdüyü öhdəlikləri vaxtında və tam şəkildə icra etməlidir. Xüsusilə Vaşinqton razılaşmaları çərçivəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin olunması, TRIPP layihəsinin həyata keçirilməsi, eləcə də ölkəmizə qarşı ərazi iddiaları ilə bağlı konstitusion maneələrin aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir".

Siyasi şərhçi bildirdi ki, Azərbaycanın mövqeyi kifayət qədər aydındır. Ölkəmiz qarşıdurmanın davam etdirilməsində deyil, suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında dayanıqlı sülhün qurulmasında maraqlıdır. Bununla belə sülhün gələcəyi yalnız siyasi bəyanatlardan deyil, həmin bəyanatların konkret addımlarla dəstəklənməsindən asılıdır.

Onun sözlərinə görə, Ermənistan rəhbərliyi də getdikcə daha aydın şəkildə anlayır ki, Azərbaycanla sülh və iqtisadi əməkdaşlıq ölkənin inkişafı üçün geniş imkanlar açır: "Bu imkanların reallaşması isə ilk növbədə İrəvanın siyasi iradəsindən və əldə edilmiş razılaşmalara sadiqliyindən asılı olacaq. Nəticə etibarilə ticarət əlaqələrinin genişlənməsi sülh prosesində müsbət bir göstəricidir. Lakin həqiqi və davamlı sülhün əsas təminatı qarşılıqlı etimad, hüquqi aydınlıq və götürülmüş öhdəliklərin tam icrasıdır. Azərbaycan məhz belə bir sülhün tərəfdarıdır".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

"Dövlətin roluna yenidən baxış: dəyişən idarəetmə mühitində yeni institusional modellər"

Bakıda "ASAN xidmət"in və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən "BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı" adlı beynəlxalq sammit çərçivəsində "Dövlətin roluna yenidən baxış: dəyişən idarəetmə mühitində yeni institusional modellər" mövzusuna həsr olunmuş üçüncü sessiya baş tutub.

AZƏRTAC xəbər verir ki, Afrika İttifaqını, ICESCO-nu, Keniyanı, Surinamı, İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzini təmsil edən nümayəndələrin iştirakı ilə dövlət institutlarının fəaliyyətinin təkmilləşdirilməsi, idarəetmə modellərinin müasirləşdirilməsi və dövlət sektorunda islahatların həyata keçirilməsi istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Bununla yanaşı, gələcək çağırışlara çevik reaksiya verən, vətəndaşların ehtiyaclarını nəzərə alan və səmərəli idarəetməni təmin edən institusional modellərin qurulması ilə bağlı təcrübə və yanaşmalar bölüşülüb.

Bakıda beynəlxalq sammitdə dövlət idarəçiliyinin gələcəyi və institusional islahatlar müzakirə olunub

Bakıda "ASAN xidmət" və Birləşmiş Millətlər Təşkilatının (BMT) birgə təşkilatçılığı ilə keçirilən "BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı" adlı beynəlxalq sammit çərçivəsində "İdarəetmənin gələcəyi: baxış, missiya və transformasiya" mövzusunda nazirlərin çıxışları dinlənilib.

AZƏRTAC xəbər verir ki, müzakirələrdə Türkiyə, Macarıstan, Şri-Lanka, Qvineya və Seneqalı, eləcə də Nyu-York Dövlət Universitetini təmsil edən nümayəndələr iştirak ediblər. Tədbirdə dövlət idarəçiliyinin gələcəyi, 2040-cı ilədək dövlət institutlarının inkişaf perspektivləri və idarəetmə sistemlərinin transformasiyası məsələləri müzakirə olunub.

Çıxışlarda dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün dövlət idarəçiliyinin təkmilləşdirilməsi, texnoloji tərəqqi, sosial dəyişikliklər və qlobal qeyri-müəyyənlik şəraitində meydana çıxan əsas çağırışlar diqqət mərkəzində olub.

Bununla yanaşı, dövlət institutlarının müasirləşdirilməsi, dövlət qulluğunda islahatların həyata keçirilməsi, eləcə də sürətlə dəyişən dünyada daha çevik, səmərəli və vətəndaşyönümlü idarəetmə sistemlərinin formalaşdırılması yolları nəzərdən keçirilib.

"Dayanıqlı inkişaf naminə gələcəyə hazır dövlət institutlarının formalaşdırılması üzrə əsas yanaşmalar"

Bakıda "ASAN xidmət"in və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən "BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı" adlı beynəlxalq sammit davam edir.

AZƏRTAC xəbər verir ki, sammitin birinci günündə əsas diqqət sürətli texnoloji, sosial və ekoloji dəyişikliklər fonunda idarəetmənin gələcəyinin formalaşdırılmasına, dövlət institutlarının transformasiyasına, innovativ yanaşmaların və süni intellektin dövlət idarəçiliyində tətbiqinə yönəlib. Müzakirələrdə transformativ liderlik, dövlət xidmətlərinin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq və uğurlu təcrübələrin mübadiləsi vasitəsilə dayanıqlı inkişafın təşviqi məsələləri əhatə olunur.

"Dayanıqlı inkişaf naminə gələcəyə hazır dövlət institutlarının formalaşdırılması üzrə əsas yanaşmalar" adlı birinci sessiyada dəyişən dünyada çevik, qabaqlayıcı və yeni çağırışlara operativ cavab verən dövlət institutlarının formalaşdırılması müzakirə olunub. Süni intellekt, iqlim dəyişikliyi, demoqrafik dəyişikliklər və cəmiyyətdə baş verən sürətli transformasiyalar fonunda idarəetmənin təkmilləşdirilməsi, innovasiyaların tətbiqi və dayanıqlı inkişafın təmin olunması istiqamətində əsas yanaşmalar və təcrübələr diqqətə çatdırılıb.

Sessiyada BMT-nin Baş katibinin müavini, Qərbi Asiya üzrə İqtisadi və Sosial Komissiyanın (ESCWA) icraçı katibi Raniya Əl-Məşat, Pakistanın informasiya texnologiyaları və telekommunikasiya üzrə federal naziri Şaza Fatimə Xavaca, BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin bölmə rəhbəri Adriana Alberti, BMT-nin Dövlət İdarəçiliyi üzrə Ekspertlər Komitəsinin (CEPA) sədri Rolf Alter çıxış ediblər. Çıxışlarda dövlət institutlarının gələcəyə uyğun transformasiyası, dayanıqlı inkişafın təmin olunması və müasir çağırışlara çevik cavab verən idarəetmə sistemlərinin formalaşdırılması məsələləri vurğulanıb. O cümlədən strateji planlaşdırma, institusional potensialın gücləndirilməsi, innovasiya və süni intellektin dövlət xidmətlərində tətbiqi, eləcə də bu texnologiyalardan məsuliyyətli istifadə imkanlarına diqqət yetirilib. Bu çərçivədə dövlət xidmətlərinin daha səmərəli, əlçatan və vətəndaşyönümlü təşkili, ictimai etimadın artırılması və inklüzivliyin təmin edilməsi yolları nəzərdən keçirilib.

Çıxışların ardından xatirə şəkli çəkdirilib.

İnteraktiv sorğu vasitəsilə iştirakçılar sammitin müəyyən etdiyi səkkiz idarəetmə çağırışından ən aktual olanlarını seçərək onların həlli qarşısındakı əsas maneələri müəyyənləşdiriblər. Sorğunun nəticələri dövlət xidmətləri sahəsində ortaq prioritetlərin müəyyənləşdirilməsinə, sonrakı müzakirələrin istiqamətləndirilməsinə və idarəetmə innovasiyaları üzrə praktiki, birgə həllərin hazırlanmasına töhfə verəcək.



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL

Güclü lider, qalib dövlət və məğrur xalq

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin ən parlaq, ən qürurverici zirvəsidir. Otuz ilə yaxın davam edən işğala son qoyaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən xalqımız bu gün milli ləyaqətin və tarixi ədalətin bərqərar olunması sevincini yaşayır. Bu qələbə hərbi sahədə qazanılmış uğurla yanaşı, illər boyu addım-addım həyata keçirilən strateji dövlət siyasətinin, güclü iqtisadiyyatın, müasir ordunun və dəmir kimi möhkəm milli həmrəyliyin təntənəsidir. Azərbaycan öz gücü ilə Cənubi Qafqazda yeni siyasi və hərbi reallıqlar diktə etdi, regionda uzunmüddətli sülhün və sabitliyin əsasını qoydu.

Xalqımızın böyük Zəfərə aparan yolu heç də hamar olmayıb, son dərəcə mürəkkəb və tələtümlü tarixi mərhələlərdən keçib. 1990-cı illərin əvvəllərində Azərbaycan dərin siyasi və iqtisadi böhran, daxili xaos, vətəndaş müharibəsi təhlükəsi və torpaqlarımızın ard-arda işğala məruz qalması kimi ağır sınaqlarla üz-üzə qalmışdı. Məhz belə bir həlledici məqamda - 1993-cü ildə xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev müstəqil dövlətçiliyimizi məhv olmaqdan, ölkəmizi isə parçalanmaqdan xilas etdi. Ulu Öndərin həyata keçirdiyi hərtərəfli və uzaqgörən daxili və xarici siyasət sayəsində qısa müddətdə ölkədə cəmiyyəti birləşdirən sabitlik bərqərar olundu, qeyri-nizami silahlı birləşmələr ləğv edilərək müasir, güclü ordu quruculuğunun təməli qoyuldu. 1994-cü ildə əldə olunan atəşkəs rejimi isə dövlətin bütün resurslarını gücləndirməsi və iqtisadi dirçəlişə yönəltməsi üçün zəruri zaman qazandırdı.



BMT Təhlükəsizlik Şurasının erməni işğalçılarının ərazilərimizdən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən məşhur 4 qətnaməsinin onilliklər ərzində kağız üzərində qalması, beynəlxalq təşkilatların isə bu ədalətsizliyə göz yumması beynəlxalq hüququn işləmədiyindən xəbər verirdi. Prezident İlham Əliyev beynəlxalq tribunalardan bu qərəzli yanaşmanı kəskin tənqid edərək, Azərbaycanın heç zaman işğalla barışmayacağını dünyaya çatdırırdı.

"Azərbaycan bir qarış torpağını belə heç kimə güzəştə getməyəcək" prinsipi dövlət siyasətinin dəyişməz xəttinə çevrildi. Hərbi sənaye kompleksinin sıfırdan qurulması, yerli istehsalat imkanlarının genişləndirilməsi və ordumuzun ən qabaqcıl texnoloji avadanlıqlarla təchiz edilməsi ölkəmizin ərazi bütövlüyünün təminində yönəlmiş məqsədyönlü siyasət idi. Prezident İlham Əliyevin yürütdüyü uzaqgörən, dəmir iradəyə əsaslanan daxili və xarici siyasət qaçılmaz Zəfərin başlanğıcı oldu.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatına cavab olaraq başlayan 44 günlük Vətən müharibəsi Azərbaycanın hərbi-siyasi gücünü, xalqımızın həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Döyüş meydanında əsgər və zabitlərimizin göstərdiyi misilsiz şücaət, xüsusilə ağır relyef şəraitində sıldırım qayaların yüngül silahlarla, əlbəyaxa döyüşlərlə aşılaraq düşmənə sarsıdıcı zərbələr endirilməsi müasir hərb tarixinə unikal səhifə kimi yazıldı. Müharibə günlərində Müzəffər Ali Baş Komandan İlham Əliyevin elan etdiyi işğaldan azad olunan kəndlərin, qəsəbələrin, şəhərlərin və strateji yüksəkliklərin xəbəri cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaratdı.

Savaş dövründə Prezident İlham Əliyev həm də müstəsna informasiya siyasəti və peşəkar diplomatik liderlik nümayiş etdirdi. Həmin gərgin günlərdə dünyanın aparıcı televiziya kanallarına və media qurumlarına verdiyi 30-dan çox tutarlı və arqumentləşdirilmiş müsahibələrdə dövlət başçısı erməni təbliğatının yalanlarını darmadağın etdi, qlobal auditoriyaya Azərbaycanın haqq işini qətiyyətlə çatdırdı. Prezidentin bu müsahibələrdə səsləndirdiyi fikirlər, xüsusilə də "...Şuşasız bizim işimiz yarımçıq qalar" ifadəsi həm siyasi iradənin, həm də hərbi strategiyanın dəyişməz hədəfini müəyyənləşdirdi. Bu müdrik kəlam cəmiyyətdə və hərbçilərimizin arasında əsas mənəvi şüara, Zəfər hədəfinə çevrildi.

Noyabrın 8-də qəhrəman Azərbaycan Ordusunun Şuşanı azad etməsi düşmənin müdafiə xəttini tamamilə darmadağın etdi. Bu misilsiz qələbə Ermənistanın hərbi-siyasi rəhbərliyini kapitulyasiya aktına imza atmağa, məğlubiyyəti qəbul edərək diz çökdürməyə məcbur etdi.

44 günlük Vətən müharibəsinin şanlı Qələbə ilə başa çatmasından sonra, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən möhtəşəm Zəfər paradı Azərbaycanın hərbi gücünü, əsgər və zabitlərimizin rəşadətini bütün dünyaya göstərdi. Paradda Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev qürurla bir daha bəyan etdi ki, bu zəfər tarixi zəfərdir: "Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir "dəmir yumruq" yaradıb düşmənin başını əzdik... ...Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik".

Şuşa Zəfərinin qazanılmasından sonra Azərbaycan dövlətinin qarşısında duran ali və dəyişməz məqsəd ölkənin bütün suveren hüquqlarının bərpası, ərazimizin hər bir qarışında konstitusiya quruluşunun təmin edilməsi idi.

Tarixi ədalətin tam bərqərar olması istiqamətində növbəti həlledici addım 2023-cü ilin sentyabrında atıldı. Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri cəmi 23 saat ərzində Qarabağda kök salmış separatizmin məhv edilməsi ilə nəticələndi. Ölkəmizin qüdrətini və hərbi-taktiki üstünlüyünü bir daha sübut edən bu uğurlu əməliyyat sayəsində Azərbaycanın suverenliyi tam təmin olundu.

Bu əməliyyat Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası istiqamətində uzun illər ərzində həyata keçirilən ardıcıl siyasətin məntiqi nəticəsi idi. Azərbaycan dövləti öz ərazisində qanunun aliliyini və konstitusiya quruluşunu təmin etmək hüququndan istifadə edərək separatizmə son qoydu. Bununla da, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərində dövlət hakimiyyətinin tam bərqərar olunması üçün tarixi şərait yarandı. 2020-ci ildə qazanılmış hərbi Qələbə 2023-cü ildə suverenliyin tam bərpası ilə tamamlandı.

Suverenliyimizin tam bərpasının rəmzi olaraq 2023-cü il 15 oktyabr tarixində Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə - Zəfər meydanında Azərbaycan dövlət bayrağını ucaltdı. Həmin tarixi hadisə və sonrakı dövrdə - 2024-cü il fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərində cənab İlham Əliyevin məhz Xankəndidə səs verməsi xüsusi siyasi və rəmzi məna daşıdı. Dövlət başçısının andiçmə mərasimində söylədiyi - "Xankəndidə verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi", fikri erməni separatizminə və onun havadarlarına verilən son və qəti siyasi hökm oldu.

Bu gün Azərbaycan Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və tərəqqinin əsas təminatçısı kimi çıxış edir. İşğaldan azad edilmiş geniş ərazilərdə həyata keçirilən irimiqyaslı bərpa-quruculuq layihələri Böyük qayıdış dövlət proqramının uğurla icra edilməsinə rəvac verib. Artıq 40 mindən çox keçmiş məcburi köçkün soydaşımız doğma yurduna dönüb.

Qarabağ Zəfərinin doğurduğu bu böyük uğurlar ölkəmizi regional liderlikdən beynəlxalq miqyasda söz sahibi olan qüdrətli dövlət səviyyəsinə yüksəldib.

Müharibədən dərhal sonra məhz Azərbaycanın təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasında dönüş nöqtəsi oldu. Otuzillik işğala və dağıntılara baxmayaraq, rəsmi Bakının nümayiş etdirdiyi dövlətçilik təfəkkürü və beynəlxalq hüquq prinsiplərinə söykənən sülh modeli bütün dünya üçün nümunəvi təcrübəyə çevrildi. Ötən il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə sülh müqaviləsi mətninin paraflanması və tərəflər arasında prinsipial razılaşmaların əldə olunması Azərbaycanın diplomatik masada da qətiyyətli Zəfər qazandığını aydın göstərdi. Bu tarixi addım Cənubi Qafqazda onilliklər boyu davam edən ədavətə son qoyaraq bölgədə uzunmüddətli sülh, sabitlik, iqtisadi inteqrasiya və tərəqqi üçün misilsiz imkanlar açdı.

Azərbaycanın nümayiş etdirdiyi bu müdrik və qətiyyətli möqeyi beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir və qlobal müstəvidə dərin rəğbətlə qarşılanır.

Bu mənada, dövlətimizin başçısının sülhün və humanizmin təsviqi istiqamətindəki xidmətlərinin beynəlxalq miqyasda etiraf olunması təsadüfi deyil. Prezident İlham Əliyevə verilən "Zayed İnsan Qardaşlığı Mükafatı", "Sülh və Barışıq üçün Gernika mükafatı", o cümlədən ölkəmizin Sülh Şurasının təsisçi üzvlərindən biri seçilməsi Azərbaycanın sülh gündəliyinin qlobal səviyyədə tam qəbul olunduğunu və yüksək qiymətləndirildiyini aydın şəkildə nümayiş etdirir.

Bir sözlə, Azərbaycanın beynəlxalq müstəvidəki mövqeyi keyfiyyətcə yeni mərhələyə yüksəlib, ölkəmizi regionun əsas enerji, nəqliyyat-logistika və diplomatiya mərkəzinə çevrilib.

Bu gün Azərbaycan təkcə öz torpaqlarını işğaldan azad edən qalib ölkə kimi deyil, həm də qlobal müstəvidə söz sahibi olan, balanslaşdırılmış və müstəqil xarici siyasət yürüdən nüfuzlu bir dövlət kimi tanınır. BMT-dən sonra dünyanın ikinci ən böyük siyasi platforması olan Qoşulmama Hərəkatına uğurlu sədrliyimiz, COP29 kimi qlobal miqyaslı mötəbər beynəlxalq tədbirə evsahibliyi etməyimiz dövlətimizə olan yüksək etimadın parlaq təzahürdür.

Prezident İlham Əliyevin həyata keçirdiyi çevik və strateji diplomatiya sayəsində Azərbaycan ABŞ, Çin, Avropa İttifaqı kimi siyasi-iqtisadi güclərlə bərabərhüquqlu, qarşılıqlı hörmətə söykənən sarsılmaz əlaqələr qurmağa müvəffəq olub. Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaşa çevrilməyimiz, eləcə də Şərqlə Qərb arasında mühüm nəqliyyat və logistika dəhlizlərinin qovşağı rolu oynamağımız ölkəmizin geostrateji çəkisini dəfələrlə artırıb.

Xüsusilə vurğulanmalıdır ki, qazanılan bütün bu möhtəşəm diplomatik və iqtisadi uğurların, beynəlxalq aləmdə artan misilsiz nüfuzumuzun təməlində məhz 44 günlük Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər dayanır. Azərbaycan İkinci Qarabağ müharibəsində qazandığı qələbə ilə həm də dünyaya bu tip münaqişələrin necə həll olunması ilə bağlı unikal formul təqdim etdi. Döyüş meydanında bərpa etdiyimiz ərazi bütövlüyü və suverenliyimiz Azərbaycanın beynəlxalq platformalarda daha inamlı, qətiyyətli və diktə edən tərəf kimi çıxış etməsinə imkan yaratdı, ölkəmizi qlobal diplomatiyanın əsas aktorları sırasına yüksəltdi.

8 Noyabr Zəfəri Azərbaycan dövlətçilik tarixinin ən qürurverici zirvəsidir. Müzəffər Ali Baş Komandanın liderliyi, ordumuzun qüdrəti və xalqımızın dəmir iradəsi ilə bərqərar olan bu yeni gerçəklik təkcə günümüzün zəfər salnaməsi deyil, həm də gələcək nəsillərin sülh, təhlükəsizlik və tərəqqi içində yaşayacağı güclü Azərbaycanın əbədi zəmanətidir.

Bu möhtəşəm Qələbə xalqımızın yaddaşında milli birliyin, dövlətə sədaqətin, Vətən sevgisinin və sarsılmaz iradənin təcəssümü kimi əbədi yaşayacaq. Şəhidlərimizin qanı, qazilərimizin qəhrəmanlığı, əsgər və zabitlərimizin fədakarlığı hesabına yazılan Zəfər salnaməsi gələcək nəsillər üçün həm qürur mənbəyi, həm də dövlətçilik məsuliyyətinin nümunəsidir. Bu gün qarşıda duran başlıca vəzifə qazanılmış tarixi nailiyyətləri qorumaq, Azərbaycanın gücünü və qüdrətini daha da artırmaq, azad edilmiş torpaqlarda yeni həyat qurmaq və ölkəmizin beynəlxalq nüfuzunu davamlı şəkildə yüksəltməkdir. Əminliklə demək olar ki, 8 Noyabr Zəfəri Azərbaycanın gələcək inkişaf yolunu işıqlandıran, milli birliyimizi və müstəqil dövlətçiliyimizi daha da möhkəmləndirən tarixi hadisə kimi əsrlər boyu yaşayacaq.

Azərbaycan öz gücü ilə Cənubi Qafqazda yeni siyasi və hərbi reallıqlar yaratdı, regionda uzunmüddətli sülhün və sabitliyin əsasını qoydu. Xalqımızın böyük Zəfərə aparan yolu heç də hamar olmayıb, son dərəcə mürəkkəb və tələtümlü tarixi mərhələlərdən keçdi. Bu Zəfər güclü liderin qətiyyətinin, qalib dövlətin qüdrətinin və məğrur xalqın sarsılmaz iradəsinin təntənəsi kimi tarixə düşdü.

Səttar MÖHBALIYEV,
Milli Məclisin deputatı

11 min günün həsrətinə son qoyan 44 gün

Elə rəqəmlər var ki, onları sadəcə saymırıq, həm də yaşayırıq. Zaman keçdikcə o, öz riyazi mahiyyətini geridə qoyaraq bir xalqın yaddaşına, taleyinə, mənəvi dünyasına köçür. Adi rəqəm olmaqdan çıxıb yaşanmış tarixin, duyğuların və kollektiv yaddaşın simvolu na çevrilir. 44 bizim üçün məhz belə rəqəmdir. Xalqın iradəsinin, birliyinin və Zəfərinin rəmzidir.



44 deyəndə göz önündə sadəcə iki rəqəmdən ibarət bir ədəd canlanmır. Bu rəqəm bir xalqın taleyinə çevrilmiş 44 günlük mübarizəni, milyonlarla insanın eyni anda yaşadığı həyəcanı, intizarı, qorxunu, ümidi, kədəri və sevinci xatırladır. Onun arxasında Vətən sevgisi, ana duası, eləcə də yarımçıq qalmış arzular, göz yaşları və nəhayət, böyük Zəfərin sevinci dayanır.

2020-ci ilin payızında Azərbaycan üçün zaman başqa cür axırdı. Səhərlər xoş xəbərin intizarı ilə açılır, axşamlar dualarla başa çatırdı. Müharibə cəbhədə gedirdi, amma onun nəfəsi hər evdə, hər ailədə duyulur, ağırlığı hər qəlbi sıxırdı. Kiminin oğlu, kiminin qardaşı, kiminin atası, kiminin də həyat yoldaşı Vətənin müdafiəsində idi. Hər kəsin gözü ekranlarda, qulağı səsdə, düşüncəsi isə cəbhədə idi.

O günlərin özünəməxsus bir səssizliyi vardı. Həyat zahirən öz axarı ilə davam etsə də, hər kəsin daxilində başqa bir dünya yaşanırdı. Bir ana telefon zəngində oğlunun səsini eşitmək ümidi ilə yaşayır, bir ata nigaranlığını gizlətməyə çalışır, bir uşaq isə atasının nə vaxt qayıdacağını soruşurdu. "Necəsən?" kəlməsi belə həmin günlərdə tam başqa anlamla yüklənmişdi. Bu üç hecalı müraciətin arxasında nigarançılıq, həsrət, ümidlə yanaşı "sağsanmı, salamatsanmı?" deyə çırpınan ürəklər gizlənirdi.

Bütün bu ağrıların içində xalqın ruhunda sınmaq deyil, birləşmək hissi güclənirdi. Tanımadığımız insanların dərdini öz dərdimiz, sevincini sevincimiz kimi qəbul edirdik. Ölkə 44 gün xalqın ortaq taleyində yaşadı. Bəlkə də Azərbaycan xalqının həmin günlərdə yaşadığı duyğuların ən qeyri-adiliyi elə bunda idi: müharibə başlayanda insanlar qorxu ilə yanaşı, "nəhayət!" deyə bir sevinc də yaşadılar.

Yəqin ki, dünyada azərbaycanlılardan başqa elə bir xalq olmayıb ki, müharibə xəbərinə sevinsin. Bu duyğunu ancaq 30 il ev-eşiyindən didərgin düşmüşlər yaşaya bilər. Bu duyğunu yüz illərlə azadlığa təşnə olmuş bir xalq yaşaya bilər ki, bu da Azərbaycan xalqının taleyinə yazılmış hiss idi. Çünki 2020-ci ilin 27 sentyabrı illərlə ürəklərdə daşınan həsrətin, gözlənilən günün, torpaqların azadlığına qovuşmaq ümidinin başlanğıcı idi. Xalq üç on il gözlədiyi anın gəlişinə "qucaq açmışdı". Bu sevincin içində qürur da vardı, inam da, illərin nisgilindən doğan bir kövrəklik də...

Amma 44 gün boyunca həmin sevincin üzərindən qara xəbərlərin kölgəsi çəkilmədi. Hər qələbə xəbəri ürəklərdə qürur doğurarkən, üçrəngli bayrağa bürünmüş şəhid tabutları həmin qürura dərin bir hüzn, kədər hopdururdu. Bir tərəfdə, azad olunan torpaqların sevinci, digər tərəfdə, övladını itirən anaların fəryadı vardı. Xalq bir anın içində həm sevinməyi, həm ağlamağı öyrənmişdi. Göz yaşları sevincdən və ən ağır itkilərdən axırdı. Və bu iki duyğunu 44 gün ərzində Azərbaycan xalqı bir-birindən ayırmadan yaşadı.

Şəhidlik... Bu sözün içində nə qədər böyük qəhrəmanlıq, nə qədər insanın ağrılı taleyi var. Şəhid oğullar Vətənin azadlığı və torpaqlarımızın bütövlüyü uğrunda öz canlarını fəda etdilər. Bu gün yaşadığımız Zəfərin arxasında məhz şəhidlərin qanı, fədakarlığı və yarıda qalan ömürləri dayanır. Onlar bu günləri görməsələr də, tarixi və müqəddəs Zəfərin ən böyük pay sahibləridirlər. Hər azad torpaqda onların izi, hər dalğalanan bayraqda bizə əmanət etdikləri Vətən sevgisi var.

Bu torpağın Zəfər yolu təbii ki, bir gündə, bir müharibədə başlamayıb. Birinci Qarabağ müharibəsində 11 mindən çox hərbçimiz şəhid oldu, onlarla deyil, minlərlə mülki şəxs Vətən uğrunda həyatını itirdi. İllər sonra 44 günlük Vətən müharibəsində isə 2908 hərbi qulluqçumuz şəhidlik zirvəsinə ucaldı, 1000-dən çox əsgər yaralandı, 6 nəfər itkin düşdü. Hər birinin xatirəsi bizim üçün müqəddəsdir. Çünki bu gün sahib olduğumuz azadlığın arxasında onların canı, qanı və yarımçıq qalmış arzuları dayanır. Onlar həyatdan köçdülər, amma Vətən tarixində əbədi yaşamaq haqqı qazandılar. Bizim borcumuz isə əbədiyyətə qovuşan həmin oğulların xatirəsini yaşatmaq, bu Zəfərin qədrini bilmək və gələcək nəsillərə əmanət etdikləri Vətəni qorumaqdır.

İnam, iradə və "dəmir yumruq"

44 günün mənəvi mənzərəsini tamamlayan daha bir məqam vardı: xalqın Ali Baş Komandan İlham Əliyevə olan inamı və güvəni. Müharibə günlərində televiziya ekranları xalqın hər gün xəbər gözlədiyi, ümid və həyəcanla izlədiyi bir "pəncərə" rolunu oynayırdı.

İnsanlar səbirsizliklə Prezidentin xalqa müraciətlərini, cəbhədən gələn növbəti xoş xəbərləri gözləyirdilər. Hər dəfə Ali Baş Komandanın ekran qarşısına çıxması yeni bir ümid, yeni bir həyəcan yaradırdı. Azad olunan şəhər və kəndlərin adlarını şəxsən elan etməsi, qələbə xəbərlərini xalqla bölüşməsi həmin günlərin yaddaşında xüsusi yer tutdu. İlham Əliyevin "dəmir yumruq" ifadəsi isə tədricən adi bir söz birləşməsi olmaqdan çıxaraq birliyin, iradənin və həmrəyliyin rəmzinə çevrildi.

Həmin günlər xalq, ordu və dövlət arasında formalaşan birlik milli həmrəyliyin və sarsılmaz iradənin parlaq nümunəsi idi. Cəbhədə əsgər döyüşür, arxa cəbhədə xalqın duaları və mənəvi dəstəyi yüksəlir, dövlət rəhbəri isə hərbi-siyasi prosesləri vahid strategiya əsasında yönləndirirdi. Hər kəs öz yerində eyni məqsədə xidmət edirdi. Bu birlik Azərbaycan xalqının 44 günlük müharibə yaddaşında özünəməxsus və unudulmaz yer tutdu. Ali Baş Komandan, Prezident İlham Əliyevə olan inam və güvən 44 günün emosional dayaqlarından birinə çevrilmişdi. Bu inamın və siyasi liderliyə münasibətin izləri müharibədən sonrakı illərdə də cəmiyyətin yaddaşında və duyğularında yaşamaqda davam edir.

Əslində, "dəmir yumruğ"un ən böyük mənası ordu-xalq-dövlət birliyində idi. Çünki o "yumruğ"un gücü yalnız bir simvolda deyil, arxasında dayanan milyonlarla insanın ortaq iradəsində, əsgərin döyüş əzmində, xalqın dəstəyində və qələbəyə olan inamında ifadə olunurdu. 44 gün bizə bir daha göstərdi ki, Azərbaycan xalqının birliyi tarixin ən çətin sınaqlarında mühüm mənəvi gücə çevrilə bilər.

Və nəhayət, 8 noyabr 11 min günün həsrətinə son qoydu. Zəfər anı yetişdi! Bu, adi bir sevinc deyildi. İnsanlar həm gülümsəyir, həm ağlayır, həm də bir-birini təbrik edir, bayraqlara sarılırdılar. Küçələrdə, meydanlarda, evlərdə eyni duyğu yaşanırdı. Sanki milyonlarla ürək vahid ritmlə döyünürdü. Buna görə də 8 Noyabr Zəfər Günü yaddaşımızda yalnız qələbə tarixi deyil, həm də qürur, ehtiram və minnətdarlıq günü kimi yaşayır.

44-ün mistikası - rəqəmdən rəmzə

Bəzən düşünürəm: görəsən, rəqəmlərin də taleyi olurmu? Onlar da zamanla özünəməxsus yaddaş, görünməz məna qazana bilirlərmi? Axı elə hadisələr var ki, rəqəmləri sadəcə ölçü vahidi olmaqdan çıxarıb mənəvi simvola çevirir. 44 mənim üçün belə rəqəmdir. İki dördün yanaşı dayanması, eyni rəqəmin təkrarı insanda birlik, ahəng və bütövlük assosiasiyası yaradır. Müxtəlif mədəniyyətlərdə dörd rəqəmi dünyanın dörd tərəfi, ilin dörd fəsli, sabitlik və nizam anlayışları ilə əlaqələndirilir. Bizdə isə daha çox 44 günə sığan bir xalqın mübarizəsini, birliyini, fədakarlığını və Zəfərini xatırladır.


Bəlkə də bu səbəbdən 44-ün quruluşunda mənəvi bir bütövlük obrazı görmək istəyirik. Mən bu rəqəmdə iki ayrı, amma bir-birini tamamlayan xətt görürəm: həsrət, intizar və mübarizə ilə dolu günləri özündə əks etdirən ümid, birlik, qürur və Zəfərə aparan yol. Bu, rəqəmlərin dəyişməz mistik qanunu deyil, yaşanmış tarixə verdiyimiz poetik-fəlsəfi mənasıdır.

Daha bir maraqlı məqam: 44 rəqəmi yazılış baxımından güzgüvari simmetriyaya malikdir. Hansı tərəfdən baxsaq da, eyni rəqəmlə qarşılaşırıq. Məncə, bu da gözəl bir metaforadır: tarixə hansı tərəfdən yanaşsaq, qarşımıza eyni həqiqət çıxır. Bu, ağrı, sevinc, itki və Zəfərdir. Bəlkə də 44-ün ən böyük sirri onun özündə deyil, bir xalqın ona yüklədiyi mənadadır. O, zaman ölçüsündən çıxaraq yaddaş rəmzinə çevrilib. Artıq bu rəqəmi görəndə, səsləndirəndə xalqın o günlərdəki yaşantılarını xatırlayırıq.

Zaman 6 ildi 44 günün yaşantılarını arxada qoyub. Amma Azərbaycan xalqı o günləri heç vaxt yaddaşından silməyəcək. Çünki bəzi tarixlər keçmişə çevrilmir, xalqın mənəvi varlığının bir hissəsi olaraq onunla birlikdə gələcəyə doğru irəliləyir. 44 gün bitdi, amma onun mənəvi mənası bitmədi.

44 bir xalqın taleyinə yazılmış Zəfər dastanının səhifələrinə hopmuş şərəfli və qürurlu rəqəmdi. Zaman onu hər gün bir addım keçmişə aparır, yaddaşımız isə əbədiyyətə... 44 sadəcə günlərin sayı deyil. O, bir xalqın ağrısının, həsrətinin, birliyinin, ümidinin və Zəfərinin tarixə həkk olunmuş salnaməsidir.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"



Azərbaycan-Gürcüstan: yeni imkanlar, ortaq hədəflər

Prezident İlham ƏLİYEV: "Biz bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birimizi dəstəkləyirik"

Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələr regionun inkişafı, ticarət dövriyyəsinin genişlənməsi və beynəlxalq nəqliyyat-kommunikasiya imkanlarının artırılması baxımından əhəmiyyətlidir. Tarixi qonşuluq münasibətlərinə və qarşılıqlı etimada əsaslanan bu əməkdaşlıq hazırda strateji tərəfdaşlıq səviyyəsində inkişaf edərək enerji, nəqliyyat, tranzit, investisiya və ticarət kimi müxtəlif istiqamətləri əhatə edir.

Avropa ilə Asiyanı birləşdirən marşrutlar üzərində yerləşən Azərbaycan və Gürcüstanın coğrafi üstünlükləri iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaradır. Azərbaycanın Xəzər dənizinə, Gürcüstanın isə Qara dənizə çıxışı bu iki ölkəni "Şərq-Qərb" nəqliyyat dəhlizinin əsas iştirakçılarına çevirir. Bu amil onların regional ticarətdə, beynəlxalq yükdaşımaların təşkilində və yeni bazarlara çıxışın təmin edilməsində rolunu daha da artırır. Belə əməkdaşlığın genişlənməsində təbii ki, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu və Gürcüstanla münasibətlərin inkişafına verdiyi xüsusi önəm böyük rol oynayır. Dövlət başçısının Gürcüstanla münasibətlərin inkişafına göstərdiyi diqqət iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsində də özünü göstərir. Gürcüstan xalqı və dövləti də Azərbaycanın simasında özünün güvənilən qonşusunu və etibarlı tərəfdaşını görür. İki ölkə rəhbərləri arasında müntəzəm görüşlər və aparılan danışıqlar yeni iqtisadi layihələrin müzakirəsinə, mövcud əlaqələrin daha da gücləndirilməsinə imkan yaradır.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2026-cı il aprelin 6-da Gürcüstana dövlət səfəri iki ölkə arasında münasibətlərin inkişafında diqqətəlayiq hadisələrdən biri kimi yadda qalıb. Səfər çərçivəsində Gürcüstan Prezidenti Mixeil Kavelaşvili və Baş nazir İrakli Kobaxidze ilə keçirilən görüşlərdə iqtisadiyyat, enerji, nəqliyyat, logistika və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib. Dövlət başçılarının mətbuata birgə bəyanatında İlham Əliyev deyib: "Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik. Əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək".

İki ölkə arasında aparılan danışıqların və əldə olunan razılaşmaların real nəticələri konkret iqtisadi layihələrdə də öz əksini tapır. Bunun son nümunəsi oktyabrın 30-da Gürcüstanın Siqnaxi şəhərində keçirilən Azərbaycan və Gürcüstan arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasıdır. İclas çərçivəsində iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, nəqliyyat-logistika imkanlarının artırılması və birgə layihələrin həyata keçirilməsi istiqamətində yeni razılaşmalar əldə edilib. İclas çərçivəsində imzalanan sənədlərdən biri sərhəd-keçid infrastrukturunun inkişafına və yükdaşımaların asanlaşdırılmasına yönəlib. "İpək yolu - Abreşumis Qza" birgə beynəlxalq avtomobil buraxılış məntəqəsinin fəaliyyətinin praktiki mərhələyə keçməsini nəzərdə tutan protokolun imzalanması sözügedən sahədə atılan addımlardan biri kimi qiymətləndirilir. Sənəd Ağstafa-Qardabani istiqamətində birgə sərhəd-keçid məntəqəsinin fəaliyyətinin təşkili və tətbiqi ilə bağlıdır. Layihənin həyata keçirilməsi Azərbaycan və Gürcüstan arasında yük və nəqliyyat vasitələrinin hərəkətini daha da asanlaşdıra bilər. Sərhəd prosedurlarının sadələşdirilməsi, gözləmə müddətinin qısaldılması və logistika xərclərinin azaldılması həm daşıyıcılar, həm də sahibkarlar üçün əlavə imkanlar yaradacaq.

Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlığının miqyası iki ölkə arasında artan ticarət dövriyyəsində və qarşılıqlı investisiyalarda da aydın görünür. Gürcüstan Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olaraq qalır. Cari ilin ilk doqquz ayında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 42 faiz artaraq 1 milyard dollara yaxınlaşıb. Rəqəmlər iqtisadi əlaqələrin genişləndiyini və qarşılıqlı ticarət imkanlarının artdığını nümayiş etdirir. Bu barədə Baş nazir Əli Əsədov bəhs etdiyimiz tədbirdə çıxışı zamanı məlumat verib. O, iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın müsbət dinamika ilə inkişaf etdiyini vurğulayaraq, Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı investisiyaların həcminə də diqqət çəkib. Bildirib ki, Azərbaycan indiyədək Gürcüstana 4 milyard dollara yaxın sərmayə yatırmaqla bu ölkənin ən böyük investorlarından birinə çevrilib.

Danılmaz faktdır ki, energetika və nəqliyyat Azərbaycan-Gürcüstan iqtisadi tərəfdaşlığının əsas istiqamətlərindəndir. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi" və Bakı-Tbilisi-Qars dəmir yolu hər iki ölkənin regional və beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsində önəmli rol oynayır. Hazırda "yaşıl enerji"nin ötürülməsi üzrə regional dəhlizin yaradılması istiqamətində aparılan əməkdaşlıq isə tərəfdaşlığa yeni perspektivlər qazandırır.

Bu layihələr iki ölkənin iqtisadi əlaqələrini gücləndirməklə yanaşı, əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi üçün də zəmin yaradır. Ona görə gələcəkdə əməkdaşlığın bir qədər də genişlənməsi üçün tranzit imkanlarından səmərəli istifadə ilə yanaşı, yerli istehsalın və emal sənayesinin inkişafına diqqət yetirilməlidir. Yüklərin daşınması ilə yanaşı, onların çeşidlənməsi, qablaşdırılması, saxlanılması və emalı da əlavə iqtisadi dəyər yarada bilər. Logistika mərkəzlərinin yaradılması və birgə investisiya layihələrinin həyata keçirilməsi bu potensialın reallaşmasına mühüm töhfə verə bilər.

Bütün deyilənlər onu göstərir ki, Azərbaycan-Gürcüstan iqtisadi tərəfdaşlığı regionun gələcək iqtisadi mənzərəsini formalaşdırmaq yolunda irəliləyir. Qarşılıqlı etimad və ortaq maraqlar üzərində qurulan bu əməkdaşlığın yeni layihələrlə daha da dərinləşməsi hər iki ölkənin iqtisadi potensialının reallaşdırılmasına və regional mövqelərinin möhkəmlənməsinə xidmət edəcək.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Konqresdəki dəyişikliklər ABŞ-nin Cənubi Qafqaz siyasətinə necə təsir edəcək?

ABŞ-nin siyasi sistemində hər iki ildən bir keçirilən aralıq seçkiləri xarici siyasətin formalaşdırılması və icrası baxımından fundamental hüquqi və analitik əhəmiyyət kəsb edir. ABŞ Konstitusiyasının birinci maddəsinə əsasən, xarici diplomatiyanın yürüdülməsi Prezident Administrasiyasının müstəsna səlahiyyətində olsa da, həmin siyasətin maddi və hüquqi bazası tamamilə konqresin nəzarətindədir.

Aralıq seçkiləri nəticəsində konqresin tərkibində baş verən güc nisbəti dəyişikliyi Vaşinqtonun Cənubi Qafqaz kimi geostrateji baxımdan həssas regionlara olan yanaşmasını maliyyə rıçaqları və qanunvericilik nəzarəti olmaqla, iki ana müstəvidə tənzimləyir. Konqres "büdcə səlahiyyəti" vasitəsilə region ölkələrinə ayrılan bütün iqtisadi, hərbi və humanitar yardım paketlərini və təhlükəsizlik sahəsindəki qrantları təsdiqləmək və ya bloklamaq hüququna malikdir. Bununla yanaşı, Senatın "məsləhət və razılıq" funksiyası regiona təyin olunacaq səfirlərin və xüsusi nümayəndələrin təsdiq prosesini ləngidə və ya sürətləndirə bilər. Həmçinin konqres daxilindəki etnik lobbi qruplarının təsiri ilə tətbiq edilə biləcək sanksiya aktları və ya 907-ci düzəliş kimi qanunvericilik məhdudiyyətləri icra hakimiyyətinin regional manevr imkanlarını hüquqi çərçivəyə salır.

Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV qəzetimizə açıqlamasında bildirdi ki, aralıq seçkilərində Demokratlar və ya Respublikaçıların Nümayəndələr Palatası və Senatda çoxluğu ələ keçirməsi ilə formalaşan "bölünmüş hakimiyyət" modeli Vaşinqtonda idarəetmə mexanizminin fəal icraedici siyasətdən müdafiə xarakterli müstəviyə keçməsinə səbəb olur: "Komitə sədrliklərinin dəyişməsi federal qurumların fəaliyyəti üzrə parlament təhqiqatlarının başlanması və icraedici sərəncamların nəzarətə götürülməsi üçün geniş hüquqi baza yaradır. Bu mənada, seçkilərin nəticələri Cənubi Qafqaz regionunda ideoloji və diplomatik prioritetlərin tənzimlənməsində birbaşa rol oynayır. Demokratların dominantlıq etdiyi mühitdə xarici siyasətdə liberal normativizm, demokratiyanın təşviqi, insan hüquqları və vətəndaş cəmiyyətinə dəstək kimi ideoloji məsələlər rıçaq kimi ön plana keçdiyi halda, Respublikaçıların üstünlüyü zamanı daha çox "realpolitik" prinsipi, iqtisadi maraqlar, tranzit marşrutlarının təhlükəsizliyi və birbaşa təhlükəsizlik əməkdaşlığı dominant olur. Bu ideoloji və institusional dəyişiklik xüsusilə Tbilisi, Bakı və İrəvanla aparılan diplomatik dialoqun tonuna, Xarici Əlaqələr Komitəsinin illik müdafiə büdcəsi müzakirələrinə və ayrılan maliyyə dəstəyinin şərtlərinə birbaşa təsir göstərir. Bu müstəvidə "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dondurulması Prezident Administrasiyası ilə konqres daxilindəki müxalif çoxluq və lobbi qrupları arasında əsas hüquqi qarşıdurma nöqtələrindən birinə çevrilərək, ikitərəfli hərbi-texniki əməkdaşlığa normativ məhdudiyyətlər gətirə bilər. Bununla belə, ABŞ xarici siyasətinin dərin institusional bünövrəsi Cənubi Qafqaza münasibətdə partiyalarüstü, daha dəqiq ifadə etsək, ikipartiyalı konsensus xarakteri daşıyır və seçkilərin nəticələrindən asılı olmayaraq, dəyişmir".

Deputat qeyd etdi ki, Vaşinqton üçün Cənubi Qafqaz mühüm əhəmiyyət kəsb edən regiondur. Çindən Avropaya doğru uzanan, Rusiyadan yan keçən Trans-Xəzər logistika dəhlizinin, Bakı-Tbilisi-Ceyhan və "Cənub qaz dəhlizi", Trans-Anadolu Qaz Boru Kəməri, Trans-Adriatik Qaz Boru Kəməri kimi enerji xətlərinin təhlükəsizliyinin və dayanıqlılığının təmin olunması ABŞ-nin qlobal iqtisadi strategiyasının tərkib hissəsidir. Eyni zamanda Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması vasitəsilə regionda uzunmüddətli sabitliyin bərqərar edilməsi Vaşinqtonun dəyişməz strateji hədəfidir. Məhz bu fundamental maraqlar fonunda Amerikanın Cənubi Qafqazda kəskin və tam bir "U-dönüşü" etməsi, yəni regiondan birdəfəlik geri çəkilməsi və ya geosiyasi mövqeyini 180 dərəcə dəyişməsi praktiki olaraq imkansızdır. Məlumdur ki, beynəlxalq münasibətlərdə geosiyasi vakuum qanunu işləyir, yəni indiki halda ABŞ-nin regionu tərk etməsi yaranacaq strateji boşluğun dərhal Rusiya, İran və ya Çin tərəfindən doldurulması ilə nəticələnər ki, bu da Vaşinqtonun qlobal çəkindirmə doktrinasına ziddir. Üstəlik, okeanın o tayında bütün siyasi qüvvələrə bəllidir ki, Azərbaycan suveren xarici siyasət xətti, güclü iqtisadi-hərbi potensialı və regionda formalaşdırdığı yeni geostrateji reallıqlar sayəsində istənilən beynəlxalq subyektlə münasibətlərini diktə altında deyil, bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında qurmaq gücündə olduğunu artıq sübut edib. Yəni rəsmi Bakı heç bir xarici gücdən birtərəfli asılılıq yaratmadan, öz milli maraqlarını mərkəzdə saxlayaraq çoxvektorlu və balanslaşdırılmış diplomatiya yürütmək imkanına malikdir. Məhz bu səbəbdən Vaşinqtonun analitik və strateji mərkəzlərində yaxşı dərk edirlər ki, ABŞ-nin Cənubi Qafqazdan geri çəkilməsi, passivləşməsi və ya anti-Azərbaycan mövqeyi tutması nəticəsində bölgədə yaranacaq geosiyasi vakuumu dolduracaq digər qlobal və regional güclərlə Azərbaycan öz maraqlarını asanlıqla uzlaşdıra bilər.

B.Məhərrəmov dedi ki, Bakının malik olduğu beynəlxalq logistik çəki, enerji resursları və hərbi-siyasi müstəqillik ona regional nizamı öz xeyrinə balanslaşdırmaq imkanı verir: "Bu isə Vaşinqton üçün nəinki Cənubi Qafqazda, eləcə də Mərkəzi Asiyaya çıxış xəttində geostrateji təsir imkanlarının tamamilə itirilməsi riskini yaradır və ABŞ-nin "Demokratlar" qütbünü də Azərbaycanla münasibətlərə konyunktur təzyiqlər çərçivəsindən deyil, bərabərhüquqlu strateji zərurət müstəvisindən yanaşmağa məcbur edir. Yəni sadə dildə desək, regionun geosiyasi dəyəri və Mərkəzi Asiyanın resurslarına çıxış qapısı olması ABŞ-nin buradan imtina etməsinə imkan vermir. Mümkün olan tək ssenari "U-dönüşü" deyil, sadəcə, daxili siyasi gərginliklər, lobbi təsirləri səbəbindən Cənubi Qafqaza ayrılan diplomatik diqqətin müvəqqəti



azalması və ya siyasi ritorikanın praqmatik müstəviyə keçməsidir. Bu kontekstdə, xüsusilə nəzərə alınmalıdır ki, 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilən uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa edərək Cənubi Qafqazda köklü şəkildə yeni geosiyasi və hüquqi reallıqlar formalaşdırıb. Rəsmi Bakının irəli sürdüyü bu yeni nizam regionda onilliklər boyu davam edən qeyri-sabitliyə son qoymaqla yanaşı, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin, xüsusilə Orta dəhlizin təhlükəsizliyini təmin edib, regional güclərin və qlobal aktorların maraqlarını uzlaşdıran etibarlı platforma yaradıb. Məhz bu geostrateji kontekstdə, ABŞ daxilindəki müəyyən siyasi və lobbi dairələrinin, ələlxüsus "Demokratlar" cəbhəsinin müəyyən dövrlərdə tutduğu anti-Azərbaycan mövqeyi Vaşinqtonun milli və dövlət maraqları ilə birbaşa ziddiyyət təşkil edir. Lakin ABŞ-nin bu regionla əlaqəli strateji hədəflərinin real icrası regionun açar dövləti, güclü ordusu, müstəqil xarici siyasəti və inkişaf etmiş infrastrukturuna malik olan Azərbaycanla tərəfdaşlıqdan keçir".

Deputat vurğuladı ki, Vaşinqtonun Azərbaycana qarşı qərəzli və ya sanksiya yönümlü siyasət yürütməsi Bakını Qərb institutlarından uzaqlaşdıraraq Rusiya və Çinlə daha sıx geostrateji inteqrasiyaya təhrik edə bilər ki, bu da ABŞ-nin Avrasiyadakı mövqelərinə vurulan ağır zərbə olar. Eyni zamanda Ermənistanın iqtisadi və təhlükəsizlik baxımından blokadadan çıxaraq, Qərbə inteqrasiya olunması, faktiki olaraq Azərbaycanın təklif etdiyi sülh gündəliyinin və regional kommunikasiyaların gerçəkləşməsindən birbaşa asılıdır. Məhz buna görə də, ABŞ-nin daxili siyasi çəkişmələrinə və konqresin ritorik-hüquqi təzyiqlərinə baxmayaraq, Vaşinqtonun praqmatik icraedici strukturları - Dövlət Departamenti və Energetika Departamenti Bakının geostrateji çəkisini nəzərə almağa məcburdur. "Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki mərkəzi rolu, logistik mövqeyi və regional sülhün bərqərar olunmasındakı rolu ikitərəfli münasibətlərin strateji təməlini təşkil edir. İcra hakimiyyətinin real təhlükəsizlik və iqtisadiyyat maraqları ilə parlament səviyyəsindəki hüquqi maneələr arasında daxili balans idarə olunduqca, Cənubi Qafqazda güc nisbətinin sırf konqresin normativ tələbləri ilə deyil, Vaşinqtonun böyük geostrateji maraqları və Bakının regional reallıqları əsasında formalaşan praqmatik zəminə keçməsi təmin olunacaq. Vaşinqtonun "dərin dövlət" və milli təhlükəsizlik arxitekturası fərqindədir ki, konyunktur lobbi maraqlarına uyaraq Bakı ilə körpüləri yandırmaq ABŞ-nin Cənubi Qafqazdakı bütün geostrateji mövcudluğunu riskə atmaq deməkdir", - deyə deputat bildirdi.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Cənubi Qafqazda sülh və əməkdaşlıq

Rəsmi İrəvanın bəyanatları ilə əməlləri arasındakı dərin təzad bölgədə davamlı barışı sual altında qoyur

Cənubi Qafqaz regionu öz tarixinin ən mühüm dönüş nöqtələrindən birini yaşayır. Uzun illər boyu davam edən münaqişədən sonra bölgədə real sülhün və iqtisadi tərəqqinin bərqərar olunması üçün tarixi imkan yaranıb. Xüsusilə ötən il keçirilən Vaşinqton Zirvəsi, sülh sazişinin mətninin paraflanması və ATƏT-in Minsk prosesinin rəsmən tarixin arxivinə göndərilməsi regionda yeni - əməkdaşlıq erasının başlandığını göstərdi. Lakin bu müsbət dinamikaya baxmayaraq, masadakı sülhün kağız üzərindən tam hüquqi müstəviyə keçməsi hələ də müəyyən maneələrlə üz-üzədir. Yəni regionda sülh kövrək olaraq qalır.

Regionda əməkdaşlıq üçün geniş üfüqlər

Bu gün Cənubi Qafqazı qlobal diqqət mərkəzinə gətirən əsas amillərdən biri Vaşinqton Zirvəsində razılaşdırılmış Zəngəzur dəhlizidir (TRIPP). Orta dəhlizin tərkib hissəsi olan bu marşrut təkcə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməyəcək, regionun nəqliyyat və logistika xəritəsini kökündən dəyişəcək. Layihə Şərqlə Qərbi, Mərkəzi Asiyanı, ABŞ və Avropa bazarlarını birləşdirən qlobal iqtisadi körpü rolunu oynayacaq.

Azərbaycan öz ərazisində bu dəhliz üzrə dəmir yolu və avtomobil infrastrukturu işlərini demək olar ki, tamamlayıb. Ermənistan parlamentinin də TRIPP sazişini ratifikasiya etməsi layihənin tezliklə reallaşacağına ümid yaradır. Ermənistanın Baş naziri Nikol Paşinyan Brüsseldə keçirilən "Euronews" sammitində ölkəsinin Azərbaycanla münasibətlərin inkişafı istiqamətində addımlar atdığını və ikitərəfli ticarəti genişləndirdiyini bildirib. O, Cənubi Qafqazı ümumi maraqları, baxışları və strategiyaları olan vahid region kimi gördüklərini vurğulayıb. Həmçinin regional infrastruktur və nəqliyyat bağlantılarının inkişafında TRIPP layihəsinin əhəmiyyətinə də diqqət çəkib. Paşinyan hesab edir ki, TRIPP layihəsi, o cümlədən Azərbaycan, Gürcüstan və Ermənistan arasında xüsusilə logistika sahəsində əməkdaşlıq Cənubi Qafqazın qlobal təchizat zəncirində rolunu gücləndirə və yeni imkanlar yarada bilər.

Paşinyanın Cənubi Qafqazı vahid region kimi gördüyünü bəyan etməsi və logistika sahəsində işbirliyinin vacibliyini vurğulaması, prinsip etibarilə, doğru və geosiyasi reallığa uyğun yanaşmadır. Lakin əgər bu yanaşma sadəcə sözlərdən ibarət olmasa…

Rəsmi Bakı heç zaman təkcə bəyanatlarla kifayətlənməyib. Ötən müddətdə bölgədə sülhün, sabitliyin və tərəqqinin var olması üçün real müstəvidə atılan addımlar da bunu göstərir.

Azərbaycan Ermənistana qarşı tətbiq edilən tranzit məhdudiyyətlərini aradan qaldırıb. İndi ölkəmizin ərazisindən tranzit keçməklə Ermənistana taxıl, gübrə daşınır. Hətta enerjiyə ehtiyacı olan bu ölkəyə birbaşa Azərbaycandan yanacaq - benzin və dizel göndərilir.

Bunlar sübut edir ki, Azərbaycan qalib tərəf kimi bölgədə həm də daimi sülh yaratmaqda son dərəcə qətiyyətlidir. Öz gücü və milli iradəsi ilə beynəlxalq hüququ bərpa edərək Cənubi Qafqazda de-fakto sülhü bərqərar edən ölkəmiz regionda əməkdaşlıq üçün geniş üfüqlər açıb.

İrəvanın sözü ilə əməli üst-üstə düşmür

Bütün müsbət irəliləyişlərə rəğmən, bölgədə sülhün kövrək qalmasının bir əsas səbəbi var. Bu da rəsmi İrəvanın bəyanatları ilə əməlləri arasındakı dərin təzadların olmasıdır. Paşinyan beynəlxalq kürsülərdən əməkdaşlıq və "inteqrasiya" ritorikası ilə çıxış etsə də, masa arxasında sülhün əsas şərtini yerinə yetirməkdən yayınır.

Sülh sazişinin yekun imzalanması üçün ən böyük hüquqi əngəl Ermənistan konstitusiyasının preambulasında Azərbaycana qarşı yer alan ərazi iddialarıdır. Bu iddialar əsas qanundan çıxarılmadığı müddətcə imzalanacaq hər hansı sənəd gələcək revanşizm risklərini və münaqişə potensialını saxlamış olur. Şifahi bəyanatlar beynəlxalq hüquqda heç bir öhdəlik yaratmır. Əgər bir dövlətin ana qanununda qonşusuna qarşı ərazi iddiası qalırsa, bu gün verilən bütün sülh vədləri sabah ləğv edilə bilər. Vaşinqton Zirvəsində müqavilənin imzalanmamasının kökündə də məhz bu hüquqi ziddiyyət dayanırdı.

İrəvanın səmimiyyətsizliyini göstərən daha bir fakta bir müddət əvvəl Paşinyanın konstitusiya dəyişikliyi ilə bağlı nümayiş etdirdiyi ziddiyyətli mövqe sayəsində də şahid olmuşduq. Əvvəllər yeni konstitusiyanın qəbulunu və Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasını 2026-cı ilin sonu - 2027-ci ilin əvvəli ilə əlaqələndirən Paşinyan, sonradan sülh sazişinin imzalanması və ratifikasiyası məsələsini 2031-ci ilədək uzatmaq niyyətində olduğunu bildirmişdi. Bu cəhd mahiyyətcə sülh prosesini qeyri-müəyyən müddətə dondurmaq taktikası idi. Artıq paraflanmış mətni olan sülh müqaviləsini daha 5 il ləngitmək istəyi İrəvanın real sülhə yox, zaman qazanmağa hesablandığını sübut etdi. Düzdür, İrəvan bu addımın əbəs olduğunu anlayıb geri çəkildi. Ancaq bu cür tərəddüdlər Ermənistanın səmimiyyətini və sülh gündəliyinə sadiqliyini ciddi şəkildə sual altına qoyur.

İrəvan anlamalıdır ki, vaxtı uzatmaq taktikası Bakının prinsipial mövqeyini sarsıda bilməz. Zaman Azərbaycanın xeyrinə, Ermənistanın isə ziyanına işləyir. Azərbaycan öz hərbi gücünü gündən-günə artırır və qlobal enerji-logistika xəritəsində əvəzolunmaz aktora çevrilir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən sürətli quruculuq işləri və Böyük qayıdış proqramı regionun iqtisadi potensialını dəfələrlə artırır. Onilliklər boyu yürütdüyü təcavüzkar siyasət ucbatından "dalan ölkə"yə çevrilən Ermənistan, sülhü yubatdığı hər gün regionun iri iqtisadi və enerji layihələrindən kənarda qalır və özünü yeni təcridə məhkum edir. Bakı resurs və sülh mühiti təklif etdiyi halda, İrəvanın vaxt uzatmaq taktikası yalnız Ermənistanın özünü dərin iqtisadi böhrana sürükləyir. Ermənistanın Baş nazirinin "Euronews" sammitindəki çıxışı və ifadə etdiyi fikirlər müsbət siqnal kimi qiymətləndirilə bilər, lakin siyasətdə əsas meyarlar sözlər deyil, konkret əməllərdir. Əgər rəsmi İrəvan Cənubi Qafqazda davamlı sülh və iqtisadi tərəqqi istəyində səmimidirsə, beynəlxalq ictimaiyyət qarşısında "sülhpərvər" imici yaratmaq yox, konstitusiya dəyişikliyini sürətləndirmək və nəhayət, yekun sülh sazişinə imza atmaq istiqamətində ciddi addımlar atmalıdır.

Bölgədə reallıqları və Bakının ədalətli şərtlərini süni yubatmalarla dəyişmək mümkün deyil. Qalib Azərbaycanın yaratdığı bu de-fakto sülh mühiti bütün region üçün, ilk növbədə isə Ermənistanın özü üçün unikal tarixi şansdır.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL



Vətən müharibəsi - Azərbaycanın qüdrət, birlik və Zəfər salnaməsi

Azərbaycanın minillərlə ölçülən tarixində xalqımızın milli iradəsini, mübarizə əzmini, Vətən sevgisini nümayiş etdirən çox mühüm hadisələr yaşanıb. 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsi də istisnasız olaraq tariximizin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun döyüş meydanında qazandığı Qələbə xalqımızın uzun illər gələcəyə bəslədiyi ümidlərin gerçəkləşməsi, milli qürurumuzun yüksəlişi, ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcı oldu.

Bu tarixi Zəfər Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Çünki cəmi 44 gün ərzində torpaqlarımız düşməndən azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, milli həmrəyliyin, dövlətə və orduya inamın, gənclərimizin vətənpərvərliyinin necə böyük gücə çevrilə biləcəyi bütün dünyaya göstərildi.

Ədalətin bərpası və yeni reallıqlar

Təxminən 30 il ərzində Azərbaycan torpaqlarının bir hissəsinin işğal altında qalması ölkəmizin qarşılaşdığı ən ağır problemlərdən biri idi. Bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün doğma yurdundan ayrı düşmüş, şəhər və kəndlərimiz böyük dağıntılara məruz qalmışdı. Münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında həlli istiqamətində uzun illər aparılan danışıqlar isə gözlənilən nəticəni verməmişdi. Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz çıxması barədə BMT-nin qəbul etdiyi 4 qətnaməyə də məhəl qoyan yox idi.

Uzun illər sülh prinsiplərinə sadiq qalan, münaqişənin heç bir tərəfdən itkilərə, yeni insan faciələrinə yol vermədən həllini tapması üçün danışıqları illər ərzində səbirlə davam etdirən, amma eyni zamanda ordu quruculuğunu, hərbi hazırlığı da qətiyyətlə davam etdirən Azərbaycan dövləti sülh danışıqlarının heç bir nəticə verməyəcəyinə tam əmin olandan sonra işğalçı ilə anladığı dildə danışmağa qərar verdi və təmas xəttində Ermənistanın törətdiyi növbəti təxribata cavab olaraq "dəmir yumruq" işə düşdü.

2020-ci il sentyabrın 27-də başlayan intensiv hərbi əməliyyatlar illərlə davam edən vəziyyəti kökündən dəyişdi. Azərbaycan Ordusu 44 gün ərzində ancaq irəli gedərək, ardıcıl zəfərlərlə Qarabağın, Şərqi Zəngəzurun şəhər və kəndlərini işğaldan azad etdi. Noyabrın 8-də Şuşanın azad olunması müharibənin taleyində həlledici rol oynadı. Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada üçrəngli bayrağımızın yenidən dalğalanması noyabrın 8-ni Zəfər günümüzə çevirdi.

Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla hərbi əməliyyatlar dayandırıldı, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılması razılaşdırıldı. Beləliklə, 44 günlük müharibənin nəticələri ölkəmizin ərazi bütövlüyünün bərpası yolunda həlledici mərhələ oldu.

Azərbaycanın Zəfəri yalnız ölkəmizin deyil, bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyi baxımından yeni reallıqlar yaratdı. Müharibənin nəticələri regionda uzun illər mövcud olmuş siyasi və hərbi vəziyyəti dəyişdirdi, nəqliyyat və kommunikasiya xətlərinin açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və dayanıqlı sülhün qurulması üçün yeni perspektivlər açdı. Azərbaycan üçün yeni dövrün əsas hədəfi hərbi sahədə əldə edilmiş nəticələrin siyasi, iqtisadi və sosial inkişafla möhkəmləndirilməsi, regionda sabitliyin və təhlükəsizliyin təmin olunması oldu.

Müasir hərb elminin Azərbaycan nümunəsi

44 günlük Vətən müharibəsi müasir hərb tarixində diqqətçəkən nümunələrdəndir. Azərbaycan Ordusunun döyüş əməliyyatlarını necə yüksək peşəkarlıqla planlaşdırması, müxtəlif qoşun növlərinin dəqiq koordinasiyası, müasir silah və texnologiyalardan səmərəli istifadə, Azərbaycanın döyüş əməliyyatlarını beynəlxalq konvensiyalara uyğun olaraq mülki əhaliyə heç bir ziyan vurmadan, yalnız legitim hərbi hədəflərə yönələrək həyata keçirməsi beynəlxalq hərbi mütəxəssislərdə böyük maraq doğurdu. Təsadüfi deyil ki, Azərbaycanın bu sahədə göstərdiyi təcrübə dünyanın aparıcı hərbi məktəblərində tədris nümunəsi kimi öyrənilməkdədir.

Pilotsuz uçuş aparatlarının, yüksəkdəqiqlikli silah sistemlərinin və çevik döyüş taktikasının tətbiqi Azərbaycan Ordusunun texnoloji imkanlarını nümayiş etdirdi. Qələbənin təmin edilməsində ən mühüm amillərdən biri isə hərbçilərimizin peşəkarlığı, çətin şəraitdə döyüşmək bacarığı, intizamı və yüksək mənəvi ruhu idi.

Döyüş meydanında göstərilən əzm, xüsusilə mürəkkəb relyefə malik ərazilərdə aparılan əməliyyatlar Azərbaycan hərbçilərinin hazırlıq səviyyəsini ortaya qoydu. Şuşanın azad olunması zamanı nümayiş etdirilən qəhrəmanlıq, döyüş bacarığı Azərbaycan oğullarının kəndirlə sıldırım qayalardan dırmanaraq yüngül silahlarla düşmənin tankının, topunun üzərinə atılması bunun ən parlaq nümunələrindən biri kimi tarixə düşdü.

44 günlük Vətən müharibəsinin ən unudulmaz tarixi nümunələrindən biri də Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi və siyasi liderliyi, diplomatik məharəti, beynəlxalq kommunikasiya bacarıqları idi. Dövlətimizin başçısı hərbi əməliyyatların davam etdiyi dövrdə, əməliyyatların strateji idarəçiliyi ilə yanaşı, diplomatik və informasiya müstəvisində də əsl ustad dərsi keçərək Azərbaycanın haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırır, düşməni informasiya müharibəsində də məğlub edirdi.

Müharibə ərzində BBC, "CNN International", "France 24", "Al Jazeera", "Euronews", "Sky News" və digər nüfuzlu beynəlxalq media qurumları da daxil olmaqla 30-dan çox xarici kütləvi informasiya vasitəsinə verdiyi müsahibələrdə cənab İlham Əliyev münaqişənin tarixi köklərini, Azərbaycanın ərazi bütövlüyü prinsipini və beynəlxalq hüquqa əsaslanan mövqeyini ardıcıl şəkildə izah etdi. Ali Baş Komandanın mürəkkəb və bəzən qərəzli suallar qarşısında nümayiş etdirdiyi təmkin, faktlara əsaslanan cavabları və qətiyyətli mövqeyi xalqımıza informasiya səngərində də parlaq qələbə qazandırdı.

Cənab İlham Əliyevin xalqa müntəzəm müraciətləri, azad edilmiş ərazilərlə bağlı verdiyi xəbərlər, hər qələbə müjdəsini şəxsən özünün çatdırması cəmiyyətdə ruh yüksəkliyinin, milli birliyin və Qələbəyə inamın möhkəmlənməsində mühüm rol oynadı. Azərbaycan bu zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, hərbi-siyasi liderlik qüdrəti, əsgər və zabitlərimizin döyüş ruhu, yüksək hazırlığı, həyata keçirilən düzgün strategiya, möhkəm iradə və xalqımızın sarsılmaz vəhdəti, həmrəyliyi ilə qazandı.

Milli birliyimizin gücü

Vətən müharibəsinin ən mühüm xüsusiyyətlərindən biri Azərbaycan cəmiyyətində yaşanan misilsiz milli birlik, həmrəylik, coşqu oldu. 44 gün ərzində Azərbaycan cəmiyyəti Zəfər amalı ilə yumruq kimi birləşdi. Cəbhədə misilsiz qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz döyüş ruhlarında bütöv bir xalqın birləşmiş gücünü hiss edirdilər və bu mənəvi duyğu onları hər gün yeni qələbələrə aparırdı. Müharibə günlərində Azərbaycan bayrağı milyonlarla insanı birləşdirən milli qürur və ümid simvolu idi. Küçələrdə, evlərdə, iş yerlərində, avtomobillərdə dalğalanan üçrəngli bayrağımız xalqımızın qələbəyə inamını ifadə edirdi. 44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, milli maraqlar ətrafında birləşən xalq ən çətin sınaqlardan belə böyük əzmlə çıxa bilir. Bu birlik ruhu Zəfərin mənəvi əsasını təşkil etməklə, gələcək nəsillərə ötürüləcək ən qiymətli dəyərlərimizdən birinə çevrildi.

44 günlük savaş Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunun, milli dəyərlərə bağlılığının və fədakarlığının da ən parlaq təzahürlərindən oldu. Müstəqillik dövründə yetişmiş gənclərimiz Vətənin müdafiəsi uğrunda böyük cəsarət və əzmkarlıq nümayiş etdirdilər. Həmin günlərdə gənclərimiz könüllü şəkildə döyüşə yollanmaq üçün hərbi səfərbərlik qurumlarının qarşısında böyük qələbəlik yaradırdılar. Ölkəmizin müxtəlif bölgələrindən minlərlə gənc ön cəbhədə döyüşərək torpaqlarımızın azadlığı uğrunda mübarizə aparırdı. Onları birləşdirən müqəddəs amal Vətənə sədaqət, doğma torpaqların azadlığı, xalqın milli qürurunun özünə qaytarılması idi.

Bu gənclər işğal illərinin ağrısını yalnız tarix kitablarından və böyüklərinin xatirələrindən öyrənməmiş, həm də Qarabağ həsrətini milli yaddaşlarının ayrılmaz hissəsi kimi yaşamışdılar. Döyüş meydanında göstərdikləri qəhrəmanlıq onların Vətən sevgisinin nə qədər dərin olduğunu təsdiqlədi. Bu gənclər Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin yetişdirdiyi gəncliyin təmsilçiləridir. Vətən müharibəsi göstərdi ki, Azərbaycan gəncliyi dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin, gələcək inkişafının etibarlı dayağıdır.

Zəfərdən dirçəlişə

44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyəti yalnız döyüş meydanında əldə edilən nəticələrlə məhdudlaşmır. Bu Zəfərin ən böyük dəyərlərindən biri də illərlə işğal altında qalmış torpaqlarımızın yenidən həyata qaytarılması, vandalcasına dağıdılmış şəhər və kəndlərimizin ən müasir formada bərpası, insanlarımızın doğma yurdlarına qovuşmasıdır. Azərbaycan müharibədən dərhal sonra heç kimdən yardım ummadan, öz imkanları hesabına genişmiqyaslı bərpa və quruculuq proqramlarına başladı. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr ölkəmizin iqtisadi gücünü, təşkilatçılıq imkanlarını və uzunmüddətli inkişaf baxışını nümayiş etdirdi. İşğaldan azad edilmiş ərazilərdə yolların, körpülərin, tunellərin, elektrik stansiyalarının, hava limanlarının, məktəblərin, xəstəxanaların və yaşayış komplekslərinin inşası geniş vüsət aldı.

Quruculuq işlərində müasir şəhərsalma yanaşmaları, rəqəmsal texnologiyalar, alternativ enerji mənbələri, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları əsas götürülür və işlər eyni prinsiplər əsasında uğurla davam edir. Bərpa prosesinin ən təsirli mənzərəsi isə keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasıdır. Onilliklər boyu ata-baba yurduna qovuşmaq arzusu ilə yaşayan ailələrin yenidən öz yurdlarına dönməsi Zəfərin insan taleləri üçün yaratdığı böyük dəyişikliklərdir. Qarabağda və Şərqi Zəngəzurda həyatın yenidən canlanması, məktəb zənglərinin səslənməsi, uşaqların doğma torpaqlarda böyüməsi Azərbaycanın gələcəyə inamının ifadəsidir. Bu gün yenidən qurularaq bərpaolunan Qarabağ və Şərqi Zəngəzur müasir Azərbaycanın inkişaf imkanlarının, iqtisadi potensialının, gələcək hədəflərinin də mühüm ünvanlarıdır.

Tarixdəki imza

44 günlük Vətən müharibəsi Azərbaycan tarixində yeni bir dövrün başlanğıcıdır. Bu müharibə və qazandığımız Zəfər xalqımızın milli özünüdərkini daha da gücləndirdi, dövlətçilik ənənələrinə bağlılığını möhkəmləndirdi və ölkəmizin öz gələcəyini müəyyənləşdirmək əzmini nümayiş etdirdi.

Bu tarixi hadisə eyni zamanda bizə sülhün, sabitliyin, təhlükəsizliyin, dayanıqlı inkşafın əhəmiyyətini daha dərindən anlamağı bir daha öyrətdi. Bu gün qarşıda duran başlıca vəzifə əldə olunmuş möhtəşəm nəticələri ardıcıl inkişafla daha da möhkəmləndirmək, azad edilmiş torpaqlarda firavan həyat qurmaq, regionda uzunmüddətli sülhün bərqərar olmasına töhfə verməkdir.

Azərbaycanın gələcək nəsilləri 44 günlük Vətən müharibəsini hər zaman qəhrəmanlıq, milli həmrəylik, vətənpərvərlik və məsuliyyət dərsi kimi öyrənəcəklər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qüdrəti, xalqımızın milli vəhdəti sayəsində Zəfər onlara Vətəni sevməyin, onun müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini qorumağın, inkişafına töhfə verməyin nə qədər böyük şərəf olduğunu daim xatırladacaq.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tarixə həkk etdiyi parlaq imzadır, keçmişimizin qürur səhifəsi, gələcəyimizi qurmaq üçün böyük mənəvi güc mənbəyimizdir.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Milli birliyin və qəhrəmanlığın rəmzinə çevrilmiş Zəfər

Hər bir xalqın tarixində elə hadisələr var ki, onların əhəmiyyətini yalnız nəticələrlə ölçmək mümkün deyil. Belə hadisələr milli yaddaşın ayrılmaz hissəsinə, mənəvi gücün, nəsillərin varisliyinin və ölkənin gələcəyinə sarsılmaz inamın rəmzinə çevrilir. Azərbaycan xalqı üçün belə əlamətdar hadisə 2020-ci il Vətən müharibəsində qazanılmış Zəfərdir.



Təxminən üç onillik ərzində Qarabağ problemi Azərbaycanın ən ağrılı problemlərindən biri olaraq qalırdı. Ərazilərimizin işğalı, yaşayış məntəqələrinin dağıdılması, tarixi və mədəni abidələrin itirilməsi, yüz minlərlə vətəndaşın doğma yurdlarından məcburi köçkün düşməsi xalqın taleyində dərin iz buraxmışdı. Milyonlarla insan əcdadlarının yaşadığı torpaqlarda yaşamaq, doğma şəhər və kəndlərini ziyarət etmək, öz həyat tərzini qoruyub saxlamaq imkanından məhrum olmuşdu. Lakin ən çətin illərdə belə, Azərbaycan xalqı tarixi ədalətin bərpasına olan ümidini itirməmişdir. Qarabağ yaddaşı ailələrdə, incəsənət əsərlərində, ədəbiyyatda, musiqidə və ictimai şüurda yaşamaqda davam etmişdir. Bu yaddaş nəsildən-nəslə ötürülərək milli kimliyin ayrılmaz hissəsinə çevrilmişdir.

Həmin dövrdə Azərbaycan dövlətçiliyini, iqtisadi potensialını, müdafiə qabiliyyətini və beynəlxalq mövqelərini ardıcıl şəkildə möhkəmləndirirdi. Silahlı Qüvvələrin modernləşdirilməsinə, hərbi infrastrukturun inkişafına və hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilirdi.

27 sentyabr 2020-ci il ölkəmizin müasir tarixinə dönüş nöqtəsi kimi düşdü. Həmin gün başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu yüksək peşəkarlıq, təşkilatlanma, döyüş hazırlığı və fədakarlıq nümayiş etdirdi. Ərazilərimizin işğaldan azad edilməsi qarşıya qoyulmuş tarixi məqsədə çatmaq yolunda mühüm mərhələ idi. Zəfər salnaməsində 8 noyabr 2020-ci il - Şuşanın azad edildiyi gün xüsusi yer tutur. Şəhərin azad edilməsi Vətən müharibəsinin həlledici hadisələrindən biri idi. Məhz buna görə də 8 noyabr bütün Azərbaycan xalqı üçün xüsusi məna kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 dekabr 2020-ci il tarixli sərəncamı ilə həmin gün rəsmi olaraq Zəfər Günü elan edilmişdir.

Zəfərin baş qəhrəmanları hərbi vəzifələrini müstəsna dözümlülük və sədaqətlə yerinə yetirən azərbaycanlı hərbi qulluqçular - əsgər və zabitlərdir. Onların bir çoxu Vətən naminə ən qiymətli varlığını - öz həyatını fəda etmişdir. Ağır sınaqlardan keçərək hərbi andına sadiq qalmış Vətən müharibəsi veteranları da xüsusi hörmətə layiqdirlər. Veteranlara qayğı göstərilməsi, onların qəhrəmanlığına ehtiramla yanaşılması və şəhid ailələrinin dəstəklənməsi cəmiyyətin daimi mənəvi borcu olaraq qalmalıdır.

Vətən müharibəsi dövründə qəhrəmanlıqdan və milli birlikdən danışarkən Azərbaycan qadınlarının xüsusi rolunu diqqətdən kənarda qoymaq olmaz. Zəfər tariximiz yalnız ölkənin ərazi bütövlüyünü bilavasitə müdafiə edən kişilər tərəfindən deyil, həm də dərin vətənpərvərlik, vətəndaş məsuliyyəti və öz dövlətinin müdafiəsinə qalxmaq əzmi nümayiş etdirən qadınlar tərəfindən yazılmışdır. Bu, ərəfədə bir çox qadın Azərbaycan Silahlı Qüvvələrinin sıralarına könüllü daxil olmaq və Vətənin müdafiəsində iştirak etmək arzusunu ifadə etmişdir. Onların arasında mən də var idim.

Azərbaycan qadınlarının dövlətin müdafiəsində iştirak etmək arzusu rəsmi səviyyədə də öz təsdiqini tapmışdır. 2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmət Çağırış üzrə Dövlət Xidmətinin rəhbəri hərbi xidmətə könüllü qoşulmaqla bağlı müraciət edən vətəndaşlar arasında qadınların da olduğunu bildirmişdir. Bu fakt vətənpərvərlik ruhunun cəmiyyətin müxtəlif təbəqələrini əhatə etdiyini göstərir. Qadınlar dövlətin taleyi qarşısında məsuliyyəti bölüşməyə, milli maraqlara sədaqətlərini nümayiş etdirməyə və ümumi işə öz töhfələrini verməyə hazır idilər.

Xanımlarımızın vətənpərvərliyi müxtəlif formalarda təzahür edirdi - hərbi xidmətə könüllü daxil olmaq istəyində, Silahlı Qüvvələrə dəstək göstərilməsində, humanitar yardımlarda, ictimai təşəbbüslərdə iştirakda və hərbi qulluqçuların ailələrinə qayğı göstərilməsində. Həmin dövrdə oğullarını Vətənin müdafiəsinə yola salan analar, həyat yoldaşlarına mənəvi dəstək olan xanımlar, yaxınlarının taleyindən narahatlıq keçirən, Zəfərə inamını qoruyub saxlayan qızlarımızı unutmaqmı olar?! Bu müharibədə doğmalarını itirmiş qadınları da yaddan çıxarmaq olmaz. Onların ağrısı milli yaddaşımızın bir hissəsinə çevrilmişdir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun bərpası genişmiqyaslı dövlət layihəsidir. Avtomobil yollarının, hava limanlarının, yaşayış komplekslərinin, təhsil və tibb müəssisələrinin tikintisi, energetika, nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı azadlıq mərhələsindən quruculuq mərhələsinə keçidin göstəricisidir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutan Böyük qayıdış proqramının həyata keçirilməsi, o cümlədən insanların doğma şəhər və kəndlərinə qayıtması yalnız mənzil və sosial şəraitin bərpası deyil, həm də nəsillərin öz torpaqları ilə tarixi bağlılığının yenidən canlandırılmasıdır.

Bu gün milli maraqların müdafiəsi yalnız hərbi və siyasi istiqamətlərdə həyata keçirilmir. Elm, təhsil, sənaye, energetika, informasiya texnologiyaları və beynəlxalq əməkdaşlıq sahələrində əldə olunan nailiyyətlər də eyni dərəcədə mühüm əhəmiyyət daşıyır. Hər bir alim, mühəndis, pedaqoq, həkim, hərbi qulluqçu və gənc nəslin nümayəndəsi dövlətin möhkəmlənməsinə öz töhfəsini verməlidir. Tarixi Zəfərin quruculuq mahiyyəti də məhz bundadır - o, cəmiyyət qarşısında yeni imkanlar açmaqla yanaşı, yeni məsuliyyət də yaradır. Gələcək nəsillər yalnız öz sələflərinin nailiyyətləri ilə fəxr etməməli, həm də müstəqilliyin, sülhün və dövlət suverenliyinin qorunmasının daimi əmək, bilik, peşəkarlıq və vətəndaş yetkinliyi tələb etdiyini dərk etməlidirlər. Çünki bu gün Azərbaycan qarşısında suverenliyin möhkəmləndirilməsi, sülhün qorunması, iqtisadiyyatın, elmin və təhsilin inkişafı, ölkənin beynəlxalq nüfuzunun artırılması ilə bağlı yeni vəzifələr dayanır.

Natalya FATYANOVA,
texnika elmləri üzrə
fəlsəfə doktoru

Zəfər tariximiz - qürur salnaməmiz



Nəriman Nərimanovun Xatirə Muzeyi və Həbib bəy Mahmudbəyov adına 2 nömrəli Texniki-Humanitar Liseyin birgə təşkilatçılığı ilə "Zəfər tariximiz - qürur salnaməmiz" adlı tədbir keçirilib.

Nəriman Nərimanovun Xatirə Muzeyindən aldığımız məlumata görə, tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbiri liseyin direktoru Elvin Aslanlı açaraq Vətən müharibəsində Azərbaycan xalqının nümayiş etdirdiyi birlik və həmrəylikdən, Azərbaycan Ordusunun qəhrəmanlığından, tarixi zəfərimizin əhəmiyyətindən və qazanılmış qələbənin gələcək nəsillər üçün daşıdığı mənəvi dəyərdən bəhs edib. Daha sonra Nəriman Nərimanovun Xatirə Muzeyinin direktoru Ləman Hüseynova Zəfər tariximizin milli yaddaşımızda tutduğu yerdən, gənc nəslin vətənpərvərlik ruhundan və tarixi qələbəmizin gələcək nəsillərə çatdırılmasının önəmindən danışıb.

Tədbirdə mədəniyyət işçiləri, liseyin müəllim və şagird kollektivi, Bakı Hərbi Kollecinin zabit heyəti və kursantları, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin, eləcə də 226 nömrəli tam orta məktəbin şagirdləri iştirak ediblər.

Zəfər tariximiz - qürur salnaməmiz" adlı tədbir çərçivəsində vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, musiqi nömrələri və ədəbi-bədii kompozisiyalar təqdim edilib.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Ot kökü üstə bitər

Şəhid Nurlan Zeynalov Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş atasının döyüş yolunu zəfərlə başa vurdu

İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan zabit Nurlan Zeynalovun bir zamanlar yaşadığı ünvana gedirik. Bir az həyəcanlı və kədərli olduğumuz üçün ünvanı tapmaqda çətinlik çəkirik. Şəhid atası Rəfail Zeynalovla telefonla əlaqə saxlayırıq. O, istiqamət verə-verə bizi yolun kənarında qarşılayır.



Şəhid atası ilə görüşüb, evlərinə tərəf addımladıq. Binalarına çatmağa az qalmış həyətdə "Şəhid bulağı" gördük. Rəfail Zeynalov dedi ki, bulaq Nurlanın xatirəsinə bina sakinlərinin vəsaiti hesabına düzəldilib: "Oğlum çox səmimi və qayğıkeş idi. Hamıya bacardığı qədər qayğı göstərərdi. Böyüklə böyük, kiçiklə kiçik idi. Şəhid olması onu tanıyanların hamısını kədərləndirdi".

Şəhid atası sözünü bitirəndən sonra "Şəhid bulağı"ndan su içib mənzillərinə qalxdıq. Dəhlizdə, otaqlarda, hətta evdəki əşyalarda da qəribə bir kövrəklik hiss olunur. Valideynləri otaqların birində Nurlana guşə düzəldiblər. Onlar bununla təskinlik tapırlar. Guşəyə Nurlanın müxtəlif illərdə çəkdirdiyi şəkillər qoyulub. Onlara baxdıqdan sonra Nurlanın ömür və qəhrəmanlıqla dolu döyüş yolu ilə tanış olduq.

Rəfail Zeynalov Birinci Qarabağ müharibəsinin iştirakçısı, müharibə veteranıdır. Deməli, Nurlan atasının yarımçıq qalmış döyüş yolunu davam etdirib. Rəfail Zeynalov Qarabağ hadisələrinin ən qaynar vaxtlarında Xankəndidə olub. Həmin günləri xatırlayan şəhid atası dedi ki, 1988-ci il fevralın 24-də erməni separatçıları Xankəndidə mitinq keçirib Qarabağın Ermənistana birləşdirilməsini tələb edəndə bizi hadisələrin qarşısını almağa göndərdilər: "Həmin günlər Qarabağda vəziyyət gərgin idi. Sonradan bu mitinqlər qanlı döyüşlərə gətirib çıxardı. Ağdam, Cəbrayıl və Füzuli rayonlarının müdafiəsində iştirak etdim. Təəssüflər olsun ki, ermənilər bu əraziləri işğal etdilər. Birinci Qarabağ müharibəsindən 28 il sonra torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başladı. Oğlum Nurlan ehtiyatda olan zabit kimi müharibəyə yollandı. Qarabağın erməni işğalçılarından azad olunmasında qəhrəmanlıq göstərdi. 2020-ci il noyabrın 9-da Xocavənd uğrunda gedən döyüşlərdə şəhid oldu. Ertəsi gün isə döyüşlər dayandırıldı, silahlar susdu".

Nurlan Zeynalov 25 noyabr 1989-cu ildə Sabirabad rayonunda dünyaya göz açıb. Orta məktəbi bitirəndən sonra ali təhsil almaq üçün Bakıya üz tutub. Azərbaycan Memarlıq və İnşaat Universitetinə qəbul olub və 2011-ci ildə ali təhsilini bitirib. Gələcək həyat önündə geniş açılsa da, qarşıda onu hərbi xidmət gözləyirdi. 2011-ci ilin oktyabrında Nurlan ordu sıralarına yollanıb. Bir müddətdən sonra öz arzusu ilə ehtiyat zabit hazırlıq kursuna göndərilib. O, zabit olmaq, çiyinlərində doğma ordumuzun paqonlarını gəzdirmək istəyirdi.

2013-cü ildə ordu sıralarından leytenant kimi ehtiyata buraxılan Nurlan 2014-cü ildə Sabirabad regional "ASAN xidmət" mərkəzində işə düzəlib. Elə sevgisi, məhəbbəti də burada qarşısına çıxır. İş yerində Kübra adlı xanımla tanış olur və 2018-ci ildə onunla ailə həyatı qurur. Təcrübəsini nəzərə alaraq Nurlan Zeynalovu 2019-cu ilin iyununda atasının çalışdığı Müdafiə Sənayesi Nazirliyinin (indiki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi) Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutunda kadrlar şöbəsinin rəisi kimi işə götürüblər.

2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsi başlayanda Nurlan şəxsi işlərini kənara qoyaraq ehtiyatda olan zabit kimi cəbhəyə yollanır. Gənc zabitin döyüş yolu Murovdağdan başlayır. Bir müddətdən sonra onları Füzuliyə aparırlar. Həmin günlər bu istiqamətdə gərgin döyüşlər gedirdi. Düşmən geri çəkilmək istəmirdi. Ordu hissələrimiz isə hücumlarına ara vermir, daim irəli can atırdı. Nurlan əsgərlərini ardınca döyüşlərə aparır, komandanlığın əmr və tapşırıqlarını bacarıqla yerinə yetirirdi. Füzuli erməni işğalçılarından azad olunandan sonra Nurlan Zeynalovun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti Xocavənd istiqamətinə göndərilir.



Noyabrın 8-də Nurlan Qarabağın tacı olan Şuşanın azad olunduğunu eşidəndə sanki dünyanı ona verirlər. Ertəsi gün yenə də Xocavənd uğrunda döyüşlərə atılır. Amma o, səhər ertədən başladığı döyüşü sona çatdıra bilmir. Həmin gün həm döyüş, həm də ömür yolu yarımçıq qalır. Erməni nişançının hədəfinə tuş gəlir.

Nurlan Zeynalov həyatda 31 il ömür sürdü. Amma ləyaqətlə yaşadı, özündən sonra şərəfli bir iz qoydu.

Sabirabadın Şəhidlər xiyabanında torpağa tapşırılan Nurlan ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "İgidliyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görüldü.

Atası Rəfail Zeynalov deyir ki, Nurlan hərəkətlərinə, sözlərinə ciddi fikir verirdi: "Onun dilindən heç vaxt artıq söz çıxmazdı. Sirrini kimsəyə verməzdi, bir az qapalı idi. Həmişə özündən böyüklərlə yoldaşlıq edərdi. Lazım gələndə dost-tanışlarına ağıllı məsləhətlər verərdi. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adı dilindən düşmürdü. Şəhid olduğunu eşidəndə elə bil dünya başıma uçdu. Oğul itirmək çox ağır dərddir. 2019-cu ilin avqustunda qızı dünyaya gəlmişdi. Onun adını özününkünə yaraşdırıb Nuray qoymuşdu. Nuray ondan bizə qalan yadigardır".

Şəhid anası Məleykə xanım oğlu haqqında danışdıqca göz yaşlarının saxlaya bilmir. Deyir ki, Nurlan döyüşlərə yola düşəndən sonra rahat günlərimizə son qoyuldu: "Oğlum arada zəng vurub danışırdı. Bir dəfə zəng edəndə güllə səsləri eşitdim. Soruşdum ki, ay Nurlan, deyirsən döyüşlərdə deyilsən, bəs o güllə səsləri nədir? Yenə də "təlimdəyik", - dedi. Noyabrın 9-da qapımızı oğlumun ölüm xəbəri döydü. Dünya gözümdə qaranlığa büründü. Ölüm xəbərini bizə çatdıranlardan soruşdum ki, Nurlan necə şəhid oldu, axı o, döyüşə getməmişdi, əsgərlərə təlim keçirdi. Məlum oldu ki, oğlum elə cəbhə bölgəsinə gedən gündən döyüşürmüş".

Rəfail Zeynalovun işlədiyi "Azərsilah"da da şəhidlərin xatirəsi əziz tutulur. Vətən müharibəsində bu təşkilatın 3 əməkdaşı şəhid olub. Onların şərəfinə holdinqin həyətində abidə qoyulub. Bundan əlavə, "Tarix yazan qəhrəmanlar" adlı kitab nəşr olunub. Kitabda şəhidlərin keçdiyi ömür və döyüş yolları ətraflı işıqlandırılıb. Nurlanın bir ildən çox çalışdığı Milli Aerokosmik Agentliyinin həyətində onun və Birinci Qarabağ müharibəsi şəhidlərinin şərəfinə bulaq tikilib.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Bir ömrün əbədiyyətə çevrildiyi gün

Basqalın qədim küçələrində, dağların qoynunda, zəhmətkeş insanların ocağında bir ailənin sevinci olan balaca bir oğlan böyüyürdü. Onun gələcəyinə dair qurulan arzuların, ata-anasının ürəyində yaşatdığı ümidlərin bir gün Vətənin taleyi ilə qovuşacağını, adının doğulduğu elin sərhədlərini aşaraq Azərbaycanın şəhidlik yaddaşına yazılacağını heç kim ağlından belə keçirmirdi. Məhəmməd Xəlillinin taleyi belə yazıldı. O, ailəsinin sevimli övladı kimi başladığı həyat yolunu Vətən uğrunda canından keçən əsgər kimi başa vurdu.

Məhəmmədin uşaqlıq illəri onun xarakterinin formalaşdığı, gələcək həyat yolunun ilk cizgilərinin çəkildiyi dövr idi. Biləcəri qəsəbəsindəki 299 nömrəli orta məktəbdə təhsil aldığı illərdə müəllimlərinin və sinif yoldaşlarının yaddaşında savadlı, intizamlı, tərbiyəli və zəhmətkeş bir gənc kimi qaldı. Ailənin bir oğul övladı kimi valideynlərinin qayğısını, sevincini, ümidlərini özündə birləşdirirdi. Onun üçün ailə müqəddəs idi. Valideynlərinə bağlılığı, doğmalarına diqqəti, məsuliyyət hissi yaşından böyük düşüncəyə malik olduğunu göstərirdi. Hələ gənc yaşlarından həyatın təkcə şəxsi arzular ətrafında qurulmadığını anlayırdı. Vətənin taleyi, torpaqlarımızın gələcəyi onun düşüncələrində xüsusi yer tuturdu.

Qarabağın Azərbaycan üçün tarixin, milli yaddaşın və mənəvi bütövlüyün ayrılmaz parçası olduğunu dərk edirdi. Doğmalarına tez-tez söylədiyi bir fikir onun dünyagörüşünü ifadə edirdi - torpaqlarımızın işğalı ilə heç vaxt barışmaq olmaz. 2023-cü ilin sentyabrında Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror əməliyyatları zamanı Məhəmməd də Vətənin müdafiəsi uğrunda döyüşən əsgərlər sırasında idi. Cəmi 23 saat davam edən əməliyyat Azərbaycan Ordusunun qüdrətini, hərbçilərimizin peşəkarlığını və qətiyyətini bütün dünyaya nümayiş etdirdi. Bu tarixi hadisənin iştirakçılarından olan Məhəmməd döyüş meydanında əsgər andına sadiq qaldı. O, 19 sentyabr 2023-cü ildə qəhrəmancasına şəhid oldu. Gənclik çağında bitən ömrü ilə Vətən qarşısında ən böyük vəzifəsini yerinə yetirdi.

Bu xəbərin bir ailənin qapısını necə döydüyünü təsəvvür etmək belə ağırdır. Övlad böyütmək, onun gələcəyini düşünmək, arzularını addım-addım gerçəkləşdirmək hər bir ata və ananın ən böyük istəyidir. Xoşqədəm ananın illərlə bəslədiyi ümidlər, atası İlqarın oğlunun gələcəyi ilə bağlı arzuları bir gün üçrəngli bayrağa bükülmüş tabutun qarşısında dayanmalı oldu. Lakin bu ailənin kədəri ilə yanaşı, qüruru da var, çünki Vətən uğrunda canından keçən bir oğulun valideynləridir.

Şəhidlik bir insanın həyatının sonu deyil, eyni zamanda Vətən qarşısındakı sədaqətinin əbədiyyətə qovuşması kimi dərk olunur. Məhəmmədin də ömrü bu həqiqətin nümunəsidir. O, gələcək üçün arzular qura, ailəsinin yanında ola, həyatın gözəlliklərini yaşaya bilərdi. Vətənin taleyinin həll olunduğu məqamda öz vəzifəsini hər şeydən üstün tutdu. Bu seçim onun adını gənc yaşında tarixə yazdı.



Bu gün Basqalın qoynunda dünyaya göz açmış həmin gəncin adı ehtiramla çəkilir. Onun doğulduğu torpağın hər daşı, böyüdüyü ailənin xatirələri, təhsil aldığı məktəbin hər guşəsi bu ömrün bir parçasını yaşadır. Məhəmmədin valideynləri üçün onun yoxluğu heç nə ilə əvəz edilə bilməyən ağrıdır. Xalq üçün isə belə oğulların fədakarlığı müstəqilliyimizin, ərazi bütövlüyümüzün və milli qürurumuzun hansı bədəllər bahasına qorunduğunu xatırladan müqəddəs bir əmanətdir. İllər ötəcək, nəsillər dəyişəcək, sentyabrın 17-si onun doğum günü, sentyabrın 19-u isə şəhidlik tarixi kimi yenidən xatırlanacaq. Bu iki tarix arasındakı ömür təkcə təqvimdə qalan rəqəmlərdən ibarət olmayacaq. Bəzi insanlar dünyadan köçəndən sonra da yaşamağa davam edirlər. Onlar xatirələrdə, dualarda, dalğalanan bayraqda, azad torpaqlarda və gələcək nəsillərin qəlbində yaşayırlar. Məhəmməd Xəlilli də Vətənə sədaqəti ilə öz ömrünü əbədiyyətə çevirən həmin igidlərdəndir.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Zəfər Günü Gürcüstanda silsilə tədbirlərlə qeyd olunacaq

Azərbaycanın Zəfər Günü qonşu Gürcüstanda da silsilə tədbirlərlə qeyd olunacaq.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Gürcüstandakı səfirliyinin hazırladığı tədbirlər planına uyğun paytaxt Tbilisidə, eləcə də regionlarda Zəfər Gününə həsr olunmuş teatr tamaşaları, "dəyirmi masa", konfrans və seminarlar təşkil ediləcək.

Tədbirlər planına uyğun olaraq ilk tədbir noyabrın 6-da keçiriləcək. Tbilisidə səfirliyin təşəbbüsü və AZEB-nin dəstəyi ilə "Era Tatrı" tərəfindən hazırlanmış "Koordinat 44" adlı tamaşa nümayiş etdiriləcək.

Dekabrın 7-də isə Marneulidəki Azərbaycan Evi və Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşkilatçılığı ilə "Zəfərdən Doğan Qürur" adlı iki hissədən ibarət tənlənəli tədbir keçiriləcək.



Bundan başqa, yenə də paytaxt Tbilisidə, Bolnisi, Qardabani, Marneuli və digər bölgələrdəki Azərbaycan icma mərkəzlərində Zəfər Gününə həsr edilmiş tədbirlər təşkil olunacaq.

Zəfər Günü münasibətilə virtual sərgi və elektron məlumat bazası hazırlanıb

Milli Kitabxanada 8 Noyabr - Zəfər Günü münasibətilə "8 Noyabr - Zəfər Günü" adlı virtual sərgi və eyniadlı elektron məlumat bazası hazırlanaraq istifadəçilərə təqdim olunub.



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbəyə, Azərbaycan Ordusunun qəhrəmanlığına, şəhidlərimizin və qazilərimizin şücaətinə, işğaldan azad olunmuş torpaqlarımızın tarixinə, mədəniyyətinə və zəngin irsinə həsr olunmuş Azərbaycan və xarici dillərdə nəşrlər nümayiş edilib. "8 Noyabr - Zəfər Günü" adlı elektron məlumat bazasında isə tarixi Qələbəmizə dair kitablar, dövri mətbuat materialları, məqalələr və digər informasiya resursları sistemləşdirilərək istifadəçilərin ixtiyarına verilib. Elektron məlumat bazası mövzu ilə bağlı araşdırma aparan tədqiqatçılar, alimlər, tələbələr və geniş oxucu auditoriyası üçün əhəmiyyətli informasiya mənbəyidir.

Virtual sərgi və elektron məlumat bazasının hazırlanmasında əsas məqsəd 8 Noyabr - Zəfər Gününün tarixi əhəmiyyətini təbliğ etmək, xalqımızın şanlı Qələbəsini əks etdirən nəşrləri və informasiya resurslarını geniş ictimaiyyətə çatdırmaq, milli yaddaşımızı yaşatmaq və gələcək nəsillərə ötürməkdir.

ZƏFƏR gündəliyi

6 noyabr 2020-ci il

Erməni hərbçiləri bir-birini güllələyib

Noyabrın 6-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları müxtəlif intensivliklə, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Tərtər və Goranboy atəşə tutulub

Saat 08:00-dan başlayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Qazyan və Hüsənli kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülüb. Gecə ərzində Goranboy rayonunun Tapqaraqoyunlu kəndi də düşmən tərəfindən artilleriya atəşinə tutulub.

Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi məhv edilib

Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində brifinq keçirilib. Qeyd edilib ki, əsasən, cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib.

Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki KamAz maşını və qoşqusunda top olan üç Ural maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Qubadlı-Laçın istiqamətində erməni silahlıları mövqelərini ataraq qaçıblar

Düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən onun yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş



sursatı və yanacaq çatışmır. Düşmən bölmələrinin idarə olunmasında problemlər yaranıb.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən erməni silahlıları mövqelərini ataraq qaçıblar.

.

Füzulinin azad olunan kəndlərinin videogörüntüləri yayılıb

Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb. Görüntülərdə erməni vandalizminin izləri aydın şəkildə görünüb.

Ağdərədə düşmənə məxsus "D-30" haubitsa topu sıradan çıxarılıb

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan "D-30" haubitsası heyəti ilə birgə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

Düşmənin döyüş sursatları, yanacaq-sürtkü materialları tükənib

Ağdərədə yerləşən Ermənistan silahlı qüvvələri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının bölmələrinin təminatında ciddi problemlər yaranıb. Belə ki, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatları, yanacaq-sürtkü materialları çatışmır.

Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldurmaq imkanına malik deyil.

Bundan əlavə, qeyd olunan hərbi hissələrlə komandanlıq arasında rabitə əlaqəsi kəsilib və bölmələrin idarə olunmasında problemlər yaranıb. Bəzi yerlərdə isə hərbçilər döyüşməkdən imtina ediblər. Onların qarşısını almaq istəyərkən bir-birilərini güllələməyə başlayıblar.

"Azərbaycan"






Gənclik






Azərbaycan gəncliyi - bu günün gücü, sabahın məsuliyyəti



Gənclik cəmiyyətin yeniləşən qüvvəsi, tərəqqinin hərəkətverici amili, sabaha olan ümidi və inamıdır. Bu gün yetişən nəsil sabah ölkəmizin elmini, iqtisadiyyatını, mədəniyyətini və ictimai həyatını müəyyənləşdirəcək. Azərbaycan gəncliyinin bugünkü inkişafı, mütərəqqi dünyagörüşü, milli-mənəvi dəyərlərə bağlılığı və ictimai həyatda iştirakı olduqca əhəmiyyətlidir.

Müasir Azərbaycan gəncliyi böyük imkanlar və yeni çağırışlarla üzüzədir. Onun qarşısında geniş imkanlar açıldığı kimi, ciddi sınaqlar da dayanır. Elm və texnologiyanın sürətlə inkişaf və rəqəmsal dünyanın həyatımıza dərindən nüfuz etdiyi bir dövrdə gənclərdən geniş dünyagörüşü, dərin düşüncə, təşəbbüskarlıq və daim öyrənmək bacarığı tələb olunur. Uğur qazanmaq üçün yalnız bilik əldə etmək kifayət etmir. Qazanılan bilikləri əməli fəaliyyətə çevirmək, qarşıya məqsəd qoymaq, zəhmətdən çəkinməmək və cəmiyyət qarşısında məsuliyyət daşımaq da vacibdir.

Sevindirici haldır ki, Azərbaycan gəncliyi tarixinə, milli köklərinə bağlılığı, ana dilinə, mədəniyyətinə ehtiramı ilə seçilir. Eyni zamanda müasir dünyanın yeniliklərinə həssaslıqla yanaşır, fəallıq göstərir. Günümüzün reallıqları belə nəticəyə gəlməyə əsas verir ki, öz xalqının mənəvi irsini tanıyan, tarixindən nəticə çıxaran və gələcəyə inamla baxan Azərbaycan gəncləri ölkəmizi beynəlxalq aləmdə də layiqincə təmsil etməyi bacarır.

Gəncliyin hərtərəfli inkişafında təhsilin rolu əvəzsizdir. Keyfiyyətli təhsil insanın dünyagörüşünü genişləndirir, müstəqil düşünmə qabiliyyətini formalaşdırır və gələcək peşəsini düzgün seçməsinə möhkəm zəmin yaradır. Gənclərin müasir biliklərə yiyələnməsi, xarici dilləri öyrənməsi, rəqəmsal bacarıqlarını inkişaf etdirməsi və elmi axtarışlara maraq göstərməsi ölkəmizin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, təhsil yalnız peşə qazanmaq vasitəsi deyil, həm də şəxsiyyətin formalaşması prosesidir. Bilikli olmaqla bərabər, dürüst, vicdanlı, ədalətli, zəhmətsevər və başqalarına hörmətlə yanaşan insan olmaq da vacibdir. Gənclərin mənəvi tərbiyəsi, vətəndaşlıq mövqeyinin formalaşması və ictimai məsuliyyət hissinin güclənməsi ailənin, təhsil müəssisələrinin və bütövlükdə cəmiyyətin birgə səylərini tələb edir.

Təqdirəlayiqdir ki, Azərbaycanda gənclərin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. 2002-ci il aprelin 9-da qəbul edilmiş "Gənclər siyasəti haqqında" qanun gənclərin hərtərəfli inkişafı və cəmiyyətin həyatında fəal iştirakı üçün hüquqi əsaslar müəyyənləşdirib. Sonrakı illərdə qəbul edilmiş dövlət proqramları və strategiyalar da gənclərin potensialının üzə çıxarılması, onların müxtəlif sahələrdə inkişafı və ictimai fəallığının artırılması məqsədlərinə xidmət edib.

Dövlət qayğısı gənclərin keyfiyyətli təhsil alması, peşə bacarıqlarına yiyələnməsi, məşğulluq imkanlarından faydalanması, idman və yaradıcılıqla məşğul olması, könüllülük fəaliyyətində iştirakına geniş imkanlar yaradır. Gənclərin təşəbbüslərinin dəstəklənməsi, istedadlarının üzə çıxarılması və ictimai layihələrə cəlb edilməsi bu qayğının bariz nümunələrindəndir.

Gənclər ölkənin gələcəyini müəyyənləşdirən nəsil olmaqla yanaşı, bu günün elmi, iqtisadi, mədəni və ictimai həyatında iştirak edən fəal qüvvədir. Gənclər üçün yaradılan imkanlar onların şəxsi təşəbbüsü, zəhməti və məsuliyyəti ilə tamamlandıqda daha səmərəli nəticələr əldə olunur.

Vətənpərvərlik Azərbaycan gəncliyinin mənəvi dəyərlərindən biridir. Vətənə sevgi yalnız böyük hadisələrdə deyil, gündəlik həyatda, sadə, ancaq əhəmiyyətli əməllərdə də özünü göstərir. Öz işini vicdanla görmək, qanunlara hörmət etmək, ictimai əmlakı qorumaq, ətraf mühitə qayğı göstərmək, ehtiyacı olan insanlara köməyini əsirgəməmək, ölkənin inkişafına töhfə vermək vətəndaş məsuliyyətinin ifadəsidir.

Bu gün elm və texnologiya sahəsində çalışan, təhsil alan, işləyən, yeni təşəbbüslər irəli sürən, idman və mədəniyyət sahələrində uğur qazanan gənclər ölkəmizin inkişafına müxtəlif istiqamətlərdə töhfələr verirlər. Onların əldə etdikləri nailiyyətlər şəxsi uğur olmaqla yanaşı, həm də digər gənclər üçün stimul və nümunədir. Bu təşəbbüslərin dəstəklənməsi, yaradıcılıq imkanlarının genişləndirilməsi və zəhmətin qiymətləndirilməsi cəmiyyətin ümumi inkişafına xidmət edir.

Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunda yetişməsində idmanın, o cümlədən paralimpiya hərəkatının mühüm rolu var. Bu il Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin yaradılmasının 30 illiyinin qeyd olunması ölkəmizdə idmanın inkişafına, iradə və əzmkarlıq nümunəsi göstərən idmançılarımıza verilən dəyərin ifadəsidir. Oktyabrın 16-da yubileyə həsr olunmuş qala gecəsi keçirildi. Tədbirdə Prezident İlham Əliyevin Milli Paralimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibətilə komitənin kollektivinə və paralimpiyaçılara müraciəti oxundu.

Müraciətdə dövlətimizin başçısı paralimpiya hərəkatının iştirakçılarını Azərbaycan Milli Paralimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibətilə təbrik edib. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin fevral ayında Milli Paralimpiya Komitəsi təsis edilməklə, ölkəmizdə paralimpiya hərəkatının sistemli inkişafı üçün zəmin yaradıldığını vurğulayıb: "Azərbaycanda idmanın və sağlam həyat tərzinin təşviq edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Əlilliyi olan insanların sosial müdafiəsinin gücləndirilməsi və idman infrastrukturunun davamlı inkişafı paralimpiyaçılarımızın nailiyyətlərinin ildən-ilə artmasına əlverişli şərait yaratmışdır. Qürurverici haldır ki, idmançılarımız ötən illər ərzində Paralimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında çoxsaylı qələbələr əldə etmişlər. Məhz həmin nailiyyətlər idmançılarımızın yüksək peşəkarlığının, iradəsinin və əzmkarlığının parlaq nümunəsidir. Onların qazandıqları hər bir medal Azərbaycan xalqına sevinc bəxş etməklə yanaşı, əlilliyin insana idmanla məşğul olmağa maneə törətmədiyini bir daha sübut edir".

Prezident İlham Əliyev Milli Paralimpiya Komitəsinin bundan sonra da paralimpiya hərəkatının inkişafına və dövlət bayrağımızın yüksəldilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Gələcəyin Azərbaycanı bugünkü gəncliyin biliyi, əməyi, mənəviyyatı və məsuliyyəti ilə formalaşır. Gənclərə göstərilən qayğı yalnız müəyyən dövrün vəzifəsi deyil, ölkənin uzunmüddətli inkişafına xidmət edən mühüm istiqamətdir. Gənclərin potensialına inanmaq, onların qarşısında imkanlar açmaq və təşəbbüslərinə dəstək göstərmək sabaha inamı möhkəmləndirir.

Azərbaycan gəncliyi öz tarixindən güc alan, müasir biliklərə yiyələnən, milli-mənəvi dəyərlərini qoruyan və cəmiyyət qarşısında məsuliyyətini dərk edən nəsil kimi yetişməlidir. Dövlət qayğısı, ailə tərbiyəsi, keyfiyyətli təhsil və gənclərin şəxsi səyi bu məqsədə aparan əsas amillərdəndir.

Gəncliyə dəstək vermək gələcəyə qayğı göstərməkdir. Bu gün gənclərin təhsilinə, inkişafına və təşəbbüslərinə verilən dəyər sabah ölkəmizin tərəqqisi, cəmiyyətimizin rifahı və dövlətimizin davamlı inkişafı kimi öz bəhrəsini verəcək.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Sözün qanadında özünə doğru

İnsan qəlbi görünməyən bir aləmdir. Onun dərinliklərində heç kəsə açılmayan xatirələr, dilə gəlməyən etiraflar, zamanın susdura bilmədiyi duyğular yaşayır. Poeziya həmin aləmin qapısını açan sehrli açardır. Söz bu qapıdan keçərək hissə çevrilir, misra yaddaşa, şeir isə insan ruhunun aynasına dönür.



Arzu Əyyarqızının poetik dünyası da insan ruhunun bu incə qatlarına yönələn, yaşantıların duyğuya, duyğuların sözə çevrildiyi bir aləmdir. Cəlilabadın Şatırlı kəndində dünyaya göz açan Arzu Əyyarqızının həyat yolu ilk baxışdan adi bir insan ömrünün mənzərəsini xatırladır. Orta məktəb, tibb təhsili, əmək fəaliyyəti, ailə qayğıları... Bu zahiri mənzərənin arxasında heç vaxt susmayan, daim özünü ifadə etməyə çalışan başqa bir aləm - poeziya dünyası yaşayır. Arzunun sözlə ilk tanışlığı hələ uşaqlıq illərinə təsadüf edir. İlk şeirini 9 yaşında yazan balaca qızın qəlbində o vaxtdan bir söz çırağı yanmağa başlayır. İllər keçir, uşaqlıq duyğuları böyüyür, həyat ona müxtəlif sınaqlar təqdim etsə də, həmin çıraq sönmür, əksinə, yaşantılar, sevinc və kədərlər, itkilər və ümidlər onun poeziyasının yeni rənglərini yaradır.

Arzunun həyatında diqqətçəkən məqamlardan biri də tibb sahəsində çalışmasıdır. Onun həyatında iki fərqli xidmət sahəsi birləşir - birində insanın fiziki ağrılarına məlhəm olmağa çalışır, digərində isə mənəvi duyğularını sözün dili ilə ifadə edir. Bəlkə də buna görə onun yaradıcılığında insan taleyi, mərhəmət, sevgi və həssas duyğular xüsusi yer tutur.

Şairin yaradıcılığının diqqətçəkən cəhətlərindən biri mövzu rəngarəngliyidir. Vətən, insan, ailə, ata, ana, sevgi, təbiət və milli-mənəvi dəyərlər Arzunun poetik dünyasında özünəməxsus yer tutur. Bu mövzuların hamısını birləşdirən əsas xətt insanın mənəvi aləminə diqqət, duyğuların səmimi ifadəsi və qəlbin özünü anlamaq istəyidir. Arzunun "Bir şeir ağlayım" şeirindən verilən misralar onun poetik dünyasının başqa bir çalarını üzə çıxarır:

Bir şeir ağlayım bir payız günü,
Xəzəl göz yaşlarım tökülsün bir-bir.
Bir şeir ağlayım ömür adında,
Tökülsün ruhumdan sətirbəsətir.

Arzunun poetik düşüncəsində özünü axtarmaq mövzusu mühüm yer tutur. "Axtarın məndə məni, özümü itirmişəm" misrası insanın daxili ziddiyyətlərini, özünə yadlaşmasını və mənəvi axtarışlarını ifadə edən bir çağırış təsiri bağışlayır. Bu, təkcə şairin şəxsi duyğusu deyil, həyatın qayğıları, məsuliyyəti və yaşantıları içərisində özünü axtaran hər kəsin tanıya biləcəyi bir hissdir. İnsan başqalarının arasında yaşasa da, özünə qayıtmaq üçün uzun bir yol keçməli olur.

Sevgi mövzusu isə Arzunun yaradıcılığında yalnız hisslərin təsviri ilə məhdudlaşmır. O, sevgiyə münasibətini bəzən gözlənilməz, hətta riyazi bir obrazla ifadə edir. "Sevgi düsturu" şeirindəki:

Sevginin riyazi düsturu oldu,
Sən üstə Mən gəldi, cəm Biz alındı.

misraları bu baxımdan maraqlıdır. Burada iki ayrı insanın birliyindən yaranan "biz" anlayışı sadə riyazi əməl vasitəsilə poetik məna qazanır. Şair sevginin mahiyyətini birləşməkdə, iki fərqli dünyadan vahid mənəvi bütövlük yaratmaqda görür. Bu yığcam ifadənin yadda qalmasının səbəbi də fikrin sadə, obrazlı və aydın şəkildə təqdim edilməsidir.

Şairin "Bilmirsən" şeirində isə sevginin daha geniş və çoxqatlı mənzərəsi yaradılır. Şair sevdiyi insanı ana qucağına, qorunub saxlanılan oyuncağa, ata ocağına, nəvazişə ehtiyacı olan körpəyə bənzədir. Bu bənzətmələr sevginin yalnız romantik duyğu olmadığını, onun içində qayğı, güvən, doğmalıq, qorumaq və qorunmaq ehtiyacının da yaşadığını göstərir.

Arzunun yaradıcılığında milli-mənəvi dəyərlərə münasibət də xüsusi yer tutur. "Ən müqəddəs pay kəlağayı" kitabının adı təsadüfi seçilməyib. Kəlağayı Azərbaycan qadınının zərifliyini, tarixini, ailə yaddaşını və milli kimliyini özündə yaşadan mənəvi rəmzlərdəndir. Bu mövzuya müraciət etməklə şair yalnız milli geyim nümunəsini deyil, nəsillərdən-nəsillərə ötürülən mədəni irsi poetik düşüncəyə gətirir.

"Qəlbimin səsi", "Sözün işığı", "Açılsa dünyanın bəsirət gözü" və "Ən müqəddəs pay kəlağayı" kitabları Arzunun yaradıcılıq yolunun müxtəlif mərhələlərini əks etdirir. Şeirlərinin "Azərbaycan", "Ədəbiyyat", "Ədalət" qəzetlərində, müxtəlif ədəbi jurnallarda, antologiya və almanaxlarda dərc olunması, Türkiyədə, Təbrizdə və Tehranda yayımlanması onun sözünün daha geniş oxucu auditoriyasına çatmasına imkan yaradıb.

Filologiya elmləri doktoru Vaqif Yusiflinin və ədəbiyyatşünas Vaqif Osmanlının Arzunun yaradıcılığına həsr etdikləri təhlillər də bu poetik yolun ədəbi mühitdə diqqət çəkdiyini göstərir. Onların yazılarında şairin obrazlı təfəkkürü, səmimi duyğuları, milli dəyərlərə bağlılığı və inkişaf imkanları müxtəlif istiqamətlərdən dəyərləndirilir.

Arzunun fəaliyyəti yalnız şeir yazmaqla bitmir. O, yaşadığı bölgənin ədəbi həyatında iştirak edir, ədəbi poeziya məclislərinin təşkili və qələm sahiblərinin bir araya gəlməsi istiqamətində təşəbbüslər göstərir. "Mizan" və "Həməşəra" poeziya məclisləri ilə bağlı fəaliyyəti onun ədəbiyyatı təkcə fərdi yaradıcılıq deyil, həm də ünsiyyət və mənəvi paylaşım məkanı kimi qəbul etdiyini göstərir. Ədəbiyyat yeni səslərə meydan açdıqca, fikir mübadiləsi və ədəbi müzakirələr genişləndikcə daha canlı və məhsuldar olur. Əlbəttə, gənc şairin qarşısında hələ uzun yaradıcılıq yolu var. Hər yeni kitab əvvəlkindən daha dolğun, hər yeni şeir daha mükəmməl olmalıdır.

Arzu Əyyarqızının həyatına və yaradıcılığına nəzər salanda bir həqiqət aydın görünür - insanın yaşadığı yer onun düşüncələrinin sərhədi deyil. Cəlilabadın kəndində doğulan, burada çalışan və yazıb-yaradan bir qələm sahibinin misraları müxtəlif şəhərlərdə oxucuya çatırsa, deməli, söz özünə mənəvi yol açmağı bacarıb.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Uğura pillə-pillə

Elmdə yeni nəfəs

Dünya dəyişir. Bu dəyişiklik şəhərlərin simasında, insanların həyat tərzində, istehsal və idarəetmə üsullarında, eyni zamanda təhlükəsizlik anlayışının özündə baş verir. Vaxtilə dövlətlərin təhlükəsizliyi əsasən sərhədlərin qorunması, hərbi qüdrət və iqtisadi imkanlarla ölçülürdüsə, bu gün həmin anlayışın mühüm istiqamətlərindən biri rəqəmsal məkanın etibarlılığıdır.

Məlumatın, texnologiyanın və süni intellektin həyatımızın ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə kibertəhlükəsizlik təkcə mütəxəssislərin müzakirə etdiyi texniki məsələ deyil, hər bir insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinə aid strateji məsələdir. Belə bir mürəkkəb və məsuliyyətli sahədə elmi axtarışlar aparan, biliklərini gənc nəslə ötürən alimlərin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Gənc alim Lamiyə Nəcəfovanın elmi və pedaqoji fəaliyyəti də məhz bu zərurətdən qaynaqlanır.

Lamiyə Nəcəfovanın elmi dünyagörüşünün formalaşmasında riyaziyyata olan erkən marağı mühüm rol oynayıb. Gənc tədqiqatçı 2012-ci ildə Bakı Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub. Sonradan kompüter elmləri üzrə magistratura və doktorantura təhsili alması onun elmi maraqlarını daha geniş müstəviyə çıxarıb. 2018-ci ildə magistraturanı fərqlənmə diplomu ilə başa vurması isə ilk akademik uğurlarından biri olub. Riyaziyyatın məntiqi təfəkkürü ilə kompüter elmlərinin texnoloji imkanlarının qovuşması onun gələcək tədqiqat istiqamətinin əsasını təşkil edib.

Əmək fəaliyyətinə 2016-cı ildə AMEA-nın İdarəetmə Sistemləri İnstitutunda başlayan Lamiyə Nəcəfova hazırda Elm və Təhsil Nazirliyinin Riyaziyyat İnstitutunda kiçik elmi işçi kimi fəaliyyət göstərir. İnstitutun İnformasiya qeyri-müəyyənliyi şəraitində qərarqəbuletmə laboratoriyasında apardığı tədqiqatlar onun elmi maraqlarının mühüm istiqamətini əhatə edir. Gənc alimin fikrincə, müasir texnologiyaların inkişafı informasiya təhlükəsizliyinə yanaşmanın da yenilənməsini tələb edir. Ona görə, bu gün əsas məsələ yalnız informasiyanı qorumaq deyil, həm də informasiya əsasında işləyən sistemlərin nə dərəcədə etibarlı qərarlar qəbul etdiyini müəyyənləşdirməkdir. Xüsusilə süni intellektin idarəetmə və qərarvermə proseslərinə inteqrasiyası yeni risklər yaradır. Alqoritmlərin yanlış, natamam və ya qərəzli məlumatlar əsasında nəticə çıxarması bəzən ciddi fəsadlara səbəb ola bilər. Buna görə də texnoloji sistemlərin təhlükəsizliyi ilə yanaşı, onların qərarlarına etimadın da elmi əsaslarla təmin edilməsi vacibdir.

Gənc alimin bu yanaşması təsadüfi deyil. Çünki kibertəhlükəsizlik fərdi kompüterlərin və informasiya bazalarının qorunması çərçivəsini çoxdan aşıb. Enerji sistemləri, maliyyə sektoru, nəqliyyat, səhiyyə və dövlət idarəçiliyi rəqəmsal infrastrukturlardan asılı vəziyyətə gəlib. Bu sistemlərdə baş verə biləcək kiberhücumlar təkcə texniki problemlər yaratmır, iqtisadi sabitliyə, ictimai təhlükəsizliyə



və dövlətin strateji maraqlarına da təsir göstərə bilər.

Redaksiyamızın qonağı olan Lamiyə xanım dedi ki, gələcəyin kibertəhlükəsizliyində əsas məsələlərdən biri alqoritmik qərarların yoxlanılması, onların hansı məlumatlar əsasında formalaşdığının izlənilməsi və zəruri hallarda insan müdaxiləsinin mümkünlüyüdür. Alimin qənaətinə görə, "alqoritm belə qərar verdi" ifadəsi heç bir halda yetərli əsaslandırma sayıla bilməz: "Hər bir qərarın arxasında etibarlı məlumat, nəzarət mexanizmi və məsuliyyət prinsipi dayanmalıdır. Bu baxımdan alqoritmik etimad gələcəyin rəqəmsal təhlükəsizliyinin fundamental şərtlərindən birinə çevrilir".

Lamiyə Nəcəfovanın fəaliyyətində elmi tədqiqatla pedaqoji iş bir-birini tamamlayır. O, 2019-cu ildən Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və digər ali təhsil müəssisələrində kompüter elmləri, kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi üzrə dərslər aparır. Lamiyə tələbələrə yalnız nəzəri biliklər verməklə kifayətlənmir, onların analitik düşüncə və təhlükəsiz rəqəmsal davranış bacarıqlarının inkişafına da xüsusi önəm verir.

2016-cı ildə hələ tələbə ikən riyaziyyat üzrə ilk test kitabının nəşri onun maarifçilik fəaliyyətinə erkən başladığını göstərir. Sonrakı illər elmi konfranslarda, peşəkar forumlarda və maarifləndirici tədbirlərdə iştirakı, kibertəhlükəsizlik üzrə ekspert və təlimçi kimi fəaliyyəti bu istiqamətdəki ardıcıl mövqeyini təsdiqləyir. 2024-cü ildən Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının eksperti kimi çalışması da onun peşəkar fəaliyyətinin mühüm mərhələsidir.

Gənc alimlərin elmi mühitdə fəallığının artırılması Lamiyə Nəcəfovanın diqqət yetirdiyi məsələlərdəndir. Müxtəlif illərdə AMEA-nın İdarəetmə Sistemləri İnstitutunda Gənc Alim və Tədqiqatçılar Şurasının sədr müavini və sədri olub. Hazırda Riyaziyyat İnstitutunun eyniadlı şurasına rəhbərlik edir. 2025-ci ildən Women in Cyber Security Azerbaijan icmasının idarə heyətinin üzvü kimi qadınların və gənc qızların texnologiya sahəsində inkişafına dəstək verir. 2018-ci ildə AMEA-nın "İlin magistri" müsabiqəsinin qalibi seçilməsi onun elmi potensialının erkən qiymətləndirilməsinin göstəricisidir.

Gələcək planlarından danışarkən Lamiyənin elmi və praktiki fəaliyyətin vəhdətinə üstünlük verdiyi aydın görünür. Onun maraq dairəsində süni intellektin təhlükəsiz tətbiqi, informasiya sistemlərinin etibarlılığı, kiberrisklərin azaldılması və rəqəmsal savadlılığın gücləndirilməsi kimi aktual məsələlər dayanır. Əsas məqsəd isə texnologiyaların inkişafını təhlükəsizlik və məsuliyyət prinsipləri ilə uzlaşdırmaqdır.

Lamiyə Nəcəfovanın fəaliyyətində diqqətçəkən əsas məqam əldə etdiyi nəticələr deyil, qarşıya qoyduğu elmi düşüncənin aktuallığıdır. Rəqəmsal gələcəyin təhlükəsizliyi yeni texnologiyalar yaratmaqla yanaşı, həm də həmin texnologiyalara etibar etməyin elmi əsaslarını formalaşdırmaqdan keçir. Gənc alimin axtarışları da məhz bu böyük məqsədə xidmət edir.

E.QƏNİYEV,
"Azərbaycan"

Mənəviyyat mövzusunda

Gözəl nitq də bir zənginlikdir

Yaşlı və ortayaşlı insanların gənclərlə dialoqlarında bəzən qəribə bir nüansın şahidi oluruq. Gənclər həmsöhbətlərindən eşitdikləri frazeoloji söz birləşmələrinə, zərb məsəllərə çevrilmiş ifadələrə reaksiya verə bilmirlər. Onların mənşəyindən, yəni haradan qaynaqlandığından, yaxud hansı əsərdən misal gətirildiyindən məlumatsız olduqları üçün mənasını da başa düşmür, mətləbi anlamır və təbii ki, söhbəti davam etdirməkdə aciz qalırlar.



Qonşumuzun qızına adı nənəsi vermişdi. Hərdən nəvəsini sadəcə Almaz deyə çağırmışdı. Necə deyərlər, müqəddimə də əlavə edirdi: "Almaz xanım, inci xanım, zümrüd xanım..."

Almaz elə düşünürdü ki, bu komplimentin müəllifi nənəsinin özüdür. Doğrudur, adının Cəfər Cabbarlının "Almaz" pyesindən götürüldüyünü bilirdi. Ancaq əsərdən o dərəcədə məlumatlı deyildi ki, bu sözlərin həmin əsərin qəhrəmanı, kənd şurasının katibi Şərifə mənsub olduğunu bilsin.

Bəli, çox təəccüblüdür. Bu qızda ən azından adının "Almaz"dan götürüldüyü üçün həmin əsəri oxumaq marağı oyanmamışdı...

Bir dialoqun da poliklinikada şahidi olduq. Qoltuq ağacına söykənərək oraya tez-tez gələn yaşlı kişi gənc sahə həkiminin davranışından, xəstəyə münasibətindən, müalicələrindən çox razı idi. Odur ki, hərdən qımışaraq həkiminə "doktor bəy" deyə müraciət edirdi. Bu söhbətcil qoca bir gün sözarası həkimindən soruşdu ki, "ay oğul, belə bir müraciətə hansı əsərdə rast gəlmisən". Həkim başını buladı.

- Bəlkə filmi xatırlayasan?

Qocanın sualı yenə də cavabsız qaldı.

- "Çalıquşu"ndandır, oğlum, türk yazıçısı Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanından. Türk ədəbiyyatından dünya səviyyəli nümunədir, - deyə xəstə həkimini məlumatlandırmaqda davam edirdi:

- Növbəti dəfə televizorda göstəriləndə o kinoya baxarsan, çox maraqlıdır...

Buna bənzər daha bir misal. Ortayaşlı taksi sürücüsü və sərnişini olan gənc oğlan qəsəbənin bu döngəsindən o döngəsinə keçərək lazımi ünvanı axtarırdılar. Nəhayət, sürücü hövsələdən çıxaraq dedi:

- Ay bala, bu nə oldu bilirsən? "Kəndə, babama"...

Oğlan sürücünün nə demək istədiyini anlamayaraq çaşqın-çaşqın onun üzünə baxdı. Kişi isə dərhal başa düşdü ki, bu gəncin məşhur rus yazıçısı Anton Çexovun "Vanka" hekayəsindən və təbii ki, oradan irəli gələn "kəndə, babama" frazeoloji söz birləşməsindən xəbəri yoxdur. Odur ki, sərnişinin "nə dediniz, əmi?" sualına sürücü, sadəcə, belə cavab verdi: "Oğul, bu o deməkdir ki, əvvəlcə ünvanı dəqiq öyrənməli, sonra yola çıxmalısan".

Hələ bunlar nədir ki? Bir çox gəncimiz hətta dahi Üzeyir bəyin qəhrəmanlarının "Heç hənanın yeridir?", "Tarixi-Nadiri yarıya qədər oxumuşam", "Sənin beş min manatın cəhənnəm, bəs mənim bir abbasım hara getdi?" və bu kimi digər ifadələrini eşidəndə gözlərini geniş açaraq heç nə anlamadıqlarını aydınca büruzə verirlər. Deməli, tez-tez nümayiş etdirilən retro, lakin çox sanballı və maraqlı filmlərimizə də baxmırlar. Hələ kitab oxumaq bir yana qalsın...

Kitab oxumaq isə təkcə bilik əldə etmək, dünyagörüşü qazanmaq deyil, həm də mənən zənginləşməkdir. Yaxşı həmsöhbət olmaq üçün də mənən zəngin olmaq lazımdır.

Flora SADIQLI,
"Azərbaycan"

Sağlam yaşa

Qocalmanı ləngitmək mümkündürmü?

İnsan ömrünü uzatmaq arzusu bəşəriyyəti əsrlər boyu düşündürən məsələlərdən biridir. Qədim dövrlərdə uzunömürlülüyün sirri müxtəlif iksirlərdə və möcüzəvi vasitələrdə axtarılırdısa, müasir elm bu suala hüceyrələrin fəaliyyəti, genetik mexanizmlər, maddələr mübadiləsi və həyat tərzi üzərindən cavab tapmağa çalışır.



Son illər tibbin ən çox diqqət yetirdiyi istiqamətlərdən biri yalnız insan ömrünün uzadılması deyil, həm də onu sağlam və fəal yaşamaqdır. Alimlər hesab edirlər ki, əsas məqsəd insanın neçə il yaşamasından daha çox, həmin illəri hansı fiziki və zehni vəziyyətdə keçirməsidir. Bu baxımdan sağlam qocalma, hüceyrələrin yenilənməsi və autofagiya mexanizmi müasir elmi araşdırmalarda mühüm yer tutur.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2030-cu ilə qədər dünyada hər altı nəfərdən biri 60 və daha yuxarı yaşda olacaq. 2050-ci ildə isə bu yaş qrupuna daxil olan insanların sayının 2,1 milyarda çatacağı proqnozlaşdırılır. Əhalinin yaşlanması səhiyyə sistemləri qarşısında yeni vəzifələr qoyur. Çünki yaş artdıqca ürək-damar xəstəlikləri, şəkərli diabet, osteoporoz, demensiya və bəzi xərçəng növlərinin yaranma ehtimalı yüksəlir. Lakin yaşlanma bütün insanlarda eyni sürətlə getmir. Bəzi insanlar 80 yaşında belə fəal həyat sürür, digərlərində isə daha erkən yaşlarda ciddi sağlamlıq problemləri meydana çıxır. Bu fərqin yaranmasında irsiyyətlə yanaşı, qidalanma, fiziki aktivlik, yuxu, ətraf mühit və zərərli vərdişlər mühüm rol oynayır.

Müasir gerontologiyada xronoloji yaşla bioloji yaş arasında fərq qoyulur. Xronoloji yaş insanın doğulduğu gündən keçən illəri göstərir. Bioloji yaş isə orqanizmin funksional vəziyyətini və yaşlanma ilə əlaqəli dəyişiklikləri əks etdirir. Eyni yaşda olan iki insanın ürək-damar sistemi, əzələ gücü, maddələr mübadiləsi və immun fəaliyyəti fərqli ola bilər. Tədqiqatçılar bioloji yaşın qiymətləndirilməsi üçün DNT metilləşməsi, qan göstəriciləri və digər biomarkerləri araşdırırlar. Bununla belə, hazırda bioloji yaşı tam dəqiqliklə müəyyən edən və gələcək sağlamlıq vəziyyətini qüsursuz proqnozlaşdıran vahid test mövcud deyil.

Yaşlanmanın hüceyrə səviyyəsində öyrənilməsi zamanı diqqətçəkən proseslərdən biri autofagiyadır. Yunan mənşəli bu termin hərfi mənada "özünü yemək" deməkdir. Lakin onun bioloji mahiyyəti daha mürəkkəbdir. Autofagiya hüceyrənin zədələnmiş və ya artıq funksiyasını itirmiş komponentlərini parçalayaraq yenidən istifadə etməsinə imkan verən təbii mexanizmdir. Hüceyrə daxilində yararsız zülallar, köhnəlmiş orqanoidlər və digər tullantılar xüsusi strukturlar vasitəsilə lizosomlara daşınır. Burada parçalanan maddələrin müəyyən hissəsi yeni hüceyrə komponentlərinin hazırlanmasında və enerji mübadiləsində istifadə olunur. Beləliklə, autofagiya hüceyrədaxili tarazlığın qorunmasına kömək edir.

Bu mexanizmin elmi əhəmiyyəti 2016-cı ildə daha geniş ictimaiyyətin diqqətini cəlb etdi. Həmin il yaponiyalı alim Yoşinori Osumi autofagiyanın mexanizmlərinin kəşfinə görə fiziologiya və tibb üzrə Nobel mükafatına layiq görüldü. Onun maya hüceyrələri üzərində apardığı tədqiqatlar autofagiyanı idarə edən genlərin müəyyənləşdirilməsinə və prosesin molekulyar əsaslarının anlaşılmasına mühüm töhfə verdi. Sonrakı araşdırmalar autofagiyanın insan hüceyrələrində də mühüm funksiyalar yerinə yetirdiyini göstərdi. Bu prosesin pozulması bəzi neyrodegenerativ xəstəliklər, metabolik pozuntular və yaşlanma ilə əlaqəli hüceyrə dəyişiklikləri ilə əlaqələndirilir.

Autofagiyanın ən çox müzakirə olunan xüsusiyyətlərindən biri onun qida çatışmazlığı şəraitində aktivliyinin dəyişməsidir. Orqanizmə qida daxil olmadıqda hüceyrələr enerji ehtiyatlarından daha səmərəli istifadə etməyə çalışır. Bu zaman AMPK və mTOR kimi molekulyar siqnal yolları autofagiyanın tənzimlənməsində iştirak edir. Məhz buna görə fasiləli aclıq və vaxt məhdudiyyətli qidalanma son illərdə uzunömürlülüklə bağlı müzakirələrdə geniş yer tutur. Ancaq burada mühüm elmi məqam var: insanlarda autofagiyanın ac qaldıqdan dəqiq neçə saat sonra əhəmiyyətli dərəcədə gücləndiyini göstərən universal vaxt həddi müəyyən edilməyib. Sosial şəbəkələrdə yayılan 16 və ya 18 saatlıq aclığın avtomatik olaraq hüceyrələri yenilədiyi barədə iddialar elmi baxımdan sadələşdirilmiş yanaşmadır.

Heyvanlar üzərində aparılan bəzi təcrübələr kalori məhdudiyyətinin və müəyyən qidalanma rejimlərinin ömür uzunluğuna təsir göstərə bildiyini nümayiş etdirib. Lakin bu nəticələrin insanlara birbaşa tətbiqi mümkün deyil. İnsanlarda aparılan tədqiqatlar müəyyən qidalanma rejimlərinin bədən çəkisi, insulin həssaslığı və bəzi ürək-damar risk göstəricilərinə müsbət təsir edə biləcəyini göstərsə də, fasiləli aclığın insan ömrünü uzatdığı hələ sübut olunmayıb. Üstəlik, uzunmüddətli aclıq hər kəs üçün təhlükəsiz deyil. Xüsusilə diabet dərmanları qəbul edənlər, hamilələr, qidalanma pozuntusu olanlar və bəzi xroniki xəstəliklərdən əziyyət çəkənlər belə rejimləri həkim nəzarəti olmadan tətbiq etməməlidirlər.

Bununla yanaşı, sağlam qocalmanın əsas şərtlərindən biri əzələ kütləsinin qorunmasıdır. Yaş artdıqca əzələ gücü və kütləsi azala bilər. Sarkopeniya adlanan bu vəziyyət yıxılma, hərəkət məhdudiyyəti və müstəqilliyin itirilməsi riskini yüksəldir. ÜST böyüklərə həftədə ən azı 3-5 saat ortaintensivlikli fiziki fəaliyyət, həmçinin həftədə ən azı iki gün əzələ gücləndirici məşqlər tövsiyə edir. Yaşlı insanlarda tarazlıq məşqləri də xüsusi əhəmiyyət daşıyır. Müntəzəm hərəkət ürək-damar sağlamlığını dəstəkləyir, qan şəkərinin tənzimlənməsinə kömək edir və funksional imkanların qorunmasında mühüm rol oynayır.

Qidalanma uzunömürlülüyün digər vacib amilidir. Elmi araşdırmalarda Aralıq dənizi tipli qidalanma modeli sağlam yaşlanma ilə əlaqələndirilir. Bu model tərəvəz, meyvə, paxlalılar, tam taxıllar, qozfındıq, zeytun yağı və balıq istehlakına üstünlük verir. Emal olunmuş ət məhsullarının, əlavə şəkərin və həddindən artıq duzun məhdudlaşdırılması isə xroniki xəstəliklərin qarşısının alınmasına kömək edə bilər. Xüsusilə yaşlı insanlarda kifayət qədər zülal qəbulu əzələ kütləsinin qorunması baxımından əhəmiyyətlidir. Bununla belə, hər kəs üçün eyni pəhriz uyğun deyil və qidalanma fərdi sağlamlıq vəziyyətinə əsasən müəyyənləşdirilməlidir.

Əslində, uzunömürlülüyün sirri təkcə hüceyrələrin yenilənməsində və ya müəyyən saatlarla ac qalmaqda deyil. Elmi sübutlar göstərir ki, balanslı qidalanma, müntəzəm fiziki fəaliyyət, kifayət qədər yuxu, siqaretdən uzaq durmaq, profilaktik müayinələr və sosial fəallıq sağlam yaşlanmanın əsas dayaqlarıdır. Autofagiya ilə bağlı kəşflər gələcək tibbi müalicələr üçün yeni imkanlar açsa da, bu gün insanın öz sağlamlığı üçün edə biləcəyi ən təsirli seçim elmi əsaslandırılmış həyat tərzini gündəlik vərdişə çevirməkdir. Çünki uzun yaşamaq qədər həmin illəri sağlam, müstəqil və həyat keyfiyyətini qoruyaraq keçirmək də əhəmiyyətlidir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

S.Vurğun adına Sağlamlıq və İstirahət Mərkəzində ağacəkmə aksiyası keçirilib



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Səməd Vurğun adına Sağlamlıq və İstirahət Mərkəzində ağacəkmə aksiyası təşkil olunub.




Ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunmasına dəstək məqsədilə keçirilən aksiyada konfederasiyanın, üzv və tabe təşkilatların əməkdaşları, həmkarlar ittifaqlarının üzvləri, AHİK könüllüləri iştirak ediblər.

Aksiya çərçivəsində əraziyə ağaclar əkilib, yaşıllıqlara qulluq göstərilib.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

Bəzi rayonlarda leysan olacaq, dağlıq ərazilərdə qar yağacaq

Azərbaycanda noyabrın 6-da gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Gecə yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi səhər mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 9-12° isti, gündüz 13-15° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi, gecə saatlarında yağıntıların bir qədər güclənəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Arabir güclənən qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 8-13° isti, gündüz 14-18° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 4-8° isti olacaq.

ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ RZAYEVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdamdan Vaqif Həsənov Mehman və Elman Bayramov qardaşlarına əzizləri, ədəbiyyatçı-alim

QURBAN BAYRAMOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ RZAYEVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ RZAYEVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3277
Sifariş 1469

Qiyməti 60 qəpik